Xalqın qəzeti!

# Xalq qəzeti

№ 72 (30476) 7 aprel 2024-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


## Türk dünyası qardaş xalqların ümumi ailəsidir

**Aprelin 6-da Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**



Ersin Tatar Azərbaycan Milli Məclisində Şimali Kipr Türk Cümhuriyyəti ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasına görə Prezident İlham Əliyevə təşəkkürünü çatdırıb.

Dövlətimizin başçısı parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasının xalqlarımız arasında əlaqələrin daha da güclənməsinə töhfə verəcəyini qeyd edib.

**Prezidentin Mətbuat Xidməti**

## "Üçlər" "altılar"a qarşı?

### Hansının Cənubi Qafqazda sülh istədiyi hamıya məlumdur

**Aprelin 5-də Brüsseldə ABŞ-Avropa İttifaqı-Ermənistan formatı çərçivəsində Birləşmiş Ştatların Dövlət Departamentinin rəhbəri Antoni Blinken, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və baş nazir Nikol Paşinyan arasında keçirilmiş görüş rəsmi İrəvanın tamamilə Qərbə doğru üz tutduğunun növbəti sübutudur. Toplantının Ermənistana yalnız iqtisadi dəstəyə hesablandığını iddia edən təqdimatlar bu baxışı dəyişdirmək iqtidarında deyil. Həm də ona görə ki, istənilən iqtisadi dəstəkdə siyasi motivlər olur. Nəzərə alaq ki, kollektiv Qərb İrəvana pulu Paşinyanın qara qaş– qara gözünə görə vermir. Ermənistan demokratiyasını qorumaq kimi sentimental ifadələr də keçərsizdir.**



Beləliklə, Brüssel görüşü Ermənistanın hesabına Cənubi Qafqazdakı balansı pozmaq məqsədi daşıyır. Qərb üçün, bu, Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaq niyyətidirsə, Ermənistan möhkəmlənməklə, Azərbaycana qarşı revanşist və şovinist siyasət üçün dayaq nöqtəsi axtarır, regional sabitliyə və təhlükəsizliyə böyük təhdid yaradır. Bəs regiona aid maraqlı qüvvələr bununla əlaqədar nə düşünürlər?

Əslində, indiki məqamda Azərbaycan və Rusiyanın mövqeyi uzlaşır. Türkiyə də ölkəmizin tərəfindədir. Yerdə qalır İran. Moskvadan və Bakıdan, o cümlədən Bakı ilə həmrəy olan Ankaradan fərqli olaraq, Tehranın Brüsseldəki üçtərəfli formata münasibətində qətiyyət nəzərə çarpmır. Hərçənd, İrəvanın istənilən xarici təmaslarda sərbəstliyini vurğulayan İran ABŞ və NATO-nun Cənubi Qafqazda təmsilçiliyinin özü üçün "qırmızı xətt" olduğunu açıqlayıb. Ancaq belə yanaşma ümumidir, özündə adekvat prinsipiallıq daşımır.

Nəzərə alaq ki, Ermənistanın hazırkı davranışları rəsmi Tehranın daim dəstəklədiyi "region region ölkələri üçündür" formuluna zidd təmayüldür. Deməli, İran sırf Brüssel görüşünün doğurduğu və doğura biləcəyi reallıqlara köklənməlidir. Hazırda belə bir kökləniş varmı? Təəssüf ki, yox. Məsələn, Ermənistan silahlı qüvvələri Azərbaycanla şərti sərhəddə atəşkəsi pozurlar, Tehrandan isə səs çıxmır. Axı atəşkəsin pozulması Qərbin İrəvan üzərinə oynadığı Cənubi Qafqaz avantürasının tərkib hissəsidir. Məgər rəsmi Tehran bunu bilmir?

(ardı 3-cü səhifədə)

## Militaristin taktikası – iz azdırmaq

**Ərazisini Qərbdən, Şərqdən aldığı silah–sursatla doldurmaqla nəyəsə nail olacağını düşünən Ermənistan hakimiyyəti Azərbaycanın rəsmi şəkildə əldə etdiyi hərbi texnikanın "uçotunu" aparmaqla məşğul imiş. Bu sahədə də "fəaliyyət göstərən" rəsmi İrəvan "qabaqdangəlmişlik" edərək Brüsseldə keçirilən üçtərəfli görüş ərəfəsində "Azərbaycanın hərbi texnika alışının intensivliyinə dair sənədlər"i Avropa İttifaqı (Aİ) və ABŞ nümayəndələrinə təqdim edib.**




İrəvanın özünün ötürdüyü şübhə doğurmayan bu feyk-xəbəri səxavətlə paylaşan "Politico" nəşrinin yazdığına görə, baş nazir Nikol Paşinyan Azərbaycanın İsrail və Pakistandan külli miqdarda hərbi texnika almasına dair "dosye"ni Aİ və ABŞ rəsmilərinin diqqətinə çatdırıb. "Politico"ya ötürülən məlumata görə, Ermənistan iddia edir ki, bu ilin əvvəlindən Azərbaycana orta hesabla hər gün silah–sursat göndərilib.

(ardı 4-cü səhifədə)



## Brüsseldən "uçuşan" güllələr

**Aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen və ABŞ Dövlət katibi Antoni Blinken arasında keçirilən görüş, gözlənildiyi kimi, dərhal öz "bəhrəsini" verdi.**

Görüş başa çatar-çatmaz Ermənistan–Azərbaycan şərti sərhədində təxribat törədildi. Müdafiə Nazirliyinin dünən yaydığı məlumata görə, aprelin 5-də saat 21:55-dən 23:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsürskənd, Basarkeçər rayonunun Aşağı Şorca, Yuxarı Şorca, Günəşli və Gorus rayonunun Ərəvus yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Tovuz rayonunun Əlibəyli, Daşkəsən rayonunun Xoşbulaq, Kəlbəcər rayonunun Yellicə, Zəylik və Laçın rayonunun Çağazur yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar. Ümumilikdə, aprelin 5-də Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri 30 dəfə atəşə tutulub.

Öz növbəsində Ermənistan tərəfi ənənəsinə sadiq qalaraq ordumuzun mövqelərini atəşə tutması ilə bağlı dezinformasiya yayıb. Hayastan müdafiə nazirliyinin məlumatında aprelin 5-dən 6-na keçən gecə Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin şərti sərhədin bir sıra istiqamətlərində müxtəlif çaplı silahlardan atəş açdığı iddia edilib. Ermənistan silahlı qüvvələrinin bölmələri saat 21:00-dan 23:00-dək İşxanəsər istiqamətində Azərbaycan Silahlı Qüvvələrinə məxsus texnikanın aktiv hərəkətini də müşahidə ediblərmiş. Guya, erməni ordusunun bölmələri mövcud şəraiti qiymətləndirərək vəziyyətin daha da gərginləşməsinə səbəb olacaq addımlar atmayıb, bundan sonra sərhəddə sakitlik yaranıb. Müdafiə nazirliyi şərti sərhədboyu Ermənistanın qoşunlarını cəmləşdirməsini və hücum xarakterli dayaq məntəqələri qurmasını, müxtəlif istiqamətlərdə uzunmüddətli atəş nöqtələri yaratmasını, fortifikasiya qurğuları inşa etməsini "Ermənistan silahlı qüvvələrinin bölmələrinin adi növbə dəyişmə"si kimi təqdim etməyə çalışıb.

*(ardı 3-cü səhifədə)*

## USAID də prosesə qoşulursa...

### Deməli, Cənubi Qafqazda fəlakət proqramı işə salınır

**ABŞ, Avropa İttifaqı və Ermənistan arasında aprelin 5-də Brüsseldə keçirilən üçtərəfli görüş təkcə Cənubi Qafqazda deyil, ətraf region dövlətlərində də ciddi narahatlıq yaradıb. Azərbaycanla yanaşı, Rusiya və Türkiyə də bəyanat yayaraq, toplantının formatına, həmçinin müzakirə edilən mövzulara açıq tekstlə etirazlarını bildiriblər. Prezident İlham Əliyev qeyd edib ki, bu formatlı toplantılarla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. "Biz bu görüşün Azərbaycanın və Cənubi Qafqazda işbirliyinin əleyhinə olduğunu bilirik," –deyən dövlət başçısı əlavə edib ki, regionda geosiyasi vəziyyət zorla dəyişdirilir: "Ermənistanı Cənubi Qafqazda silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək".**

USAID FROM THE AMERICAN PEOPLE

Dünən bəlli olub ki, Ermənistanın baş naziri Nikol Paşinyan aprelin 5-də ABŞ-nin Dövlət katibi Antoni Blinken və Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayenlə yanaşı, həm də USAID-in rəhbəri Samanta Pauerlə görüşüb. Ermənistan Respublikasının Brüsseldəki səfirliyində keçirilən görüş zamanı USAID-in Ermənistana göstərəcəyi yardımların məbləğinin artırılması, həmçinin USAID-in Cənubi Qafqazda yeni formatlı strukturlaşması müzakirə edilib.

Ermənistan baş nazirinin Samanta Pauerlə görüşü də narahatlıq yaradıb və bu, əsassız deyil. ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) quruluş məramnaməsində qeyd edilir ki, o, xarici ölkələrdə mülki-humanitar yardımların çatdırılmasını, həmçinin, demokratik inkişafı hədəfləyən proqramların icrasını reallaşdıran təsisatdır. ABŞ Konqresi tərəfindən "Xarici Yardım Aktı" proqramı çərçivəsində təsdiqlənən layihələr USAID vasitəsilə icra edilir.

Amma təcrübə göstərir ki, USAID fəaliyyət göstərdiyi regionlarda mülki-humanitar kampaniyalarla, demokratik inkişafı ehtiva edən proqramlarla deyil, yaratdığı xaos və dağıntılarla yadda qalır. İşlədiyi regionlarda siyasi proseslərə açıq müdaxilə etməsi, hakimiyyət çevrilişlərinə dəstək göstərməsi ilə məşhurdur. ABŞ xarici yardım siyasətinin rəsmi komponenti kimi qurulan USAID son hərəkətləri ilə daha çox Dövlət Departamentinin və Mərkəzi Kəşfiyyat İdarəsinin tapşırıqlarının icraçısı rolunda görünür. ABŞ-ın hədəfində olan ölkələrdə fəlakətlər törədir. Çox da uzaq olmayan tarixdə–2023-cü ilin oktyabr ayında Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti USAID-i ifşa edən rəsmi açıqlamalar yayıb. Onu Gürcüstanda inqilabi proseslərin planlaşdırılmasında ittiham edib. Bu, USAID-in adının qarışdığı ilk qalmaqal deyil. Afrika, Asiya, Yaxın Şərq, Latın Amerikası və Şərqi Avropa dövlətlərində son 30 il müddətində gerçəkləşdirilən inqilabi proseslərdə, xaosun və qarşıdurmaların artmasında USAID-in iştirakı görünür.

Problem ondadır ki, USAID özünün bütün bu əməllərini "demokratiyaya dəstək vermək" adı altında gerçəkləşdirir. ABŞ-nin siyasətinə boyun əyməyən dövlətlərin vətəndaş cəmiyyəti institutlarını "qrantlar vermək" adı ilə ələ alır. Reallıqda isə onları maddi vəsaitlərlə şirnikləndirir, əvəzində legitim hakimiyyətlərə qarşı ictimai etimadsızlıq göstərməyə sövq edir. Bu kontekstdə USAID-in imkanları hədsiz dərəcədə genişdir. Təkcə 2023-2025-ci illərdə "müxtəlif ölkələrdə vətəndaş cəmiyyəti quruculuğuna dəstək vermək" adı altında USAID 9 milyard dollardan çox vəsait sərf edib. Bu vəsaiti "Vətəndaş cəmiyyətlərinin inkişafına töhfə vermək" adı altında realizə edib. Reallıqda isə siyasi proseslərə müdaxilə edib, cəmiyyətlərdə qarşıdurma yaratmağa çalışıb. Gürcüstan DTX-nin açıqladığı son məlumat, bu baxımdan, indiyədək bilinən faktların rəsmi şəkildə ifadəsidir.

(ardı 2-ci səhifədə)

## Sahibkarlar öz ölkəsinin əsl sahiblərinə çevriliblər

Səhifə ⇨ 7



## Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 365 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.4-cü bəndinin birinci cümləsində “üç” sözü “dörd” sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 aprel 2024-cü il**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturu”nda dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 7, maddə 657 (Cild I) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin strukturu”nun 2-ci və 4-cü hissələri ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 aprel 2024-cü il**

## XİN: Ermənistan təxribatçı addımlardan çəkinməlidir



**Ermənistan tərəfinin son bir neçə gün ərzində Silahlı Qüvvələrimizin bölmələrinə qarşı müntəzəm şəkildə törətdiyi hərbi təxribatlardan, müxtəlif istiqamətlərdə hərbi qüvvələr cəmləşdirmək kimi addımlarından fikir yayındırmaq məqsədilə Ermənistan Xarici İşlər Nazirliyinin ölkəmizi məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirməkdə təqsirləndirməsi qəbuledilməzdir və onların bu iddialarının heç bir əsası yoxdur.**

Bu barədə Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin son hərbi təxribatlar ilə bağlı bəyanatına dair şərhində bildirilib.

Mətbuat katibi qeyd edib: “Azərbaycanla sərhədyanı bölgələrdə Ermənistan tərəfindən hərbi istehkamlar qurulmasının hərbi islahatlar ilə əlaqələndirilməsinə, bununla yanaşı, Ermənistan tərəfindən kütləvi silahlanma siyasətinin onların suveren hüququ olması barədə fikirlərə gəldikdə, məhz nəyə görə Ermənistan tərəfindən bu addımların atılmasının qeyri-legitim olduğu və ölkəmizə qarşı təhlükə yaratdığı hər kəsə aydın olmalıdır. Belə ki, Ermənistan Konstitusiyasında, habelə bir sıra qanunvericilik aktlarında Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı davam edən iddialar, revanşizm cəhdlərinin mövcudluğu ölkəmizə qarşı Ermənistandan irəli gələn təhdidlərin miqyasını nümayiş etdirir. Bundan əlavə, Ermənistanda hərbi imkan olan zaman, bu ölkənin Azərbaycanın suveren ərazilərini 30 il ərzində işğal etdiyi nəzərə alınaraq, Ermənistana əlavə hərbi güc qazandırmaq səylərinin onların yeni gərginlik və təhdid mənbəyinə çevrilməsinə şərait yaradacağı şübhə doğurmamalıdır”.

A.Hacızadə vurğulayıb ki, Ermənistandan fərqli olaraq, Azərbaycan tam hərbi üstünlüyü ilə suveren ərazilərini beynəlxalq hüquqa uyğun şəkildə işğaldan azad etdi və Ermənistanın ərazilərinə qarşı təhdid törətmədi. Qeyd edilən çağırışlar fonunda, müxtəlif bəhanələr gətirməklə Ermənistanın aqressiv silahlanması təhdid mənbəyidir və Ermənistana bu təhlükəli yoldan çəkinməyə çağırış edilməsi zəruridir.

# USAID də prosesə qoşulursa...

## Deməli, Cənubi Qafqazda fəlakət proqramı işə salınır

**(əvvəli 1-ci səhifədə)**

Faktlar sübut edir ki, ABŞ II Dünya müharibəsindən sonrakı 70 il ərzində Avropa məkanında, o cümlədən, ümumilikdə, dünya miqyasında öz hegemonluğunu təmin etmək üçün bu mexanizmdən faydalanıb. “Humanitar yardım göstərmək”, “demokratik inkişafı dəstəkləmək” adı ilə çoxsaylı “donor institutlar” və “QHT şəbəkələri” formalaşdırıb. ABŞ-ın hansısa regionda maraqları təhlükəyə düşəndə həmin “donor institutlar” və peyk “QHT şəbəkələri” aktivləşiblər. Ərazisində fəaliyyət göstərdikləri milli hökumətləri fakt qarşısında qoyaraq güzəştlərə sövq ediblər. Belə proqramların işlək halda saxlanılması üçün ABŞ-da tam bir dövlət mexanizmi yaradılıb. USAID, NED, Marşall, İREX və digər “beynəlxalq donorlar” məhz bu proqramın icraçıları olaraq meydana çıxarılıb.

Onların çevrələrində QHT və media orqanlarından ibarət şəbəkələr formalaşdırılıb. Ayrı-ayrı ölkələrdə yüzlərlə “milli QHT” vardır ki, öz fəaliyyətlərini istisnasız olaraq Vaşinqtonla koordinasiya edir, okeanın o tayından gələn tapşırıqları qeyd-şərtsiz yerinə yetirirlər.

Azərbaycan da 2012-ci ildə “Eurovision” mahnı müsabiqəsi dövründə belə situasiya ilə üzləşib. Daha sonra, I Avropa Oyunları ərəfəsində, II Qarabağ müharibəsi dönəmində, həmçinin 19 sentyabr antiterror əməliyyatları zamanında USAID şəbəkəsinin total formalı qarayaxma kampaniyası ilə qarşılaşıb.

Son vaxtlar yenidən aktivləşən, heç bir əsas olmadan “Azərbaycanı etnik təmizləmədə”, “Ermənistan ərazisini işğal etməyə hazırlaşmaqda” ittiham edən KİV və QHT-lər də USAID və NED-in maliyyəsindən ilhamlanırlar. ABŞ Dövlət Departamenti və ya Konqres direktivlər yaradır, bu direktivlər “donorlar” vasitəsilə QHT/KİV şəbəkələrinə ötürülür və beləliklə, qarayaxma kampaniyaları intişar tapır.

ABŞ Administrasiyasının 2021-ci ilin dekabr ayıda keçirdiyi qalmaqallı “Demokratiya sammiti” çərçivəsində yeni strategiya qəbul edilib. Strategiyanın məzmunundan bəlli olur ki, ABŞ USAID vasitəsilə xarici ölkələrə nəzarəti gücləndirmək niyyətindədir. USAID-in “Qlobal Hesabatlılıq Proqramı” vasitəsilə müxtəlif ölkələrdə ABŞ tərəfdarları olan QHT/KİV-lərə əlavə vəsaitlərin çatdırılması üçün layihələr icra olunacaq. Deməli, ABŞ-ın donor institutlarının dünyada yaratdığı xaos daha da genişlənəcək.

Nikol Paşinyanın aprelin 5-də USAID-in rəhbəri Samanta Pauerlə görüşməsi və qurumun Ermənistan vasitəsilə Cənubi Qafqazda daha geniş formada strukturlaşmasına şərait yaratmağa vəd verməsi o deməkdir ki, ABŞ Cənubi Qafqaz üzrə xaos, fəlakət proqramını işə salır.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

## Xocalı məzarlıqları – erməni vandalizminin qanlı izləri

**İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva Xocalı soyqırımı zamanı itkin düşmüş, yaxın günlərdə şəxsiyyəti müəyyənləşmiş iki nəfərin – Bəsirə Məhərrəmova və Vaqif Məhərrəmovun faciəli taleyi ilə bağlı bildirib:**



– Ayrı-seçkiliyin, etnik təmizləmənin qurbanı olmuş bir ailənin üzvlərinin qalıqları 32 il sonra Xocalı rayonu ərazisində aşkarlanmış məzarlıqdan tapılıb. Bu fakt Ermənistanın törətdiyi müharibə cinayətlərini, habelə beynəlxalq humanitar hüquq normalarını pozduğunu növbəti dəfə sübut edir.

Ombudsman xatırladıb ki, beynəlxalq hüququn normalarını kobudcasına pozan Ermənistan tərəfi 30 ilə yaxın müddət ərzində 4000-ə yaxın azərbaycanlı itkinin ailəsini məlumat almaq hüququndan məhrum edib. Eyni zamanda, işğalçı ölkə



bugünədək kütləvi dəfn yerləri barədə məlumatları Azərbaycana təqdim etməkdən yayınır.

**XQ**

## Heydər Əliyev və Cənub bölgəsi



**Lənkəranda ümummilli lider Heydər Əliyevə həsr edilən “Mən fəxr edirəm ki, Azərbaycanlıyam” kitabının təqdimat mərasimi keçirilib. Nəşri Mədəniyyət Nazirliyi Azərbaycan və talış dillərində hazırlayıb.**

Topluda ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövrdə cənub bölgəsinə göstərdiyi əvəzsiz xidmətlər – tikinti, abadlıq və quruculuq işləri əksini tapıb, eləcə də Lənkəran, Astara, Masallı və Lerik rayonlarında keçirdiyi görüşləri, zəhmət adamları ilə maraqlı söhbətləri yer alıb.

Kitabın müəllifi yazıçı-jurnalist İradə Məlikova, Azərbaycan dilində redaktoru şair-publisist Rauf İlyasoğlu, talış dilində isə şair-publisist Baləddin Veşodur.

**XQ**

## Baş prokuror Neftçalada



**Aprelin 6-da Baş prokuror Kamran Əliyev Neftçala Rayon Prokurorluğunun inzibati binasında Neftçala, Hacıqabul, Salyan rayonlarından, Şirvan şəhərindən və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 29 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair həmin məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

**XQ**

## Azərbaycanlı elm adamlarının Türkiyə dərnəyi



**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov aprelin 6-da İstanbulda Türkiyədə yaşayan Azərbaycan icmasının nümayəndələri ilə görüşüb.**

Görüşdən əvvəl Türkiyə–Azərbaycan Dərnəkləri Federasiyası nəzdində Türkiyədə Yaşayan Azərbaycanlı Elm Adamlarının Dərnəyi təsis edilib.

Görüşdə bildirilib ki, yaxın vaxtlarda Türkiyədə fəaliyyət göstərən elm adamlarının qurultayı keçiriləcək və burada dərnəyin idarə heyəti təsdiqlənəcək.

Bu gün yaradılan dərnəyin gözlənilən olduğunu deyən Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov birliyin ölkələrimiz arasında əlaqələrin daha da dərinləşməsinə və elmi baxımdan fəaliyyətin genişləndirilməsinə təkan verəcəyini diqqətə çatdırıb.

“Dünyada baş verən hadisələr onu göstərir ki, bizi dünyada yaşayan soydaşlarımızı birgə işləməyə cəlb etməliyik və onların da buna marağı olmalıdır”, - deyən komitə sədri aprelin 7-də Türkiyənin Kayseri şəhərində “Şuşa Azərbaycan Evi”nin açılacağını vurğulayıb. O, hazırda dünyanın 15 ölkəsində 28 Azərbaycan Evinin fəaliyyət göstərdiyini, bu kimi yeni evlərin yaradılması ilə bağlı çoxsaylı müraciətlərin olduğunu bildirib.

Sonra Türkiyədə yaşayan azərbaycanlı elm və mədəniyyət nümayəndələri fikirlərini bölüşüb, təkliflərini veriblər.

## Mövqelərimiz yenidən atəşə tutulub

**Aprelin 5-i saat 21:55-dən 23:20-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsürskənd, Basarkeçər rayonunun Aşağı Şorca, Yuxarı Şorca, Günəşli və Gorus rayonunun Ərəvus yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Ordumuzun Tovuz rayonunun Əlibəyli, Daşkəsən rayonunun Xoşbulaq, Kəlbəcər rayonunun Yellicə, Zəylik və Laçın rayonunun Çağazur yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Bu barədə XQ-yə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Qeyd edək ki, həmin gün Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri, ümumilikdə, 30 dəfə atəşə tutulub.

**XQ**

# “Üçlər” “altılar”a qarşı?

(əvvəli 1-ci səhifədə)

Bəli, Azərbaycanla Ermənistan arasında yeni hərbi toqquşma və müharibə şəraiti formalaşdırmaq Cənubi Qafqazda balansı pozmaqdır. Bu mənada Brüssel görüşünü regionda İrəvanın timsalında yeni Ukrayna yaratmağa girişməsi kimi də qiymətləndirmək mümkündür. Qərb Ukraynaya birbaşa silah verirdisə, Ermənistanı silahlanmaq üçün maliyyə yardımı ilə təmin edir. Demokratiyaya, sosial həyata dəstəyin zəruriliyinin, hətta Qarabağ ermənilərinin erməni cəmiyyətinə inteqrasiyası kimi məsələlərin qabardılması yalnız gözdən pərdə asmaqdır. Elə Rusiya Xarici İşlər Nazirliyinin ABŞ-Avropa İttifaqı-Ermənistan formatı çərçivəsindəki təmasla bağlı yaydığı açıqlama da bunun təsdiqidir.

Rusiya XİN bildirir ki, Qərb Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasının fundamental əsasını – Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-2022-ci illərdə nəqliyyat və iqtisadi əlaqələrin blokdan çıxarılması, sərhədlərin müəyyənləşdirilməsi üzrə tədbirləri nəzərdə tutan üçtərəfli bəyanatlar toplusunu məhv etmək cəhdlərindən əl çəkmir, imkan vermir ki, sülh müqaviləsini hazırlayanlar, ictimai fəallar və ekspertlər arasında təmaslar möhkəmlənsin, etimad mühiti güclənsin. “Məhz Vaşinqton və Brüsselin təzyiqi ilə rəsmi İrəvan bu sazişlərin icrasını dayandırdı. Halbuki, tərəflər məsələlərin bir çoxu üzrə, xüsusən qarşılıqlı nəqliyyat əlaqələrinin blokdan çıxarılmasında məqbul həll yollarına yaxın idilər” kimi fikirlərin yer aldığı açıqlamada Rusiyanın Azərbaycan və Ermənistan arasında çoxdan gözlənilən sülhə hər cür töhfə verməyə hazır olduğu vurğulanıb.

Rusiyanın ali diplomatiya idarəsi mövqeyini, həmçinin belə əsaslandırıb ki, Cənubi Qafqazda həm regional, həm də ikitərəfli xarakter daşıyan problemli məsələlər “3+3 platformasının 23 oktyabr 2023-cü il tarixdə Tehranda keçirilmiş ikinci iclası zamanı razılaşdırılmış regional məsuliyyət prinsipinə uyğun həllini tapmalıdır. Söhbət Ermənistanın da iştirakçısı olduğu platformadan gedir: “Biz xarici oyunçuları bu razılaşmalara hörmətlə yanaşmağa, İrəvan hakimiyyətini isə xarici siyasət xəttini qurarkən, qonşu dövlətlərin narahatlığını nəzərə almağa çağırırıq”.

***

Göründüyü kimi, Moskva göz yaşlarına inanmır. Rusiyanın mövqeyini, eyni zamanda, Ermənistana xəbərdarlıq kimi də qiymətləndirmək mümkündür. Yeri gəlmişkən, Kreml oxşar xəbərdarlığı zamanında Ukraynaya da etmişdi. İndi ölkədəki durum aydındır və bununla bağlı bir çox məqamları açıqlamaq mümkündür. Onlardan yalnız birini deyək. ABŞ Prezidenti Co Bayden Rusiyanın Ukrayna ilə müharibədə uğur qazanmasını ikincinin silahının bitməsi ilə əsaslandırıb. Təsəvvür edin, ölkəni silahlandıran və hətta, silah verməli olan Birləşmiş Ştatlardır, onun dövlət başçısı belə danışır. Həqiqətən, durum son dərəcə acınacaqlıdır.

Əlqərəz, Qərbin, obrazlı ifadə etsək, Ermənistan adlı quyuya su tökmək cəhdlərinin də faydasızlığını indidən proqnozlaşdırmaq mümkündür. Özü də Cənubi Qafqaz Ukrayna deyil. Burada maraqlı qütblər müxtəlifdir və onları birləşdirən ideyalar var. Ermənistan isə qurbanlıq qoyun qiyafəsindədir. Əlbəttə, Qərb ümumən erməni amilindən xilas olmaq, Ermənistan adlı dövlətin mövcudluğunu aradan qaldırmaq istəyirsə, götürdüyü kursu davam etdirə bilər. Belə görünür, davam etdirəcək də. Çünki ona prinsip etibarilə Ermənistan lazım deyil. Əsas olan ondan istifadədir. Rəsmi İrəvan isə özündən alət kimi yararlanılması ilə barışmaqdadır.

***



Bəli, Brüssel görüşü iqtisadi yox, hərbi-siyasi mahiyyət daşıyan sövdələşmədir. Bunu Qərb mətbuatında yer alan fikirlər də təsdiqləyir. Məsələn, nüfuzlu “Politico” xəbər verir ki, Brüsseldə keçirilmiş görüş ərəfəsində Ermənistan tərəfi Azərbaycanın hərbi texnika alışının intensivliyinə dair sənədləri Avropa İttifaqına və ABŞ nümayəndələrinə təqdim edib. Məsələ Azərbaycanın xaricdən hansı silahları almasında deyil, başlıca məqam Paşinyanın mövzunu Brüsselə daşımasındadır. Deməli, görüşün gündəliyi heç də açıqlandığı kimi deyil və deməli, Nikol üçtərəfli təmasa həm də anti-Azərbaycan platforması kimi yanaşırmış.

Elə ona görə də Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirir ki, bu hərbi-siyasi sövdələşmə Azərbaycanla Ermənistan arasında sülhə nail olmaq yox, Qərbin son dərəcə destruktiv yanaşmalarla Cənubi Qafqaza daha da müdaxiləsi, bölgədə yeni haçalanma yaradan fikirlər formalaşdırması, region ölkələrinin anti-Rusiya gündəmini izləməyə vadar edilməsi, onların Moskva ilə çoxəsrlik əlaqələrinin məhvi məqsədini daşıyır.

Rusiyanın siyasi analitiklərinin ilkin reaksiyasını ifadə edən politoloq Aleksey Naumov da eyni düşüncəni bölüşür. O, qeyd edib ki, üçtərəfli görüş İrəvanın “Qərb düşərgəsinə” keçidini göstərir: “Ermənistanın taleyinə bu baxımdan həsəd aparmaq olmaz. Ondan başqa Azərbaycanın və Gürcüstanın daxil olduğu, Rusiya, Türkiyə və İranın əhatə etdiyi Cənubi Qafqaz regionunda heç kim Qərb təsir anklavının meydana çıxmasını istəmir. Buna görə Ermənistan Avropa İttifaqı və ABŞ-dan maliyyə və hərbi dəstək alaraq, öz yerləşdiyi mühitdə Qərb blokunun hər şeydən məhrum olmuş forpostuna və öndə gedən dəstəsinə çevrilmək riskini daşıyır”.

Rusiyalı politoloq keçmişə də ekskurs edib. Daha doğrusu, yaxın keçmişdə olanlarla indiki dövrdə yaşananlar arasında səbəb-nəticə əlaqələrinin izahını verib. Deyib ki, Azərbaycan öz torpaqlarını azad etdikdən sonra Ermənistan ağır mənəvi məğlubiyyət zərbəsi alıb. Ancaq ölkə reallıqla barışmaq əvəzinə, “günah keçisi” kimi Rusiyanı seçmək qərarına gəlib: “Məsuliyyətin Rusiyanın üzərinə atılması, Nikol Paşinyana hərbi məğlubiyyətdən sonra hakimiyyətdə qalmaq, Ermənistan xalqına isə hər şeyi üçüncü tərəfin xəyanəti ilə əlaqələndirərək, aparılan siyasətin doğurduğu fəsadları aradan qaldırmaqdan imtina imkanı yaratdı”, – deyən A.Naumov Brüssel görüşünün tarixi perspektivdə hər şeyi öz yerinə qoyacağını deyib. Amma bir qədər fərqli formada. O, fikrini belə əsaslandırıb ki, Rusiya və Ermənistan müttəfiqliyi əvvəldən ikinciyə heç bir fayda gətirməyib, qismən fürsətçi, qismən isə nostaljik–mədəni səbəblərlə əlaqədar diktə edilib. Onun sözlərinə görə, bələdçiliyini Ermənistanın reallaşdırdığı xarici təsirə qarşı çıxmaq Cənubi Qafqazın bütün ölkələrinə qarşılıqlı fəaliyyət üçün ortaq platforma tapmağa şərait yaradacaq və Rusiyaya “xristian qardaşların”, yəni ermənilərin manipulyasiyası ilə diktəyə yox, iqtisadi cəhətdən faydalı münasibətlərə diqqət yetirməyə imkan verəcək.

***

Rusiya Elmlər Akademiyası Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər Milli Tədqiqat İnstitutunun Qafqaz sektorunun müdiri, siyasi ekspert Vadim Muxanovun fikirləri də A.Naumovun bildirdiklərinin davamı sayıla bilər. O deyib ki, ABŞ–Avropa İttifaqı–Ermənistan görüşü Ermənistanın hərbi-siyasi və hərbi-texniki baxımdan Rusiyadan asılılığını azaltmaq istəyi ilə bağlıdır: “İrəvan və Moskva arasında müəyyən diplomatik höcətləşmə gedir, problemlər çoxalır. Bu, heç də yaxşı nəticələrə gətirib çıxarmayacaq. Yaxın müddətli perspektivdə Rusiya ilə Ermənistan arasında münasibətlər postsovet dövründəkindən də aşağı səviyyədə olacaq. Onların əlaqələri hələ indiki qədər bərbad olmayıb”.

Rusiyadakı Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov isə bildirib ki, Brüssel görüşünün iştirakçıları açıq şəkildə bir-birilərini aldatmağa çalışırlar: “Ermənistan Avropa İttifaqının, ABŞ-ın və NATO-nun Azərbaycan əleyhinə dəstəyini əldə etmək niyyətindədir. Onun buna nail olmaq üçün Rusiya ilə münasibətləri pozmaqdan başqa çarəsi yoxdur. ABŞ və Avropa İttifaqı Rusiyanı Ermənistandan, ümumiyyətlə Cənubi Qafqazdan qovmaq və regionda dominant qüvvə olmaq istəyir”.

Rusiyalı daha bir politoloq Qleb Kuznetsov fikrini əsaslandırmaq üçün A.Blinkenin və Ursula Fon der Lyayenin Brüssel görüşündən əvvəl Azərbaycan Prezidenti İlham Əliyevə telefon zənglərinə diqqət çəkib və həmin zənglərin, az qala, üzrxahlıq olduğunu vurğulayıb. Nəyə görə politoloq bu qənaətdədir? Çünki, onun fikrincə, Azərbaycan Avropaya, ABŞ-a və İsrailə lazımdır. Amma İrəvanın Bakının malik olduğu üstünlükləri, avropalılara və amerikalılara təsir rıçaqları yoxdur. “Ermənistan ilk növbədə özünə güvənməlidir. Onun yalnız bir müttəfiqi var - Ermənistanın suveren ərazisi daxilindəki və xaricindəki erməni xalqı. Təəssüf ki, başqa dostu, ortağı və müttəfiqi yoxdur”, – deyən Kuznetsovun sözlərinə görə, İrəvanın başlıca problemi yeni ümidlər tapmaq istəməsidir.

Rusiyalı politoloqun fikirlərindən bu nəticə də hasil olur ki, hazırda Qərb Ermənistan qarşısında yerinə yetirilməsi mümkünsüz tələblər qoyur və həmin tələblər ödənmədikdə birinci bunu asanlıqla ikincinin üzünə vuracaq və İrəvanın Bakı ilə baş-başa qalmasını obyektivlik kimi qiymətləndirəcək. Kuznetsov sözünün davamı olaraq onu da bildirib ki, Qərbin Ermənistanla bağlı iki tamamilə aydın vəzifəsi var. Birincisi, Ermənistanı Rusiyanın orbitindən çıxarmaq, bunu dünyaya nümayiş etdirmək. İkinci vəzifə İrəvanın anti-İran blokunda yer almasıdır. Bunun üçün Ermənistan quru sərhədi olan tərəfdaş ölkədən, faktiki olaraq, imtina etməlidir. Belə gedişat ölkənin suverenliyi baxımından qətiyyən yolverilməzdir. Qərb İrəvanı məhz sözügedən mümkünsüz tələbləri yerinə yetirməyəcəyi təqdirdə, Bakı ilə baş-başa buraxacaq. Yəni, Kuznetsovun proqnozlaşdırdığı ssenari məhz budur.

***

Deməli, Qərbin Azərbaycanla bağlı daha fundamental maraqları olduğundan, onun Ermənistan istiqamətində siyasətini dəyişmək üçün birinciyə təzyiq göstərməsi heç cür ağlabatan deyil. Üstəlik, əvvəldə də bildirdiyimiz kimi, Cənubi Qafqazda maraq dairələri baxımından vəziyyət xeyli mürəkkəbdir. Vurğuladığımız məqamlar əsasında ümumiləşdirmə aparsaq, İrəvanın dalanda olduğunu söyləyə bilərik və mövcud istiqamətdə digər arqumentlər də irəli sürmək mümkündür. Ancaq buna ehtiyac duymur və yazımızı Ermənistanın indiki siyasi durumunu xarakterizə etmək baxımından bir lətifə ilə yekunlaşdırmaq istəyirik: Deməli, bir gün heyvanlar təyyarədə yola çıxırlar. Ayı siqaret çəkməyə başlayır və hərəkətinin yolverilməzliyi ilə bağlı bir neçə dəfə ona ünvanlanmış xəbərdarlıqlara məhəl qoymur. Axırda təyyarə qəzaya uğrayır. Bu an qarğa göydən yerə yıxılan ayıya yaxınlaşır. Onlar arasında belə bir dialoq yaranır:

Ayı qardaş, uça bilirsən?

– Yox.

– Bəs niyə siqaret çəkirdin?..

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Brüsseldən “uçuşan” güllələr

(əvvəli 1-ci səhifədə)

Hayların xarici siyasət idarəsinin dünən yaydığı məlumat da müdafiə nazirliyinin səsləndirdiyi fikirlərin təkrarı sayıla bilər. Məlumatda təxribatçı hərəkətlərə görə, təqsirin Azərbaycanın üzərinə qoyulmasına uğursuz cəhd edilib. Eyni zamanda, xarici işlər nazirliyi Ermənistanın regionda vəziyyətin gərginləşməsində “maraqlı olmadığını” bildirib. Xarici siyasət idarəsi şərti sərhəddən qoşunların güzgü effekti üzrə çıxarılması, silahlara qarşılıqlı nəzarət mexanizmlərinin tətbiqi, hücum etməmək haqqında paktın imzalanması və demilitarizasiya ilə bağlı köhnəlmiş fikirləri bir daha gündəmə gətirib.

Ancaq Ermənistan müdafiə və xarici işlər nazirliklərinin nə deməsindən asılı olmayaraq, fakt faktlığında qalır. Fakt isə bundan ibarətdir ki, Qərbin, xüsusilə Fransanın silah tədarükü, digər ölkələrin, o cümlədən Hindistan, Yunanıstan və İran kimi ölkələrin oynadıqları rol, yumşaq desək, bölgədə heç də sülh və sabitliyin təmin olunmasına, əmin-amanlığa xidmət etmir. Əksinə, bu cür addımlar ən pis halda İrəvanı revanşizmə sürükləyə, yenidən təcavüzkarlıq aktları həyata keçirməyə sövq edə, ən yaxşı halda isə Bakı ilə danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutmasına gətirib çıxara bilər.

Ermənistanla bağlı Qərbin yürütdüyü siyasətin bölgə üçün yaxşı heç nə vəd etmədiyi Azərbaycan tərəfindən dəfələrlə bəyan edilib. Aprelin 5-də, yəni Brüsseldə üçtərəfli görüşün keçirildiyi gün Türkiyənin sabiq Xarici işlər naziri, qardaş ölkənin NATO Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlunu qəbul edərkən Prezident İlham Əliyev bildirdi ki, bununla Cənubi Qafqaz üçün növbəti təhlükə mənbəyi yaradılır. Halbuki, son günlər həm ABŞ-nin, həm də Avropa İttifaqının yüksək vəzifəli şəxsləri onların təşəbbüsü ilə baş tutan telefon danışıqları əsnasında bizi inandırmağa çalışmışlar ki, bu görüş Azərbaycanın əleyhinə deyil. Prezident İlham Əliyev qeyd etdi ki, lakin biz bunun Azərbaycanın və Cənubi Qafqazda iş birliyinin əleyhinə olduğunu bilirik. Bu, ayırıcı xətlərin yaradılması və ölkəmizi təcrid etmək məqsədi güdür.

Dövlətimizin başçısı bir daha qeyd etdi ki, ötən ilin sentyabrından indiyədək Avropa Parlamentinin, Avropa Şurasının Azərbaycan əleyhinə bəyanatlar verməsi, Ermənistanı Cənubi Qafqazda bir silahlı forpost kimi yaratmaq cəhdləri gələcəkdə çox böyük fəsadlar törədəcək. Buna görə, biz bununla bağlı ABŞ və Avropadakı tərəfdaşlarımıza xəbərdarlıq etmək üçün açıqlamalar verdik. Geosiyasi vəziyyətin dəyişdiyini deyən Prezident belə bir şəraitdə Azərbaycan–Türkiyə birliyinin hər zaman olduğu kimi, bu gün də güclü olmasının vacibliyini qeyd etdi və bu birliyi pozmaq istəyənlərin arzularının puç olacağına əminliyini bildirdi.

Eyni zamanda, Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan xarici siyasət idarəsinin son hərbi təxribatlarla bağlı dünənki bəyanatına münasibət bildirərkən deyib ki, Hayastanın ölkəmizi məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirməkdə təqsirləndirməsi qəbuledilməzdir və onların bu iddialarının heç bir əsası yoxdur.



**Mövzu üzrə fikirlərini öyrəndiyimiz hərbi-siyasi şərhçi Rizvan Hüseynov**



**bildirdi ki,** Brüssel görüşünün nəticəsi Paşinyan hakimiyyətini və onun tərəfdarlarını pərişan etdi. Onun sözlərinə görə, Ermənistan hakimiyyəti son iki-üç ay ərzində Rusiya ilə bağlı mövqeyini xüsusilə sərtləşdirmişdi. İrəvandan Moskvaya edilən etirazlara Paşinyan komandasının üzvləri rəvac verirdilər: “Onlar bildirirdilər ki, Rusiyanın mövqeyi Ermənistanın İkinci Qarabağ müharibəsində məğlubiyyətinə səbəb olub. Qeyd edirlər ki, ötən il keçirilən antiterror tədbirləri zaman isə rus sülhməramlıları, guya, üzərlərinə düşən işi yerinə yetirməyiblər. Yəni, Ermənistan iqtidarı Rusiyanı ciddi şəkildə tənqid edirdi. Güman etmək olar ki, onlar bu tənqidləri Rusiyanın əsas düşməni olan Qərblə daha da yaxınlaşmaq, onlardan külli miqdarda maddi, həmçinin siyasi və hərbi-texniki dəstək almaq üçün səsləndirirdilər. Amma 5 aprel görüşündə Brüssel və Vaşinqton İrəvana, müvafiq olaraq, 270 milyon avro və 65 milyon dollar verəcəklərini vəd etdilər. Bu məqamda qeyd etmək lazımdır ki, Avropa İttifaqının “yeni Ermənistan–Aİ tərəfdaşlığını gücləndirmək üçün” ayıracağı 270 milyon avro vəsait birdəfəlik ödənilməyəcək. Vəsait 2024-2027-ci illərdə hissə-hissə ayrılacaq. Yeri gəlmişkən, bu vəsaiti 4 ilə böləndə hər ilə 67,5 milyon avro düşür. Ursula Fon der Lyayen bəyan etdi ki, həmin vəsait “Ermənistan iqtisadiyyatının və cəmiyyətinin daha güclü və sarsıntılara davamlı olması üçün” ayrılacaq. Amma çətin ki, onlar bu vəsaitlə məqsədlərinə nail ola bilsinlər”.

R.Hüseynov qeyd etdi ki, şərti sərhəddə baş verən sonuncu gərginlik Ermənistanın qurduğu oyunun tərkib hissəsi kimi qiymətləndirilə bilər: “Yəni, İrəvan Qərbə göstərmək istəyirdi ki, baxın, mən regiondakı kövrək sabitliyi istənilən yolla pozmağa hazıram. Təki mənə lazımınca dəstək verilsin və pul ayrılsın. Amma bu baş vermədi və 5 aprel görüşü öncəsi həm ABŞ Dövlət katibinin, həm də Avropa Komissiyası sədrinin Azərbaycan Prezidentinə zəngi göstərdi ki, ölkəmizin mövqeyinə önəm verilir. Nəticə etibarilə biz gördük ki, Brüssel görüşünün nəticəsi heç də Ermənistanın istədiyi kimi olmadı”.

Müsahibimiz əlavə etdi ki, görüşün acı nəticəsi Ermənistanın cəzalandırılması olacaq: “Ehtimal etmək olar ki, Rusiya hansısa yollarla cəza mexanizmini işə salacaq. Təbii ki, birbaşa hərbi vasitələrə əl atmayacaq, amma iqtisadi və digər siyasi alətlərlə Rusiya Ermənistanı cəzalandırmağa çalışacaq”.

**Politoloq İlqar Vəlizadə isə “XQ”yə açıqlamasında bildirdi ki,** Qərb bununla Ermənistanı israrla regional inteqrasiya



proseslərindən uzaqlaşdırır. Onun sözlərinə görə, regionda baş verən prosesləri bir-biri ilə uzlaşdırmaq üçün Azərbaycanın belə görüşlərdə iştirakı labüddür: “Onlar isə bu görüşdə Azərbaycanın iştirakını təmin etmədilər. İddia edirlər ki, onlar Ermənistanın Qərbə inteqrasiyasını təmin etmək istəyirlər. Ancaq reallıqda süni çəpərlər yaradırlar. Nəticədə region parçalanmaya doğru gedir. Biz düşünürdük ki, Vətən müharibəsindən, antiterror tədbirlərindən sonra bölgənin vahid region kimi formalaşmasına mane olan amillər aradan qalxacaq və Ermənistan konstruktiv şəkildə regional proseslərə qoşulacaq. Hətta, bunun üçün “3+3” formatı təklif edilmişdi. Düşünürdük ki, Cənubi Qafqaz üçün yeni mərhələ başlayacaq. Amma görünən odur ki, Qərb dairələri başqa cür düşünür. Onların geosiyası strategiyasında vahid region anlayışı yoxdur. Düşünürlər ki, Ermənistanı öz layihələrinə cəlb etməklə bölgədə maraqlarını təmin edəcəklər və regional iştirakçıların maraqları burada onlar üçün önəmli deyil. Əlbəttə, bu cür yanaşma regionda gərginliyə gətirib çıxaracaq”.

İ.Vəlizadə qeyd etdi ki, çünki burada açıq-aşkar Rusiya–Qərb qarşıdurması sezilir: “Biz bu qarşıdurmanın postsovet məkanının müxtəlif yerlərində nə ilə nəticələndiyini müşahidə edirik. Bu qarşıdurma heç bir ölkəyə müsbət nəsə vəd etmir. Amma, görünən odur ki, Ermənistanın siyasi rəhbərliyi bu hadisələrdən nəticə çıxarmır və birmənalı olaraq, Qərbin yazdığı ssenari əsasında hərəkət edir”.

Ekspert qeyd etdi ki, Azərbaycanın əsas məqsədi həm region, həm də qeyri-region ölkələrinin maraqlarının bir-biri ilə uzlaşmasıdır. Rəsmi Bakı əməkdaşlığın tərəfdarıdır. Qərbin Ermənistan üçün yazdığı ssenarilərdə isə bu yoxdur, əksinə, qarşıdurma xətti əsas götürülür: “Yəni, Ermənistan və Rusiya üz-üzə qoyulur. Bu isə regionda təhlükəsizlik mühitinə ciddi zərbə vura bilər”.

Onu da deyək ki, Brüssel görüşünün uğursuz olduğunu erməni ekspertlər də etiraf edirlər. Politoloq Suren Surenyants bildirib ki, Brüssel və Vaşinqton Rusiyadan iqtisadi asılılığı azaltmaq üçün Ermənistana müvafiq olaraq 270 milyon avro və 65 milyon dollar verəcəklərini vəd ediblər. Ermənistan Avropa İttifaqı ilə əməkdaşlığa razılaşıb: “Qərb Ermənistan hakimiyyətinin anti-Rusiya potensialını hesablayıb və bu qiyməti ödəyib. Bu, indiki hakimiyyət tərəfindən idarə olunan ölkənin qiymətidir”.

Siyasi şərhçi Sergey Melkonyan isə Rusiyanın “Kommersant” qəzetinə açıqlamasında bildirib ki, üçtərəfli görüş İrəvana heç bir xüsusi bonus gətirməyib. Onun sözlərinə görə, Paşinyan ölkəyə maliyyə vəsaiti ilə qayıtdı, lakin milyardlıq yardım alınmadı. İndi Paşinyanın vəzifəsi Ermənistanın Avropaya yönəlik kursunun, sadəcə, söz olmadığını sübut etməkdir.

***Səxavət HƏMİD***
***XQ***

# Bordaqlanan Ermənistan və Paşinyanın “dilənçilik diplomatiyası”

## Yaxud Brüssel görüşü və USAID-in “demokratiya” təəssübkeşliyi

**“Əslində, başqalarından böyük gözləntilərimiz var. Amma özümüz özümüzə kömək edə biləcəyimizi unuduruq. Çünki bizim haqqımızda düşünən tək bizik. Biz Rusiya ilə münasibətləri korlayırıq ki, Brüsselə gedib 4 il ərzində bizə qrant şəklində 270 milyon avro verəcəklərini eşidək. Xalqımız buna layiqdirmi? Bağışlayın, amma indiki hakimiyyət Qərblə yaxşı münasibətlər qura bilməyib. Bugünkü görüş bunun əyani təsdiqidir”. Bu fikirləri erməni politoloq Armen Qukasyan Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen və ABŞ Dövlət Departamentinin rəhbəri Antoni Blinkenin aprelin 5-də Brüsseldə keçirilmiş görüşünü şərh edərkən bildirib.**



Xatırladaq ki, Brüsseldə keçirilmiş üçtərəfli görüşün yekunlarına əsasən, Avropa İttifaqının yeni yardım paketi çərçivəsində Ermənistana 270 milyon avro qrantın və daha 0,5 milyard avronun ayrılacağı açıqlanıb. Bununla bağlı Ursula Fon der Lyayen deyib ki, 4 il ərzində 270 milyon avroluq yeni qrant Ermənistanda kiçik və orta müəssisələrin inkişafına və ölkənin yeni bazarlara çıxmasına kömək göstərəcək.

Əlbəttə, məsələ heç də bunda deyil. Politoloq Qukasyanın da vurğuladığı kimi, qeyd edilən məbləğ uşaq başı aldatmaqdır. Amma həmin məbləği simvolik də saymaq mümkündür. Çünki belə görünür, Brüssel görüşündən sonra Ermənistana yardımlar artacaq. Bunun ilk nişanələri artıq var.

Ancaq Qukasyan sual verməsə də olar. Yəni, Ermənistan indiki duruma tam layiqdir. Söhbət dilənçilikdən gedir. Böyük ölçüdə, proseslərə ciddi yanaşıb dərin nəticələr çıxarmağa dəyməz. Baş nazir Nikol Paşinyan Brüsselə elə dilənmək üçün getmişdi. Üçtərəfli görüş Ermənistanın nə qədər rəzil durumda olduğunu bir daha təsdiqlədi. Məsələ bundadır ki, heç də bütün bədbəxtlər bədbəxt olduqlarını anlamırlar.

Əslində, Ermənistan hakimiyyətinin rəzilliyini təsdiqləyən təkcə dilənçi vəziyyətinə düşməsi deyil. Ən başlıca məsələ bədbəxtlikdə avantürizm motivlərinin mövcudluğudur. Baxın, Ermənistanın silahlı qüvvələrinin Azərbaycanla şərti sərhəddə atəşkəsi pozma hallarının sayı artıb. Dünən 44 günlük müharibədən sonra bir gündə 30 dəfə atəşkəsin pozulması qeydə alınıb. Deyəsən, 270 milyon avroluq qrantın xərclər smetasında başlıca yeri silah-sursat təşkil edir. Nə isə mövzumuz bu olmadığından, üzərində dayanmayaq. Söhbətimiz rəsmi İrəvanın dilənçilik xətti barədədir. Əlbəttə, bu xəttin fəsadlarını da diqqətə çatdıracağıq.

Bəli, Brüssel görüşündən sonra ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Ermənistanın enerji təhlükəsizliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, eləcə də ərzaq təhlükəsizliyinin sabitləşdirilməsi üzərində işlədiyini açıqlayıb. Bunu qurumun Avropa və Avrasiya üzrə administratorunun köməkçisi Erin Makki mətbuat konfransında deyib: “8,6 milyon dollar dəyərində olan yeni proqramımız Ermənistanın bərpa olunan enerji mənbələrinə çıxışını və inteqrasiya imkanlarını yaxşılaşdıracaq. Bundan əlavə, fövqəladə halların planlaşdırılması Ermənistana enerji səmərəliliyini artırmaqla yanaşı, ölkənin təchizatındakı fasilələrə sistemli şəkildə reaksiya verməyə imkan yaradacaq. Bu maliyyə həm də enerji infrastrukturunda ciddi kibertəhlükəsizlik zəifliklərini daha yaxşı aradan qaldırmaq qabiliyyətini gücləndirəcək”.

E.Makki onu da bildirib ki, USAID, həmçinin erməni fermerlərinin taxıl istehsalı və saxlanmasını artırmaq səylərini dəstəkləməklə, ölkənin ərzaq təhlükəsizliyinin sabitləşməsinə kömək göstərəcək. Onun sözlərinə görə, planlaşdırılmış 6 milyon dollarlıq ərzaq təhlükəsizliyi proqramı iqlim şəraitinə adekvat şəkildə əsas məhsullar üzrə məhsuldarlığı artıracaq. “Bu, Ermənistanın qida sisteminin modernləşdirilməsi yolu ilə həyata keçiriləcək və biz yerli istehsalı artıra və idxaldan asılılığı azalda biləcəyik”, – deyən USAID rəsmisi əlavə edib ki, Birləşmiş Ştatlar Ermənistanda zəruri islahatları dəstəkləməyə və hökumətin potensialını gücləndirməyə davam edəcək. O, vurğulayıb ki, rəqəmsal demokratiya prinsipləri üzərində işləmək, Ermənistanın idarəetmə, ticarətin diversifikasiyası və iqtisadi inteqrasiyaya yanaşmasını müasir vəziyyətə gətirəcək və genişləndirəcək.

Belə görünür ki, Ermənistana kənd təsərrüfatı, ümumən sosial sahə üzrə heç bir dövlət qurumu lazım deyil. Hər halda, E.Makki gərəkli olan hər şeyi USAID-in reallaşdıracağını deyir. Onun təmsil etdiyi təşkilatın Ermənistan təəssübkeşliyi fonunda açıqladığı daha bir məqam var. Administrator köməkçisi USAİD-in əsas prioritetinin erməni xalqının ləyaqətinin qorunmasına diqqət yetirmək olduğunu bildirib. Politoloq Qukasyan isə 270 milyon avro ilə bu ləyaqətin qorunmasının mümkünsüzlüyünü bildirir, E.Makki daha kiçik məbləğlə işin öhdəsindən necə gələcək, onu zaman göstərəcək.

Sən demə, USAID Qarabağ ermənilərinin də ləyaqətinin qorunması işinə qol çırmayıbmış. Hər halda, E.Makki onların mənzil ehtiyaclarını ödəmək və psixososial dəstək üçün təxminən 8,5 milyon dollar ayırmağın planlaşdırıldığını açıqlayıb. Maraqlıdır ki, o, mövzudan danışarkən, məsələni Ermənistan demokratiyasını qorumaqla əlaqələndirib. Görəsən niyə?

“Biz demokratik və firavan Ermənistanı dəstəkləmək səylərimizi və Ermənistanın demokratiya, iqtisadi sabitlik, suverenlik və ərazi bütövlüyünə davamlı dəstəyimizi bir daha təsdiqləmək üçün buraya toplaşmışıq. ABŞ Dövlət katibi bu səhər demokratiya, enerji müstəqilliyi, ərzaq təhlükəsizliyi və iqtisadi inklüzivliyin inkişafı üçün 65 milyon dollardan çox əhəmiyyətli yeni dəstək elan etdi. Çətinliklə qazanılmış uğurlarımızı möhkəmləndirmək üçün Ermənistan hökuməti ilə əməkdaşlığımızı davam etdirməkdən məmnunuq” – deyən Makkinin sözlərinə görə, maliyyələşdirmənin bir hissəsi olaraq USAID Ermənistan xalqına demokratiyasının işlədiyini konkret göstərmək üçün milli və yerli hökumətlərlə, eləcə də qeyri-hökumət təşkilatları ilə birgə fəaliyyət göstərəcək.

Ermənistan xalqına demokratiyasının işlədiyini konkret göstərmək. Hər halda, bundan unikal biabırçı ifadə tapıla bilməzdi ki, E.Makkini onu nəinki tapdı, eyni zamanda, dövriyyəyə buraxdı. Əslində, o, bununla Qukasyanın sualına cavab da vermiş oldu. Yəni, erməni xalqının hazırkı şüur və təfəkkür səviyyəsinin hansı yerdə olduğunu açıqladı. Əlbəttə ki, ermənilərə xaricdən münasibətin trayektoriyasını zərgər dəqiqliyi ilə cızdı da. Məlum oldu ki, xalq Ermənistanda haqqında çox danışılan “demokratiya”nı ümumiyyətlə anlamır. Çox güman ki, Paşinyan Brüsselə elə həm də buna görə yollanmışdı. Orada desin ki, Qərbin Ermənistan adlı “demokratiya qalası” uçmaq üzrədir.

Bəli, başlıca məqsəd bu “qalanı”, daha doğrusu, Ermənistanı möhkəmləndirməkdir. Ancaq bu, daha çox dibi çat vermiş quyuya su tökməyə bənzəyir. Başqa bənzətməmiz də var, onu yazının sonunda diqqətə çatdıracağıq. Hələlik isə qeyd edək ki, Qarabağ ermənilərinin dəstəklənməsi ilə bağlı məsələ Brüssel görüşünün də başlıca leytmotivini təşkil etmişdi.

Dəstəyin onların Ermənistan cəmiyyətinə inteqrasiyasını nəzərdə tutduğu da məlumdur. Bu isə o deməkdir ki, Qarabağdan köç etmiş erməni əhalinin bölgəyə yenidən qayıtması kimi bir durum nəzərdən keçirilmir. Ancaq bu, hələ heç də o deyil ki, məsələ Ermənistanın beynəlxalq miqyasda həyata keçirdiyi anti-Azərbaycan təbliğatının tərkib hissəsi olmaqdan çıxacaq. Əksinə, sözügedən təbliğatın daha da güclənəcəyi aydındır. Çünki mövcud məqam rəsmi İrəvanın, belə demək mümkünsə, dilənçilik diplomatiyası baxımından son dərəcə vacibdir. Yəni, Paşinyan administrasiyası “Qarabağdan qaçqın düşmüş ermənilər” məntiqini nə qədər çox gündəmdə saxlasa, bir o qədər çox pul qazanacaq.

Sonda bir daha politoloq Qukasyanın əvvəldə diqqətə çatdırdığımız fikrinə qayıdaq. Bəli, Ermənistanın mövcud hakimiyyəti erməni xalqını rəzil duruma salıb. Ancaq vəziyyəti şərtləndirən təkcə dünyanın, necə deyərlər, artıq-urtuğundan ermənilərə nə isə pay verilməsi deyil. Qərb ölkələri qəpiklərini də boşuna xərcləməzlər. Bu yerdə erməni xalqının ləyaqətli həyat keçirməsi, Ermənistanın demokratik quruculuq yolunda inamla addımlaması kimi deyimlər sabun köpüyündən, populizmdən və saxta sentimentallıqdan başqa bir şey deyil.

Qərbin məqsədi rəsmi İrəvanı Rusiyaya qarşı mübarizədə, daha doğrusu, Rusiyanı Cənubi Qafqaz siyasi akvatoriyasından çıxarmaq planlarında diri tutmaqdır. Əlbəttə, bu məqsəd naminə erməni avantürizmi də dəstəklənir. O avantürizm ki, qonşu ölkələrə, ən əsası isə Azərbaycana qarşı ərazi iddiası motivinə köklənir. Paşinyan Brüsselə dilənçilik etməyə həm də buna görə getmişdi.

Ən sonda Ermənistanın timsalında bir daha deyək ki, quyuya su tökməklə sulu olmur. Onu da bildirmək olar ki, hazırda Qərb dövlətləri ölkəyə balıq tutub verməklə məşğuldurlar. Onlar Ermənistana balıq tutmağı öyrətmək fikrindən tam uzaqdırlar.

Hazırda erməni təəssübkeşliyindəki ayrı-ayrı çalarları təhlil edərkən, gözlər önündə bir mənzərə də canlanır. Yəqin kəsilmək üçün nəzərdə tutulan mal-qaranın əvvəl bəslənərək ətə-qana gəlməsinə şərait yaradıldığını bilirsiniz. Buna “bordaqlamaq” deyildiyindən də xəbərdar olanlarımız az deyil. Bəli, indiki durumda Qərb dünyası Ermənistanı, obrazlı şəkildə ifadə etsək, kəsilmək üçün bordaqlamaqla məşğuldur. Bu prosesin avantürizmi alovlandırdığını və illüziya mahiyyəti doğurduğunu nəzərə alsaq, belə getsə, “erməni demokratiyası” üçün “Vorfolomey gecəsi”nin yaşanacağı gün də uzaqda deyil. Sərhəddəki atəş səsləri həmin gecənin ayaq səsləridir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Militaristin taktikası – iz azdırmaq

## Qərbin hərbi forpostuna çevrilən Ermənistan qonşusunda “kompromat” axtarır

**(əvvəli 1-ci səhifədə)**




Paşinyan, hətta, şifahi şəkildə onu da əlavə edib ki, həmin müasir hərbi texnika birbaşa Ermənistanla şərti sərhəd boyu toplanır. Hayastan baş naziri Azərbaycanın tarixin arxivinə göndərdiyi bu qaşıdurmada kimin kimdən qorxduğunu, ehtiyat etdiyini hamıdan yaxşı bilir. Sadəcə olaraq, onun özü də beynəlxalq ictimai rəy üzərində manipulyasiyaya hesablanmış, Azərbaycanın “təcavüzkar dövlət” imicini formalaşdırmağa yönəlik yalan və böhtan üzərində qurulmuş ideoloji təxribat mexanizminin “vintciy”idir. Bu mənada İrəvanın naməlum mənbələrə istinadla hazırladığı və tərəfdaşlarının menyusuna saldığı “dosye”nin Azərbaycana “arxadan vurulan zərbə” kimi düşünüldüyünə şübhə yeri qalmır. Məgər İrəvan isteblişmenti son 30 ildə Bakı ilə hansısa platformada mübarizəsini diplomatik etiketə uyğun, centlmensayağı aparıb?

Daha sonra məqalədə Avropa İttifaqının regionda gərginliyin artması fonunda Ermənistanı Rusiyanın orbitindən çıxarmağa və onun iqtisadiyyatına dəstək verəcək əlamətdar plan üzərində razılığa gəldiyinə diqqət çəkən nəşr Aİ və Ermənistanın getdikcə “yüksək bəşəri dəyərləri” və maraqları bölüşdüyünü qeyd edir.

Qəzet, həmçinin yazır ki, hazırda Aİ üzvlərinin təbii qaz idxal etdiyi Azərbaycan Brüsseldə keçiriləcək üçtərəfli görüşə əvvəlcədən etiraz edib. Məqalədə həmin görüşdən əvvəl ABŞ Dövlət katibi Antoni Blinkenin və Avropa Komissiyasının sədri Ursula Fon der Lyayenin Azərbaycan Prezidenti İlham Əliyevlə telefonla danışdıqlarını, onu Brüssel görüşündə “Ermənistanla yalnız bərpaolunan enerji mənbələri, nəqliyyat əlaqələri, enerji təhlükəsizliyi və bu kimi iqtisadi sahələrdə əməkdaşlığın şaxələndirilməsi” mövzularının müzakirə olunacağına inandırmağa çalışdıqları vurğulanır.

Nəşr “dosye” üzərində özəl fərziyyələrini bir qədər də genişləndirərək Antoni Blinkenin, guya, bundan əvvəl də İlham Əliyevə telefon danışığında sərhəddəki gərginliyin artmasına heç bir əsasın olmadığını bildirib və xəbərdarlıq edib ki, hər iki tərəfin aqressiv hərəkətləri və ritorikası sülh perspektivlərini sarsıdacaq. Əgər bu fakt doğrudursa, onda Ağ evin “aqressorla” işğala məruz qalana eyni tövsiyələri verməsi məntiqinin özü hələlik faş edilməyən alt niyyətdən xəbər verir.

### “Forpost” Hayastanın missiyası

Cənubi Qafqaz uğrunda “böyük güclər” arasında qızışmış “yorğan davası”nda Ermənistana xüsusi rol ayrıldığına şübhə yoxdur. Məqsəd bölgədə suyu bulandırmaq üçün yeni münaqişə ocağı yaratmaq və bunun nəticəsində ermənipərəst NATO-çuların müdaxiləsinə münbit zəmin hazırlamaqdır.

**(ardı 5-ci səhifədə)**

REPLİKA

# Tavuş hara, avropalı missionerlər hara?!

**Rəsmi İrəvanın Aİ mülki missiyasının şərti sərhəd zonasında şübhəli və müəmmalı məqamlarla zəngin fəaliyyəti ilə bağlı açıqlamaları bəzən sağlam məntiqə belə sığışmır. Ermənistan hakimiyyəti ən müxtəlif bəhanələrlə son üç il yarımda bölgədə yaranmış yeni reallığı şüurlu şəkildə təhrif etməklə, Azərbaycan və Türkiyə ilə münasibətlərin nizamlanmasına deyil, pozulmasına xidmət edən ikiüzlü diplomatiya ilə məşğuldur. Elə Azərbaycanın tarixi və hüququ ərazisi sayılan, otuz ildən çox işğal altında qalan Qazaxın yeddi, Sədərəyin bir kəndinin geri qaytarılmasında nala–mıxa vurması İrəvanın riyakarlığının göstəricisidir.**



Bu dəfə Ermənistan hakimiyyətinin “anklavlar mahnısı”na polşalı politoloq Voyçex Qureçki “züy tutub”: “Bakının Tavuşdakı kəndləri ona təhvil vermək tələbi orada Aİ müşahidəçilərinin olmaması ilə bağlıdır. Azərbaycanın Ermənistana təzyiqinin səbəbi Bakının diktə etdiyi şərtlərlə tezliklə sülh müqaviləsinin imzalanmasına nail olmaqdır”.

Polyak “strateq” belə “arqumentli” açıqlamasını “NEWS.am”-ın müxbiri ilə söhbətində verib. Qureskinin məntiqi ilə, guya, avropalı missionerlərin Tavuşda məntəqəsi olsaydı, Bakı “qorxudan” belə bir iddiaya düşməzdi...

“Ermənistan–Azərbaycan münasibətləri üzrə ekspert” Tavuşdakı kəndlərlə bağlı məsələni İlham Əliyevin daxili siyasətinin elementi adlandırıb: “O, qətiyyətli liderdir və başladığı işi başa çatdırmağa çalışır. Bu məsələdə ləngimə hadisələrin hərbi ssenarisini çətinləşdirir. Eyni zamanda, belə bir təhlükənin mövcudluğunu tamamilə inkar etmək olmaz. Amma mən bunu da şişirtməzdim”, – deyən “siyasi texnoloq” daha sonra açıqlamasında “kəskin dönmə” əməliyyatı edərək İrəvan–Moskva münasibətlərinin hazırki durumuna aydınlıq gətirməyə girişir: “Rusiya Prezidenti Vladimir Putin Ermənistanın hökumət başçısına güvənmir və Nikol Paşinyanın mövqeyini zəiflətmək yolu ilə Ermənistanda hakimiyyəti dəyişməyə çalışır. Əslində, bu, siyasi zərurətdən daha çox şəxsi məsələlərlə bağlıdır. İrəvanın KTMT-də iştirakını “de-yure” donduracağı yönündə açıqlama və bəyanatları bölgədə özünün manevr imkanlarını genişləndirmək istəyindən irəli gəlir. Bir müddət sonra Ermənistanın KTMT-də və Aİİ-də üzv kimi qalıb-qalmayacağı məsələsi ortaya atılacaq. Amma hazırda mən bu “gedişləri” düşünülmüş “oyun”un bir elementi kimi qiymətləndirirəm”.

Cənab Qureçkinin Azərbaycanın özünə məxsus kəndləri bir güllə atmadan geri alacağına qətiyyən şübhəsi olmasın. O, buna təkcə Bakının deyil, İrəvanın, baş nazir Paşinyanın sərhədlərin delimitasiyası ilə bağlı açıqlamalarına ötəri nəzər yetirməklə əmin ola bilər.

* * *

“Kəndlər qaytarılacağı təqdirdə Azərbaycan Ermənistanla müqayisədə çox əlverişli vəziyyətə sahiblənəcək”. Belə bir bəyanatla Ermənistanın eks–ombudsmanı, “Tatoyan” fondunun rəhbəri Arman Tatoyan çıxış edib. Hökumətə yaxın “NEWS.am” saytının yaydığı bəyanatda Tatoyan Tavuşun ölkəsi üçün strateji əhəmiyyətindən danışıb: “Həmin dörd kənd veriləndən sonra bizim təhlükəsizliklə bağlı ciddi problemlərimiz yarana bilər. Strateji obyektlər ya Azərbaycanın nəzarətinə keçəcək, ya da hədəfə alınacaq. Söhbət, ilk növbədə, Gürcüstanı Ermənistanla birləşdirən dövlətlərarası yoldan gedir, bu marşrutun müəyyən hissələri, sadəcə olaraq, yararsız hala düşəcək. Əlbəttə ki, istifadə edilə bilən sahələr var, amma onlar böyük nəqliyyat vasitələri üçün nəzərdə tutulmayıb”.

Daşnak Tatoyan hələ də anlamır ki, “Azərbaycanın Ermənistanla müqayisədə əlverişli vəziyyətə” sahiblənməsi üçün 8 kəndi geri almasına ehtiyac qalmayıb. Bakı özü üçün bu vəziyyəti üç il beş ay bundan əvvəl təmin edib.

Ombudsman bunun ardınca ehtimal və fərziyyələrini daha da genişləndirrir: “Azərbaycana bu kiçik Tavuş kəndləri ona görə lazımdır ki, onlar müharibə təhlükəsi yaradır? Bu kəndlər ərazi kimi ona lazım deyil. Tavuş bölgəsindəki yaşayış məntəqələrimizi silah altında saxlamaq, üstəlik, Ermənistanın təhlükəsizliyini pozmaq Bakıya strateji baxımdan lazımdır”.

Xəstə təxəyyülün məhsulu sayılan fikirlərini davam etdirən “Tatoyan” fondunun rəhbəri sonda özünə ritorik suallar ünvanlayır: “Heç kim soruşmur ki, bizim Sünik, Vayos Dzor, Qeqarkunik ərazilərimizin aqibəti necə olacaq? Azərbaycan Silahlı Qüvvələri bu əraziləri tərk edəcəkmi? Orada məskunlaşsalar, infrastruktur yaratsalar, beton yollar salsalar necə?”.

İndi bir sualı da hay hüquqşunasa biz verək: Başqa nə cür olmalıdır ki? Polyak Qureçki, hay Tatoyan əndişəni İrəvanın Bakı ilə deyil, Rusiya ilə münasibətlərinin gözlənilən fəsadları ilə bağlı keçirməlidirlər.

Deyəsən, Aİ-nin şərti sərhəddəki mülki missiyasını sabah NATO-nun hərbi kontingenti ilə əvəzləməyi planlaşdıran rəsmi İrəvanın qulağının dibi Moskvanın tərs şilləsi üçün qaşınır. Ola bilər. Kreml bunu “keçmiş təcrübəsində” çox sınaqdan çıxarıb...

***İ.HƏSƏNQALA***
***XQ***

III MƏQALƏ

# Liderin gücü: şəxsi keyfiyyətlərlə xalq–lider birliyinin sintezi

(fəlsəfi-politoloji təhlil)

**Ardıcılları olmayan lider deyildir.**
**Malkolm Forbs**



## Heydər Əliyev – müasir güclü liderlik nümunəsi

Müasir mərhələdə Azərbaycanda güclü liderlik nümunəsini Heydər Əliyev yaratmışdır! Ulu öndər çox çətin daxili və beynəlxalq vəziyyətdə Azərbaycanı həm xilas etmiş, həm də uğurlu müstəqil dövlət quruculuğu xəttinə çıxarmışdır. Avrasiya məkanında xilaskarlıq quruculuğun bir-biri ilə sıx şəkildə həyata keçməsinin uğurlu nümunəsi məhz Heydər Əliyevə məxsusdur.

Güclü liderliyin Heydər Əliyev nümunəsinin bir sıra özəllikləri mövcuddur. Onları üç ümumi qrupda cəmləşdirmək olar. Birinci qrup liderin şəxsi keyfiyyətlərinə aid olan faktorlarla əlaqəlidir. İkinci qrup liderin siyasi məharətidir. Üçüncü qrup isə liderin cəmiyyətlə həmrəyliyi, lider-xalq birliyi ilə bağlıdır.

## Liderin şəxsi keyfiyyətləri

Azərbaycanda güclü liderin şəxsi keyfiyyətləri dövlətçilik ənənələri və müasirliyin tələbləri prizmasında çox əhəmiyyətli görünür. Güclü lider qorxmaz, cəsarətli, qətiyyətli, hünərli, xeyirxah, müdrik, siyasi hazırlığı, mənəvi-əxlaqi keyfiyyətləri mükəmməl, yüksək zəkalı, qayğıkeş və ədalətli olmalıdır. Lider xalqın qarşısında duran ən çətin problemləri belə həll etməyi bacarmalıdır. Güclü lider həm də dövləti qorumağı təmin etməlidir. Təhlükəsizlik Azərbaycan cəmiyyəti üçün ənənəvi olaraq strateji məsələ olmuşdur.

Müasir mərhələdə bu kimi şəxsi keyfiyyətlərə yeniləri də əlavə olunmuşdur. Güclü lider müstəqil dövlət quruculuğunun uğurlu modelini hazırlamağı bacarmalıdır. Azərbaycanı əsrlərdir davam edən təzyiqlərdən xilas etməlidir. Güclü lider hakimiyyət-xalq birliyini yeni tələblərə uyğun daha mükəmməl etməyi bacarmalıdır. O, Azərbaycan cəmiyyətinin bütövlüyünü təmin etməlidir. Güclü lider Azərbaycanın davamlı və dayanıqlı inkişaf kursunu dəqiq müəyyənləşdirməlidir.

Nəhayət, güclü lider yeni güclü lider hazırlamaq keyfiyyətinə (qabiliyyətinə, qüdrətinə, iradəsinə və məqsədyönlülüyünə) malik olmalıdır. Liderlikdə bu məsələnin qoyulması, bütövlükdə, müasir müstəqil dövlətlərin hər biri üçün aktualdır. Qərb politoloji fikrində liderin özündən sonrakı dövr üçün layiqli lider hazırlamaq qabiliyyətini ümummilli liderliyin əsas əlamətlərindən biri kimi təqdim edirlər (məsələn, J.Blondel, J.Адизес). Lakin burada fəlsəfi aspektdə prinsipial əhəmiyyəti olan bir neçə məsələ meydana çıxır.

Birincisi, bir sıra filosof və politoloqlar hesab edirlər ki, liderliyi öyrətmək, lider hazırlamaq mütləq vacibdir. Ancaq mükəmməl lider hazırlamaq mümkün deyildir. 2022-ci ildə dünyasını dəyişmiş məşhur fransız politoloq Jan Blondel isə ümummilli liderliyə dixotomik (iki faktorun seçilib, qarşılıqlı müqayisədə, bütövlükdə, sistemi, obyekti, o cümlədən liderliyi müəyyən edən başlıca meyar olaraq qəbul edilməsi üsulu) yanaşma əsasında politoloji xarakterizə etməyin qüsurlu olduğunu əsaslandırmışdır. Təbii ki, həmin əsasda liderilik nümunəsini də dixotomik müəyyən etmək qüsurlu olacaqdır. Məsələn, şirlər–tülkülər, real liderlər–işbazlar, aktiv liderlər–passiv liderlər və s. Xüsusilə ümummilli liderlik kontekstində bu cür yanaşmalara görə, J.Blondel J. Peyci, M-Q.Bernsi, B.Kellermanı və digərlərini tənqid edir.

İkincisi, müasir Qərb politoloji fikrində ümummilli liderlik məsələsinə yanaşma məhdudluğu çərçivəsində siyasi varisliyin adekvat anlamı mövcud deyildir. Yeni liderin hazırlanmasında bu gerçəklik, problemi praktiki həll etmək məsələsində qarşıya xeyli suallar çıxarır. Bəlkə, həm də bu məqama görə, müasir dəyərlər nəzəriyyəsinin nümayəndələrindən olan İshaq Adizes lider hazırlamağı, “liderliyə öyrətməni” vacib sayır, lakin siyasi varis olaraq yeni liderin mükəmməl ola biləcəyinə birmənalı münasibət bildirmir.

Lakin praktiki təcrübə politoloji fikrin yanıldığını üzə çıxarır. Belə məlum olur ki, birincisi, siyasi varislik universal kriteriyalarla deyil, konkret tarixi mərhələdə özəl siyasi təcrübəyə söykənən və konkret ölkə qarşısında duran strateji məsələlərin adekvat dərkinə əsaslanan yanaşma çərçivəsində məzmunlaşa bilər, ikincisi, yeni liderlik kontekstində siyasi varislik elə bir prosesdir ki, praktikada hər anda özünü təsdiq edir. Yəni, əsas olaraq, konkret fəaliyyətin verdiyi nəticələrin ölkənin milli maraqları və beynəlxalq hüquq normaları prizmasında qiymətləndirilməsi (təbii ki, söhbət obyektiv qiymətləndirmədən gedir) ön plana çıxmalıdır.

Bizcə, Arçi Braun da daxil olmaqla, müasir Qərb politoloqları məhz bu sonuncu iki yanaşma özəlliyini nəzərə almadıqlarına görə “güclü lider” alayışını sistemli təqdim edə bilmirlər.

Belə ki, güclü liderliyi konkret ölkə üçün müəyyən etmək üçün əsaslı və adekvat “siyasi varislik” anlayışını politoloji müəyyənləşdirmək gərəkdir. Heydər Əliyev bu məqamda bütün dünyaya örnəkdir. Ulu öndər əməli fəaliyyətinin Azərbaycan nümunəsində sübut etdi ki, həm çox güclü liderdir, həm də siyasi varislik prinsipini çox müəkəmməl məzmunlaşdıra bilir. Buna görə də qətiyyətlə belə qənaətə gələ bilərik ki, Heydər Əliyev müasir mərhələdə bütün Avrasiya məkanı üçün örnək ola biləcək güclü və uğurlu liderlik nümunəsidir!

## Siyasi məharət

Beləliklə, nəzəri-politoloji və fəlsəfi olaraq zəruri şəxsi keyfiyyətlərə malik olmayan liderin güclülüyü imkansızdır. Burada liderin şəxsi-psixoloji, iradi və zəkavi keyfiyyətlərinin vəhdəti həlledici rol oynayır. Lider sarsılmaz siyasi iradəyə və dayanıqlı psixoloji özəlliklərə malik ola bilər. Lakin strateji zəkasındakı qüsurlara görə güclü lider kimi qəbul edilməyə də bilər. Və yaxud lider aydın məqsədə malik olar, iradəsi güclü olar, lakin şəxsi psixoloji dayanıqlığı və strateji zəkası dayanıqsız ola bilər ki, bu halda da onu güclü lider kimi qəbul etmək çətindir (D.Tramp buna nümundir).

Güclü liderliklə bağlı aydınlaşan digər məqam konkret ölkənin liderlik təcrübəsi əsasında müasirliklə müqayisə fonunda dövlətçiliyin optimal inkişafı kursunun yaradılmasından ibarətdir. Burada liderin şəxsi keyfiyyətləri ilə siyasi liderlik təcrübəsinin çox orijinal sintezi, harmoniyası, bir-birini tamamlaması, uzlaşması tələb olunur. Bu kontekstdə liderin şəxsi keyfiyyətlərini onun praktiki siyasi fəaliyyətinin peşəkarlıq aspektinə transformasiyasını görürük. Yəni, güclü lider şəxsi keyfiyyətlərini konkret tarixi situasiyanın özəllikləri kontekstində praktiki siyasi fəaliyyətinə müsbət nəticəverici yöndə proyeksiya edə biləndir.

Bütün bunlardan belə qənaətə gəlmək olar ki, müasir mərhələdə liderin şəxsi keyfiyyətləri onun praktiki siyasi fəaliyyətində çox ciddi rol oynayır. Şəxsi keyfiyyətlər insanın daxili aləminin bütövlüyünü təmin edə bilmədikdə, onun güclü və uğurlu siyasi lider olması qeyri-mümkündür.

Bəs liderin şəxsi keyfiyyətlərinin harmoniyasının, sintezinin, bütövlüyünün konkret təsdiqini onun hansı keyfiyyətində görmək mümkündür? Burada ortaya siyasi varisliklə güclü uğurlu liderliyin qarşılıqlı əlaqəsi məsələsi çıxır. Yəni layiqli siyasi varis hazırlaya bilməyən lideri uğurlu güclü lider saymaq çox çətindir.

Məsələnin bu tərəfi bugünkü geosiyasi və siyasi-hərbi dinamikanın çox sürətli, qeyri-müəyyən, mürəkkəb və ziddiyyətli olması fonunda daha da aktuallaşır. Güclü lider sürətlə dəyişən vəziyyətlərə yalnız çevik adaptasiya etmək qabiliyyətinə malik olmamalıdır. O, həm də hər situasiyada kreativ davranmağı və çevik qərarlar qəbul etməyi bacarmalıdır. Vurğulanan kontekstdə aydın olur ki, güclü lider həm də yaradıcı düşünən və kreativ fəaliyyət göstərən uğurlu lider hazırlayandır.

Burada güclü, uğurlu liderliyin Azərbaycan nümunəsində iki kriteriyanın sıx qarşılıqlı əlaqədə olduğunu görürük: birinci, güclü və uğurlu liderlik nümunəsinin real mövcud olması, ikinci, bunun əsasında yeni şəraitdə güclü və uğurlu ola biləcək liderin hazırlanması. Bu xətt siyasi varislik prinsipi üzrə reallaşır, lakin həyata keçmə mexanizmi siyasi məharətlə bağlıdır. Siyasi varisliyin konseptual məzmununun müəyyən edilməsi güclü liderlikdə bazadır, təməl fəaliyyət sahəsinin müəyyənləşməsidir. Bununla yanaşı, ən mükəmməl təməl fəaliyyət sahəsi belə, lazımi siyasi məharət olmayanda praktiki nəticə vermir. Deməli, hər iki aspektin vəhdəti çox əhəmiyyətlidir.

Heydər Əliyev bu aspektləri özündə ehtiva edən nümunəvi güclü, uğurlu ümummilli liderdir! Etiraf edək ki, postsovet məkanında ikinci nümunə yoxdur. Güclü liderlər olmuşdur və vardır, lakin Heydər Əliyevdən başqa bir şəxsiyyətdə fərdi keyfiyyətlərlə, siyasi məharəti praktiki siyasi fəaliyyətdə sintez də bilən, bu kontekstdə də yeni uğurlu liderliyin nəzəri və praktiki şərtlərini dəqiq müəyyənləşdirən yoxdur.

Heydər Əliyevin liderliyində siyasi məharət zəngin təcrübə və strateji zəka ilə birləşir. Daha doğrusu, siyasi məharətin qaynağında həmin iki vacib keyfiyyət dayanır. Ulu öndər Azərbaycan dövlətçilik ənənəsini, dövlətçilik strategiyasında yol verilən səhvləri, yanlış yanaşmaları çox gözəl bilirdi. Bu məsələnin həm tarixi aspektini dərindən mənimsəmişdi, həm də XX əsrdə praktiki siyasi fəaliyyət nümunələrində yenidən sınaqdan çıxarmışdı.

O cümlədən, Azərbaycan Demokratik Respublikasının üstünlüklərini və tarixi tələblərə cavab verməyən nöqsanlarını, Azərbaycan dövlətçilik fikrinin tarixi təkamülünün fəlsəfi və siyasi-nəzəri özəlliklərini, müstəqil dövlət qurmaq strategiyasının mövcud olmuş və yeni şərtlər daxilində formalaşan kriteriyalarını dərindən bilirdi.

Bu prosesdə Ulu öndərin sovet mərhələsindəki fəaliyyəti də qiymətlidir və ondan alınacaq ibrət dərsləri də çoxdur. Bütün bunları biz lakonik olaraq “Ümummilli liderin zəngin siyasi təcrübəsi” adlandıra bilərik. Məhz bu kontekstdə liderin siyasi məharəti anlayışı yeni aktual məzmun kəsb edir. Siyasi məharət sırf nəzəri anlam deyildir – o, konkret siyasi təcrübəyə əsaslanan və dəqiq siyasi məzmunu olan nəzəri ilə feilinin sintezidir. Azərbaycanda güclü uğurlu siyasi liderliyin nümunəsi bu kriteriyalar fonunda Heydər Əliyev timsalında XX əsrin 90-cı illəri–XXI əsrin başlanğıcındakı mərhələdə tam formalaşmışdır.

Güclü liderliyin Azərbaycan nümunəsi sabit, dəyişməz anlam deyildir, əksinə, Ulu öndərin verdiyi məzmun və məqsədə görə, sürətlə dəyişən ziddiyyətli və mürəkkəb situasiyalarda liderin güclü və uğurlu olmasını təmin edən kriteriyalara söykənir. Bizcə, bu məqam güclü uğurlu liderliyin Azərbaycan nümunəsinin mərkəzi müddəasıdır! Həmin müddəadan alınan strateji xarakterli fəlsəfi və politoloji anlamı olan tezis belədir: Güclü liderliyin Azərbaycan nümunəsi XXI əsrin özəlliklərinə uyğun uğurlu transformasiya etmişdir. Bunu Prezident İlham Əliyevin fəaliyyəti nümunəsində görə bilərik.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Militaristin taktikası – iz azdırmaq

**(əvvəli 4-cü səhifədə)**

Müşahidələr göstərir ki, rəsmi İrəvan boynuna qoyulmuş bu missiyanı yerinə yetirməyə razılaşıb. Həm də düşünür ki, bununla, o, sülh danışıqlarında Bakıya qarşı yeni və güclü təzyiq rıçaqları əldə edə biləcək. İki gün əvvəlki məlum Brüssel görüşündə ABŞ Dövlət katibi Antoni Blinkenin “Ermənistanı bölgənin ən inkişaf etmiş və güclü dövləti” kimi görmək arzusunu ərz etməsi məhz bu məkrli ssenarinin artıq yazıldığına dəlalət edir.

Konstitusiyasında qonşularına qarşı ərazi iddialarının yer aldığı Ermənistanı özünün bölgədə “forpost”una çevirməyə qərar vermiş Qərbin məlum gücləri üçün onu silahlandırmaq, bu baxımdan, strateji əhəmiyyətə kəsb edir. Fransa, Hindistan və Yunanıstanın Ermənistanla hərbi–texniki əməkdaşlığı rəsmiləşdirməsi, İrəvana bu ölkələrdən intensiv şəkildə silah–sursatın daşınması məgər onun Azərbaycana qarşı növbəti hərbi təcavüzə sürüklənməsindən xəbər vermirmi? Hərbi dəstəkçilərin Ermənistanı militarizmə sürükləməsi, Fransa və Yunanıstanın Ermənistan ordusunun idarə edilməsində rol alması, dördtərəfli hərbi əməkdaşlıq formatının yaradılması təkcə Azərbaycanda narahatlıq yaratmır, eləcə də Rusiyanın və İranın da təhlükəsizlik maraqları ilə daban–dabana ziddir. Əslində, dünyanın müxtəlif qitələrində yerləşən və hərbi əməkdaşlığı nəzərdə tutan “dördlərin paktı” formatı BMT Nizamnaməsi, eləcə də beynəlxalq hüquqla ziddiyyət təşkil edir. Bunun adı, sadəcə, hərbi avantüradır.

## “Politiko” tək “döyüşmür”

Erməni lobbisinin, diasporunun Azərbaycana qarşı feyk–xəbərlər üzərində qurduqları total informasiya “savaşında” “Politiko” yeganə satılmış media qurumu deyil. “Azərbaycan bir müddətdir ki, İtaliya ilə iriçaplı silahların alınması ilə bağlı danışıqlar aparır”. Bu barədə “La Repubblica” nəşri keçən ilin payızında yazmışdı. Məqalədə qeyd olunurdu ki, Bakının sifariş etdiyi hərbi məhsulların siyahısına təlim təyyarələri, avtomatlar, özüyeriyən zenit silahları, “yer-hava” tipli raket batareyaları, nəqliyyat təyyarələri və mini sualtı qayıqlar daxildir.

Sifarişlə hazırlandığı şübhə doğurmayan həmin materialın da eyni mərkəzdən idarə olunan anti–Azərbaycan cəbhəçilərinin beyin məhsulu olduğunun sübuta ehtiyacı yoxdur. Azərbaycanın enerjiyə tələbatının böyük qismini ödədiyi İtaliya ilə münasibətlərinə kölgə salmağa hesablanmış həmin informasiyaya görə, ikitərəfli sövdələşmə 1-2 milyard avro dəyərində təxmin edilir. Məqalədə o da xatırladılırdı ki, 2023-cü ilin iyun ayında İtaliyanın təhlükəsizlik və müdafiə sənayesi şirkəti “Leonardo” taktiki nəqliyyat təyyarəsinin ən müasir versiyası sayılan ikiturbinli “C27J Spartan”ın Azərbaycana satışını elan edib.

UAMA-nın qaydalarına görə, hərbi ləvazimatların müharibə şəraitində olan ölkəyə verilməsinin mümkünsüzlüyünü nəzərə çatdıran nəşr Azərbaycanın 30 ilə yaxın “Dağlıq Qarabağ” münaqişəsində tərəf olduğunu vurğulayır: “Təbii ki, həmin bölgədə sualtı qayıqlardan istifadə olunacağını güman etmək yersizdir. Bu, ixrac sorğusunda vurğulanan bir cəhətdir, amma qanunun meyarları ciddidir və hətta mini sualtı qayıqlar Azərbaycan Silahlı Qüvvələrinin ümumi gücünü artıracaq”.

“La Repubblica” yazır ki, mini sualtı qayıqlar Bakının ən çox əldə etmək istədiyi hərbi texnikadır: “Kiçik ölçülərə, lakin ölümcül gücə malik bu qayıqlar dörd torpeda ilə təchiz olunub. Onlar Xəzər dənizinin dayaz sularında fəaliyyət göstərmək üçün idealdır”.

Nəşr Azərbaycanın Xəzərdə İran və Rusiya donanması ilə üz-üzə olduğuna diqqət çəkir: “Amma uzunmüddətli görüşlərdən sonra artıq Azərbaycanın İtaliyanın vetolarına səbri tükənmiş kimi görünür və bu ölkə Türkiyə və İsraildə alternativ istehsalçılar axtarmağa başlayıb. Eyni risklər “Leonardo”nun M346 təyyarələri, qırıcı-bombardmançı təlim təyyarələri ilə də baş verir. Çünki üç il əvvəl Romadan icazə almadan şirkətlə memorandum imzalanıb”.

Nəhayət, “La Repubblica” məqaləni sifariş verənlərin əsas məqsədlərinin nədən ibarət olduğunu özü açıqlayır: “Bütün bunlar Bakı ilə Roma arasında münasibətlərin ən mühüm aspektinə mənfi təsir göstərə bilər. Çünki bu gün Rusiya qazını kompensasiya etmək üçün İtaliya üçün vacib olan qaz tədarükünü Azərbaycan təmin edir. Bu ölkə İtaliyanın ikinci “mavi yanacaq” təchizatçısıdır”.

Nəşr xatırladırdı ki, bu məsələni İtaliyanın müdafiə naziri Quido Krosetto bir neçə həftə bundan əvvəl yerli mediaya müsahibəsində açıq şəkildə bəyan edib: “Hətta, bu yaxınlarda başa düşmədiyim şeylər gördüm: biz Rusiya qazından asılılığı Azərbaycanla əməkdaşlıq sayəsində aradan qaldırdıq. Lazım olanı əldə etdikdən sonra münasibətləri davam etdirməkdə müəyyən tərəddüd gördüm. Məsələn, müdafiə sektorunda. Amma əgər müəyyən xətt seçilərsə, bəzi müttəfiqlərimiz məmnun olmasa belə, biz bu xətlə davam etməliyik”.

“Bəzi müttəfiqlər” dedikdə qəzetin ABŞ-ı nəzərdə tutduğu məlumdur. Fəqət, həmin müttəfiq Azərbaycanla təbii qazın tədarükünü ikiqat artırmaq üçün pakt imzalayan Avropa İttifaqına təzyiq göstərə bilmədi. Necə ki, Vaşinqtonun istək və iradəsinin əksinə olaraq, “qoca qitə”nin Böyük Britaniya, Rumıniya, Macarıstan, Bolqarıstan, Serbiya kimi dövlətləri Azərbaycanla enerji daşıyıcıları sahəsində əməkdaşlıqdan məmnundurlar.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərb Universitetinin professoru, politoloq**



**Olduqca mürəkkəb bir bölgədə yerləşən Azərbaycanın təhlükəsizliyini qoruması təbii xarakter daşıyır. Uzun illər ərzində Ermənistanın hərbi təcavüzünə və işğala məruz qalmışıq. Biz bunu daim yadımızda saxlamalıyıq. Yəni, həmin vəziyyət bir daha təkrarlanmasın deyə, özümüzü qorumalı və müdafiə etməliyik. Ermənistanın bunu hansı məqsədlə etdiyini özündən daha yaxşı onun başını sığallayan, dəstəkləyən qüvvələr bilir. Onlar hesab edirlər ki, Ermənistan hərbi cəhətdən qüdrətli və güclü dövlət olmalıdır. Bu istəklərini Qərbin haypərəst aparıcı dövlətlərinin rəhbərləri gizlətmirlər. Brüssel görüşündə dediyimiz fikir səsləndirildi. Bəli, həmin güclər Hayastanı bölgənin inkişaf etmiş dövləti qismində görmək istəyirlər. Qoy görsünlər, amma onu silahlandırıb üstümüzə yönəltməsinlər.**

**Azərbaycanın İrəvana qarşı heç bir ərazi iddiası, hərbi müdaxilə planı yoxdur. Ermənistandan fərqli olaraq, bizim qanunlarımızda belə iddiaların nəzərdə tutulduğu qanunvericilik maddəsi olmayıb. Aydın məsələdir ki, Qərbin məqsədi bir tərəfdən Ermənistanı Azərbaycana qarşı yönəltmək, digər tərəfdən isə, Rusiyadan qopartmaqdır. Amma bu məsələnin asanlıqla baş verə biləcəyini düşünmürəm. Başqa bir reallıq da ondan ibarətdir ki, Qərbin ermənipərəst qüvvələri Cənubi Qafqazda yeni münaqişə ocağının yaranmasını çox arzu edirlər. Bu avantürst planda Ermənistan onların “maşası”, bölgədəki forpostudur. Deməli, məhz həmin forpostun vasitəsilə burada müəyyən gərginlik yaratmağa çalışırlar. Amma heç bir halda buna nail ola bilməyəcəklər.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 193** **Bakı şəhəri, 2 aprel 2024-cü il**

***“Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 noyabr tarixli 2348 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

“Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin səlahiyyət dairəsinin, vəzifə və hüquqlarının bölgüsünün, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin müəyyən edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 186 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 noyabr tarixli 2348 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 noyabr tarixli 182 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 967 (Cild I) ilə təsdiq edilmiş “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə həqiqi hərbi xidmətə qəbul edilən və ya bu subyektlərdə xidmət keçən şəxslərin sağlamlığının yoxlanılması Qaydası”nın 1-ci hissəsindən “Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin,” sözləri çıxarılsın.

**2.** “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin əməkdaşının və onun ailə üzvlərinin yeni xidmət yerinə köçməsi və əmlakının daşınması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 dekabr tarixli 192 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2-ci hissədən “Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə,” sözləri çıxarılsın;

2.2. həmin Qərarla təsdiq edilmiş “Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektinin əməkdaşının və onun ailə üzvlərinin yeni xidmət yerinə köçməsi və əmlakının daşınması Qaydası”nın 1-ci hissəsindən “Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin,” sözləri çıxarılsın.

**3** “Yüksək ixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablanması Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 1 iyul tarixli 124 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 658 (Cild I) 2-ci hissəsindən “Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinə,” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 195** **Bakı şəhəri, 3 aprel 2024-cü il**

***“Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanının 6.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 350 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1084 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə ləğv edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş “Azərbaycan Respublikasının dövlət orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və komissiyalar üçün müəyyən edilmiş vahid indekslərin Siyahısı”nın yuxarı sağ küncündən “Əlavə” sözü çıxarılsın və həmin Siyahıda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8-ci hissənin adında “Akademiya” sözü “Akademiyalar” sözü ilə əvəz edilsin və həmin hissəyə aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

“8-2/ Milli Aviasiya Akademiyası”;

2.2. 9-cu hissəyə aşağıdakı məzmunda onuncu abzas əlavə edilsin:

“9-9/ Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 196** **Bakı şəhəri, 3 aprel 2024-cü il**

***“Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

“Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın tərkibi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 27 dekabr tarixli 2435 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 12, maddə 1115 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları”nda “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının Katibliyi” sətrindən “Azərbaycan Respublikasının Prezidenti yanında” sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747 (Cild I); 2024, № 1, maddə 101; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 12 mart tarixli 133 nömrəli Qərarı) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentliklərinin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)”nin cədvəlinin 27-2-ci hissəsinin “Orqanın adı” sütunundan “Azərbaycan Respublika-sının Prezidenti yanında” sözləri çıxarılsın.

**3.** “Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyanın Katibliyinin işçilərinin say həddinin müəyyən edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının ləğvi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 30 may tarixli 247 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1151 (Cild I) adından, 1-ci və 2-ci hissələrindən “Azərbaycan Respublikasının Prezidenti yanında” sözləri çıxarılsın.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 10 may tarixli 153 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 720 (Cild I) ilə təsdiq edilmiş “Qulluğun (xidmətin) xüsusiyyətləri nəzərə alınmaqla kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinin hərbi qulluqçularının və işçilərinin, əməliyyat-axtarış fəaliyyəti subyektlərinin işçilərinin və “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan digər işçilərin və şəxslərin fərdi uçotu Qaydası”nın 1.2.3-cü yarımbəndindən “Azərbaycan Respublikasının Prezidenti yanında” sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 197** **Bakı şəhəri, 3 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nın təsdiq edilməsi haqqında” 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli və “İstilik enerjisindən istifadə qaydaları”nın təsdiq edilməsi haqqında” 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ölkədə tarifləri (qiymətləri) dövlət tərəfindən tənzimlənən sahələrin liberallaşması istiqamətində tədbirlərin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 28 sentyabr tarixli 178 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 869 (Cild I); 2024, № 1, maddə 80; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 9 mart tarixli 130 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Qiymətləri (tarifləri) dövlət tərəfindən tənzimlənən malların (işlərin, xidmətlərin) Siyahısı”nın 9-cu hissəsində “İstilik təchizatı” sözləri “İstilik təchizatı (qeyri-əhali istehlakçıları istisna olmaqla)” sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 sentyabr tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 9, maddə 1324 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 7 mart tarixli 128 nömrəli Qərarı) ilə təsdiq edilmiş “İstilik enerjisindən istifadə qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 9.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“9.1. Müəssisə tərəfindən göstərilən istilik təchizatı xidmətlərinə görə hesablaşmalar əhali qrupuna aid istehlakçılar üzrə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən müəyyən edilmiş tariflərlə, isti su təchizatı xidmətlərinə və qeyri-əhali qrupuna aid istehlakçılar üzrə istilik təchizatı xidmətlərinə görə hesablaşmalar isə müqavilə ilə müəyyən edilmiş tariflərlə həyata keçirilir.”;

2.2. həmin qaydalara 2 nömrəli əlavə - “İstilik və isti su təchizatı xidmətlərinə dair Müqavilə”nin 3.1.1-ci yarımbəndində “Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən” sözləri “bu Müqavilə ilə” sözləri ilə əvəz edilsin.

**3** Bu Qərar 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 198** **Bakı şəhəri, 4 aprel 2024-cü il**

***“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 yanvar tarixli 2 nömrəli Qərarı) 2-ci hissəsində “aprelin 2-dək” sözləri “iyulun 1-dək” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 200** **Bakı şəhəri, 4 aprel 2024-cü il**

***“Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** “Ezamiyyə xərclərinin normaları haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 1, maddə 44 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambula aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, ezamiyyə xərclərinin normalarını müəyyən etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:”;

1.2. 1-ci hissənin birinci abzasında “Bakı şəhərində 90,0 manat, Gəncə, Sumqayıt və Naxçıvan şəhərlərində 70,0 manat, respublika tabeli digər şəhərlərdə, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 65,0 manat” sözləri “Bakı şəhərində 125,0 manat, Naxçıvan şəhərində 100 manat, Gəncə və Sumqayıt şəhərlərində 95,0 manat, digər şəhərlərdə, rayon mərkəzlərində, şəhər tipli qəsəbələrdə və kəndlərdə 90,0 manat” sözləri ilə əvəz edilsin;

1.3. 1-ci hissənin ikinci abzasında “80” rəqəmləri “70” rəqəmləri ilə əvəz edilsin;

1.4. 3-cü hissədə “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə” sözləri “Ezamiyyə” sözü ilə əvəz edilsin;

1.5. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

“4. Müəyyən edilsin ki, ezamiyyə xərclərinin 1 günlük normasına mehmanxana xərcləri və gündəlik xərclər (yemək, şəhərdaxili nəqliyyat, rabitə və digər xidmətlərlə bağlı xərclər) daxildir.”;

1.6. 6-cı hissədə “daşıyan,” sözləri “daşıyan və ya” sözləri ilə, ikinci halda “və” sözü “yaxud” sözü ilə, “15,0” rəqəmləri “20,0” rəqəmləri ilə əvəz edilsin;

1.7. 7-ci hissənin üçüncü abzasından “öz sərəncamlarında qalan mənfəət hesabına” sözləri çıxarılsın;

1.8. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Xarici ölkələrə ezamiyyə xərclərinin 1 günlük normaları” yeni redaksiyada verilsin (əlavə olunur);

1.9. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə xərclərinin 1 günlük normasına əlavələr və həmin əlavələrin tətbiq olunduğu rəhbər işçilərin kateqoriyası” üzrə:

1.9.1. adında “Rəhbər işçilərin xarici ölkələrə ezamiyyətləri ilə əlaqədar ezamiyyə” sözləri “Ezamiyyə” sözü ilə əvəz edilsin;

1.9.2. cədvəlin 2-ci hissəsinə “Azərbaycan Respublikasının Ali Məhkəməsi sədrinin müavinləri” sözlərindən sonra “, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri” sözləri əlavə edilsin;

1.9.3. cədvəlin 3-cü hissəsindən “Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin,” sözləri çıxarılsın;

1.9.4. “Qeydlər”in 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“1. Cədvəlin 1-ci və 2-ci hissələrində göstərilən şəxslərə xidməti ezamiyyətlər zamanı ezamiyyə xərclərinin 1 (bir) günlük normasının 10 faizi məbləğində hər gün üçün nümayəndəlik xərcləri ödənilir. Həmin şəxslərə və Azərbaycan Respublikası xarici işlər nazirinin müavinlərinə, fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsi olan xüsusi tapşırıqlar üzrə səfir vəzifəsində çalışan şəxslərə, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəliklərinin (Baş konsulluqlar daxil olmaqla) Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən rəhbərlərinə, eləcə də Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılmış hökumətlərarası komissiyaların tərkibinə daxil olan şəxslərə nəqliyyat xərcləri təyyarə üçün “biznes klass”, dəmiryol qatarları üçün “biznes klass” və ya “2 yerli kupeli yumşaq vaqon” tarifləri ilə ödənilir. Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının və mərkəzi icra hakimiyyəti orqanlarına bərabər tutulan orqanların rəhbərlərinin müavinlərinə, mərkəzi icra hakimiyyəti orqanları yanında yaradılan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərlərinə ezamiyyətə getdiyi zaman fasiləsiz uçuş müddəti 5 (beş) saatdan artıq olduğu aviareyslər üzrə nəqliyyat xərcləri “biznes klass” tarifləri ilə ödənilir. Bütün digər hallarda nəqliyyat xərcləri təyyarə üçün “ekonom klass”, dəmiryol qatarları üçün “4 yerli kupeli vaqon” tarifləri ilə ödənilir.”.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 202** **Bakı şəhəri, 5 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası”nda və 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası”nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 13 dekabr tarixli 2378 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 56 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 319 (Cild I) ilə təsdiq edilmiş “Dövlət icbari şəxsi sığorta ödənişinin verilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.3-cü yarımbənddə “və” sözü vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə “Təhlükəsizliyi” sözündən sonra “Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik” sözləri əlavə edilsin;

1.2. 3.1-ci və 3.2-ci bəndlərdə birinci halda “və” sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndlərə “Təhlükəsizliyi Xidməti” sözlərindən sonra “və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti” sözləri əlavə edilsin;

1.3. 4.7-ci bəndin birinci cümləsində birinci halda “və” sözü vergül işarəsi ilə əvəz olunsun və həmin bəndə “Təhlükəsizliyi” sözündən sonra “Xidməti və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik” sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 62 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 325 (Cild I) ilə təsdiq edilmiş “Sığortalıların təqdim etdiyi məlumatlar əsasında sığortaolunanların və sığortalıların sığortaçıda uçotu, habelə sığortalılar tərəfindən dövlət icbari şəxsi sığorta haqlarının hesablanması, sığortaçıya ödənilməsi, ödənilməsinə nəzarət və artıq ödənilmiş dövlət icbari şəxsi sığorta haqlarının qaytarılması Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.2.1-ci yarımbənddə “və” sözü vergül işarəsi ilə əvəz olunsun və həmin yarımbəndə “Təhlükəsizliyi Xidmətinin” sözlərindən sonra “və Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin” sözləri əlavə edilsin;

**2.** 2. 9.3-cü bəndə “Kəşfiyyat Xidməti” sözlərindən sonra “, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti” sözləri əlavə edilsin.

**3** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

3.1. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin müraciətinə əsasən barələrində məlumatların məxfiləşdirilməsi nəzərdə tutulan hər bir sığortaolunana tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən bu Qərarın qüvvəyə mindiyi tarixdən 1 (bir) ay müddətində unikal kodun verilməsini təmin etsin;

3.2. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 203** **Bakı şəhəri, 5 aprel 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarı ilə təsdiq edilmiş “Geoloji Kəşfiyyat Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”ndə və 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarı ilə təsdiq edilmiş “Geodeziya və Kartoqrafiya Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 noyabr tarixli 416 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1353 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli 116 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Geoloji Kəşfiyyat Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”nin 5.5-ci bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Agentliyin sərəncamında qalan vəsaitdən Nazirliyin əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.”.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 29 noyabr tarixli 425 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 11, maddə 1361 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 5 mart tarixli 116 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Geodeziya və Kartoqrafiya Agentliyi” publik hüquqi şəxsin Nizamnaməsi”nin 5.4-cü bəndinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Agentliyin sərəncamında qalan vəsaitdən Nazirliyin əməkdaşlarının vəzifə maaşlarına əlavə və mükafatların verilməsi üçün ayırmalar nəzərdə tutulur.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Sahibkarlar öz ölkəsinin əsl sahiblərinə çevriliblər

## *Hazırda 800 mindən çox insan özəl bölmədə fəaliyyət göstərir*



**Son illərdə respublikada özəl sektorun dinamik inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilib, iş adamlarına güzəştli kreditlərin verilməsi, investisiya təşviqi mexanizminin tətbiqinin davam etdirilməsi, xarici ölkələrdə ticarət evlərinin açılması, sahibkarların bu prosesə yaxından cəlb olunması daim diqqətdə saxlanılıb. Eyni zamanda, sahibkarlıq sahəsində yoxlamaların, lisenziyaların sayının minimuma endirilməsi, lisenziya verilməsi qaydalarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi, bütün bunlarla bağlı dövlət dəstəyinin daha da artırılması sahibkarların xərclərinin azalmasına səbəb olub, eyni zamanda, büdcəyə vergi ödənişlərinin həcminin artırılmasını şərtləndirib.**

Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Osman Xaliyev mediaya müsahibəsində bu ilin ilk rübü ərzində Sahibkarlığın İnkişafı Fondu (SİF) tərəfindən 1065 layihə üçün 43,1 milyon manat güzəştli kredit ayrıldığını bildirib. O, fondun fəaliyyətində özəl bölmə subyektlərinə maliyyə dəstəyinin göstərilməsinin, dövlət və sahibkarlar arasında əməkdaşlığın inkişaf etdirilməsinin, eləcə də qarşılıqlı inam mühitinin yaradılmasının əsas məqsəd olduğunu vurğulayıb. O.Xaliyev, eyni zamanda, hazırda SİF-in respublikada fəaliyyət göstərən 21 bank, 9 bank olmayan kredit təşkilatı və 10 kredit ittifaqı ilə sahibkarlıq subyektlərinin güzəştli şərtlərlə maliyyə dəstəyindən yararlanması üçün əməkdaşlıq etdiyini də xatırladıb.

SİF İdarə Heyətinin sədri müsahibəsində, həmçinin sahibkarlığın dəstəklənməsinə xidmət edən maliyyə mexanizmlərinin icrasında sözügedən fond və özəl sektor arasında əməkdaşlığın xüsusi yer tutduğunu, qurumun güzəştli kredit, zəmanət və subsidiya, avadanlıq krediti kimi dəstək mexanizmlərinin müvəkkil kredit təşkilatları vasitəsilə icra olunduğunu deyib.

"Güzəştli kreditlərin hər biri 2024-cü il üzrə müəyyənləşdirilən prioritet istiqamətlərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin müvafiq layihələrinə verilib. Layihələr əvvəlcə müvəkkil kredit təşkilatları, daha sonra isə fond tərəfindən təhlil olunub.

Bu maliyyə qurumu tərəfindən vəsaitin ayrılmasına qərar imzalandığı zaman layihənin ölkə iqtisadiyyatına verəcəyi töhfə, o cümlədən, iqtisadi artıma təsiri nəzərə alınıb. SİF kredit təşkilatlarından əlavə müxtəlif assosiasiyalarla, sahibkar klubları ilə əməkdaşlıq edib, həmin təşkilatların üzvləri ilə mütəmadi görüşlər keçirib", – deyə O.Xaliyev əlavə edib.

Xatırladaq ki, ötən il SİF tərəfindən 3276 investisiya layihəsinin maliyyələşdirilməsi üçün 43,1 milyon manat dəyərində güzəştli kredit ayrılıb.

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Belə ki, ölkədə özəl bölmənin inkişafı təkcə sahibkarlığın kreditləşməsinin diqqət mərkəzində saxlanılması ilə məhdudlaşmır. Bu sahənin qanunvericilik bazasının möhkəmləndirilməsi, sahibkarlığın inkişafına mane olan inhisarçılıq hallarının aradan qaldırılması, özəl bölmə subyektlərində dövlət qurumları tərəfindən qanunsuz yoxlamalar aparılması və çoxsaylı əsassız lisenziyaların verilməsi kimi neqativ hallara qarşı ciddi mübarizə tədbirlərinin həyata keçirilməsi daim diqqətdə saxlanılır, dövlət qurumlarının, həmçinin ayrı-ayrı nazirliklərin fəaliyyətlərində bu problemlərin həllinə xüsusi əhəmiyyət verilir.

Sahibkarlığın inkişafından bəhs edərkən bu il iyulun 1-dən qüvvəyə minəcək Rəqabət Məcəlləsinin tətbiqi və onun biznes mühitinə təsirləri barədə də danışmaq yerinə düşər. Yeri gəlmişkən, ekspertlər tərəfindən inhisarçılıq və haqsız rəqabət halları ilə mübarizədə Rəqabət Məcəlləsinin sahibkarlığın inkişafını stimullaşdıracağı qeyd edilir. "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı"nın da kiçik və orta biznes subyektlərinin bazara sərbəst girişinə maneə yaradan amillərin aradan qaldırılmasına xidmət edəcəyi bildirilir.

Ümumiyyətlə, istər Rəqabət Məcəlləsində, istərsə də adıçəkilən Milli Fəaliyyət Proqramı ölkəmizdə rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxışın diqqət mərkəzində saxlanılması kimi məsələlərə böyük əhəmiyyət verilib. Bundan başqa, adları çəkilən sənədlərdə istehlak bazarında rəqabət üstünlüyünün gerçəkləşdirilməsinə, eyni zamanda, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə həlledici vasitə kimi yanaşılıb.

Rəqabət Məcəlləsinin sahibkarlığın inkişafını stimullaşdıracağı məsələsinə gəldikdə isə ekspertlərin fikirlərinə əsaslanaraq qeyd edək ki, bu, vergi, gömrük, dövlət satınalmaları və iqtisadi subyektlərlə qarşılıqlı əlaqədə olan digər dövlət sektorlarında şəffaflıq və ədalətliliyin təminini, ilk növbədə, rəqabət mühitini gücləndirir. Bu, həm də sahibkarlıq fəaliyyətinin qanun çərçivəsində qurulması, iqtisadiyyatın əsaslarının möhkəmlənməsi baxımından da zəruri şərtlərdən biridir. Çünki sağlam rəqabətli iqtisadiyyat həm xalqın rifah səviyyəsini yüksəldir, həm də xaricdən ölkəyə investisiya axınının miqyasını artırır.

Sahibkarlığın inkişafını şərtləndirən ən mühüm amil isə hazırda qlobal çağırışlar fonunda respublikamızda mövcud makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyat şaxələndirilməsinin diqqət mərkəzində saxlanılması, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühitinin formalaşdırılmasıdır. Həyata keçirilən genişmiqyaslı tədbirlər nəticəsində sahibkarların ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsi də bunun bariz ifadəsidir.

Respublikada reallaşdırılan islahatlar beynəlxalq maliyyə təşkilatları tərəfindən də yüksək qiymətləndirilir. Dövlət-sahibkar münasibətlərinin uğurla gerçəkləşdirilməsi, biznes fəaliyyətinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi davam etdirilir. Bunlarla bərabər, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, tətbiq olunan güzəştlər və stimullar, işgüzar əlaqələrin inkişafı istiqamətində gerçəkləşdirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında qeyri-dövlət sektorunun payı hazırda 86,5 faiz, məşğulluqda isə 78 faiz təşkil edir.

Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi və digər tədbirlər həyata keçirilir. Bunun nəticəsi olaraq ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamları xarici ölkələrdə həyata keçirilən layihələrdə də fəal iştirak edir, müxtəlif sahələrə investisiya yatırır, etibarlı tərəfdaş kimi tanınırlar. Hazırda ölkədə sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayı 759 mindən çoxdur.

***Vaqif BAYRAMOV***
***XQ***

# Kənd daha bir bolluq, bar-bərəkət mövsümünə qucaq açır

**Ölkədə məhsul bolluğuna nail olunması əkin sahələrinin genişləndirilməsi və bitkilərə düzgün aqrotexniki qulluğun göstərilməsindən çox asılıdır. Bu məqsədlə ilin əvvəlindən başlayaraq sahələrdə kifayət qədər dənli və dənli paxlalı bitkilər, şəkər çuğunduru, kartof, tərəvəz və bostan bitkiləri əkilib.**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-fevral aylarında ölkə üzrə cari ilin məhsulu üçün 64 min 108,8 hektar sahədə yazlıq səpin aparılıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9 min 445,4 hektar və ya 17,3 faiz çoxdur.

Cari ilin ilk iki ayında ölkə üzrə 11 min 672,7 hektar sahədə dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) əkilib. Bu isə ötən ilin müvafiq dövrünün səviyyəsini 3 min 99,4 hektar və ya 36,2 faiz üstələyib. Hesabat dövründə 163,6 hektar sahədə buğda, 4 min 135,6 hektar sahədə isə vələmir əkilib. Bununla belə, qış ayları qarğıdalı və günəbaxan səpini üçün münasib olmadığından bu sahədə əkin aparılmayıb. Yanvar-fevral aylarında cari ilin məhsulu üçün 206 hektar şəkər çuğunduru, 11 min 772 hektar kartof və 13 min 361 hektar bostan bitkiləri əkilib.



Ötən ilin ilk iki ayı ilə müqayisədə şəkər çuğunduru və kartof əkinində azalma qeydə alınsa da, tərəvəz və bostan bitkilərinin əkini müvafiq olaraq 22,6 faiz və 27,3 faiz artıb. Belə ki, hesabat dövründə ölkə üzrə 13 min 561 hektar sahədə tərəvəz və 55 hektar sahədə bostan bitkiləri əkilib ki, bu da 2023-cü ilin ilk iki ayı ilə müqayisədə müvafiq olaraq 2 min 561 hektar və 12 hektar çoxdur. Bununla yanaşı, cari ilin yanvar-fevral aylarında 3 min 201 hektar sahədə birillik otlar, keçən ilin payızlıq əkini də daxil olmaqla 23 min 639 hektara yaxın sahədə isə çoxillik otlar əkilib. Xatırladaq ki, birillk otların əkini əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,7 dəfə çox olub. Bu da öz növbəsində heyvandarlığın yem bazası üçün mühüm təminat deməkdir.

Yazlıq bitkilərin bölgələr üzrə əkininə gəldikdə isə, bu sahədə ən böyük artım Qarabağ iqtisadi rayonunda qeydə alınıb. Belə ki, yanvar-fevral aylarında adıçəkilən iqtisadi rayon üzrə 13 min 134,6 hektar sahədə əkin aparılıb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5 min 61,8 hektar və ya 62,7 faiz artım deməkdir. Hesabat dövründə Lənkəran-Astara, Şirvan-Salyan və Mərkəzi Aran iqtisadi rayonlarında da yazlıq bitkilərin əkinində artım baş verib.

Yanvar-fevral aylarında dənli və dənli paxlalı bitkilərin əkini üzrə ən yüksək artım Qazax-Tovuz iqtisadi rayonunda müşahidə olunub. Belə ki, hesabat dövründə sözügedən iqtisadi rayon üzrə 130 hektar sahədə əkin aparılıb ki, bu da əvvəlki ilin eyni dövründəkindən 21,7 dəfə çoxdur. Bununla yanaşı, ilin ilk iki ayı ərzində Şirvan-Salyan, Şəki-Zaqatala, Lənkəran-Astara və Dağlıq Şirvan iqtisadi rayonlarında, habelə Naxçıvan Muxtar Respublikasında da dənli və dənli paxlalı bitkilərin əkinində artım baş verib.

2024-cü ilin yanvar-fevral aylarında ölkə üzrə 206 hektar sahədə şəkər çuğunduru əkilib. Bu, ötən ilin müvafiq dövrünə nisbətən az olsa da, Şirvan-Salyan iqtisadi rayonunda sözügedən bitkinin əkinində müsbət nəticə (206 hektar) əldə olunub.

Həmçinin cari ilin ilk iki ayında ölkə üzrə kartof əkinində azalma qeydə alınsa da, Mil-Muğan, Şərqi Zəngəzur və Dağlıq Şirvan iqtisadi rayonlarında kartof sahələri xeyli genişləndirilib. Bu sahədə ən yüksək artım isə Naxçıvan Muxtar Respublikasında qeydə alınıb. Belə ki, hesabat dövründə muxtar respublikanın fermerləri tərəfindən 78,5 hektar sahədə kartof əkilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 53,5 hektar və ya 2,7 dəfə çoxdur.

Qeyd etdiyimiz kimi, hesabat dövründə ölkədə tərəvəz əkinlərinin sahəsi ötən ilin eyni dövrünə nisbətən xeyli artıb. Bu sahədə ən yüksək artım Qarabağ iqtisadi rayonunda müşahidə edilib. Yanvar-fevral aylarında adı çəkilən iqtisadi rayon üzrə 4 min 514,8 hektar sahədə tərəvəz əkilib. Bu isə ötən ilin eyni dövründəkindən 2,1 dəfə artıqdır. Bununla yanaşı, Şirvan-Salyan, Gəncə-Daşkəsən və Mərkəzi Aran iqtisadi rayonlarının fermerləri də tərəvəz sahələrini xeyli genişləndirməyə nail olublar.

Göründüyü kimi, ölkə əhalisinin yarısından çoxunun yaşadığı regionlarda sosial-iqtisadi inkişafa dair dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərin iqtisadi səmərəsi getdikcə artır. Ötən 20 ildən artıq müddətdə reallaşdırılan dövlət proqramları aqrar sektorda böyük canlanmaya səbəb olub. Bütövlükdə isə, son illər ölkə üzrə kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısının nəticəsi olaraq bölgələrdə aqrar sahə ilə məşğul olan fermerlərə hərtərəfli yardımlar edilir. Fermerlərin torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi, onlara subsidiyaların ayrılması, pambıqçılıq, tütünçülük, baramaçılıq kimi əmək tutumu və gəlir imkanları böyük olan sahələrin inkişafının təşviq edilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə texnika və gübrə satışı bu qəbildən olan tədbirlərdəndir. Bununla yanaşı, mühüm növ kənd təsərrüfatı məhsullarının istehsalı üçün verilən subsidiyalar, bir sıra vergi güzəştləri, fermerlərin texnikaya, maşın və mexanizmlərə əlçatanlığının təmin edilməsi, eləcə də ölkədə aqrar sığorta mexanizminin işə düşməsi də əkin sahələrinin genişləndirilməsi üçün yaxşı imkanlar yaradır. Dövlətin aqrar sahəyə göstərdiyi diqqət və qayğı onu deməyə əsas verir ki, bu sahədə artım ildən-ilə daha da yüksələcək.

Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış ənənəvi təsərrüfatçılıqdan bazaryönümlü əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin gücləndirilməsi hesabına rəqabətqabiliyyətli aqrobiznesi formalaşdırmağı nəzərdə tutur.

Yeri gəlmişkən, bu yaxınlarda ölkədə bəzi mövsümi kənd təsərrüfatı məhsullarının yığımına başlanılacaq. Əkin sahələrinin genişləndirilməsi və lazımi aqrotexniki tədbirlərin aparılması isə onu deməyə əsas verir ki, dükan-bazarlarda kartof və tərəvəz məhsulları bol olacaq. Növbəti aylarda isə digər kənd təsərrüfatı məhsullarının, o cümlədən dənli və dənli paxlalıların da yığımına başlanılacaq. Son zamanlar havaların nisbətən yağmurlu və mülayim keçməsi sahələrdə bol məhsulun yetişməsi üçün zəmin yardaır. Bu isə həm fermerlər, həm də alıcılar üçün müsbət haldır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# 3 ayda 4 milyard manat vergi daxilolmaları

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirildiyinə görə, 2024-cü ilin yanvar-mart ayları ərzində qurumun xəttilə dövlət büdcəsinə 4 milyard 281 milyon 505 min manat vergi daxil olub.**



Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları ötən ilin eyni dövrü ilə müqayisədə 11,3 faiz artaraq 2 milyard 914 milyon manata çatıb.

Ödənilən vergilərin 68 faizi qeyri-neft-qaz sektorunun, 32 faizi isə neft-qaz sektorunun payına düşüb.

# İstehlakçılar 560 milyon manatlıq ƏDV qazanıblar

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən aldığımız məlumata əsasən, cari ilin yanvar-mat aylarında respublikada fiziki şəxs olan istehlakçıların pərakəndə ticarət, ictimai iaşə və tibb fəaliyyəti göstərən şəxslərdən aldığı mallara və göstərilən xidmətlərə görə ödədiyi ƏDV-nin 43,8 milyon manatı geri qaytarılıb.**



Məlumata görə, indiyədək alınan mallara görə ödənilən ƏDV-nin bir hissəsinin qaytarılması üçün "edvgerial.az" portalında 2,7 milyondan çox istifadəçi qeydə alınıb. Layihənin tətbiq edildiyi vaxtdan 2024-cü il aprelin 1-dək portalda qeydiyyatdan keçmiş istehlakçılara, ümumilikdə, 1,5 milyarddan çox kassa çeki üzrə 560 milyon manat ƏDV məbləği geri qaytarılıb.

"ƏDV geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, ictimai iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.

***XQ***

# Böyükşordan Pirşağıya yeni yol salınır



**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildirilib ki, qurum Böyükşor–Pirşağı avtomobil yolunun tikintisinə başlayıb.**

Məlumata görə, Bakıda nəqliyyat sıxlığının azaldılması və nəqliyyat axınının tənzimlənməsində böyük rol oynayacaq yeni Böyükşor–Pirşağı avtomobil yolunun uzunluğu 12,7 kilometrdir. Yeni avtomobil yolu 6 hərəkət zolağından ibarət olacaq.

Hazırda layihə üzrə torpaq işləri, ərazinin təmizlənməsi, bitki qatının çıxarılması, qazma və dolğu işləri aparılmaqla yeni torpaq yatağının inşası işləri həyata keçirilir.

Yol başlanğıcını Böyükşor gölündən götürməklə Məmmədli və Kürdəxanı qəsəbələrindən keçib, Pirşağı qəsəbəsinə qədər uzanacaq.

***XQ***

# AÇG-dən Dövlət Neft Fonduna 1,5 milyard dollar daxil olub

**Bu ilin yanvar-mart aylarında Azərbaycan Dövlət Neft Fondu (ARDNF) Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan 1 milyard 448 milyon ABŞ dolları məbləğində gəlir əldə edib.**



Qeyd edək ki, AÇG Azərbaycanın ən böyük neft yatağı blokudur. Yataqlar blokunun işlənməsi üzrə hasilat bölgüsünə dair ilk müqavilə 1994-cü ilin 20 sentyabr tarixində imzalanıb. 2017-ci il sentyabrn 14-də isə həmin yataqların birgə istismarına və hasilatın pay bölgüsünə dair yeni saziş imzalanıb. Bu sazişlə yataqların 2049-cu ilin sonunadək işlənməsi nəzərdə tutulub.

AÇG-də BP (30,37 faiz), SOCAR (25 faiz), "MOL Group" (9,57 faiz) INPEX (9,31 faiz), "Equinor" (7,27 faiz), "ExxonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), ITOCHU (3,65 faiz), "ONGC Videsh Limited" (OVL) (2,31 faiz) pay sahibidir.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 199

Bakı şəhəri, 4 aprel 2024-cü il

***"Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədləri üçün ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədləri üçün ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarında (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 19 fevral tarixli 70 nömrəli və 1995-ci il 3 iyul tarixli 158 nömrəli qərarları; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adı aşağıdakı redaksiyada verilsin:

"Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat"ın təsdiq edilməsi barədə".

**2.** 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. "Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat" təsdiq edilsin (əlavə olunur).".

**3.** Aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın tələbləri nəzərə alınmaqla, xəstəlik vərəqələrinin elektron sənəd formasında "Vahid Səhiyyə İnformasiya Sistemi" vasitəsilə Elektron Hökumət İnformasiya Sisteminə ötürülməsi üçün Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə zəruri tədbirlər görsün.".

**4.** Həmin Qərara 2 nömrəli əlavə - "Sosial sığorta haqları ödəyən vətəndaşlara xəstəlik vərəqələrinin verilməsi qaydası haqqında təlimat" üzrə:

4.1. yuxarı sağ küncündən "2 nömrəli" sözləri çıxarılsın;

4.2. adı aşağıdakı redaksiyada verilsin:

"Sığortaolunanlar üçün xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməsi qaydası haqqında təlimat";

4.3. I bölmənin adında "Əsas qaydalar" sözləri "Ümumi müddəalar" sözləri ilə əvəz edilsin;

4.4. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1. Sığortaolunanların əmək qabiliyyətinin müvəqqəti itirilməsi xəstəlik vərəqəsi ilə təsdiq olunur.

Sığortaolunanlara əmək qabiliyyətinin müvəqqəti itirilməsi haqqında arayışın verilməsi bu təlimatda göstərilmiş xüsusi hallardan başqa, digər hallarda qadağan olunur.";

4.5. 2-ci hissə üzrə:

4.5.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Sığortaolunanlar üçün xəstəlik vərəqələri, onları tərtib etmək hüququna malik olan tibb müəssisələrinin həkimləri (bundan sonra - tibb müəssisələrinin həkimləri) tərəfindən elektron sənəd formasında tərtib edilir.";

4.5.2. aşağıdakı məzmunda ikinci abzas əlavə edilsin:

"Xəstəlik vərəqələri sığortaolunanlar və sığortaedənlər tərə-findən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin (bundan sonra - Nazirlik) "Vahid Səhiyyə İnformasiya Sistemi" (bundan sonra - VSİS) vasitəsilə elektron sənəd formasında, o cümlədən sığortaolunan tərəfindən tibb müəssisəsinə müraciət edildikdə VSİS-dən kağız daşıyıcıda çap olunmuş formada əldə edilir.";

4.6. 3-cü hissə ləğv edilsin;

4.7. II bölmənin adı aşağıdakı redaksiyada verilsin:

"II. Xəstəliyə və ya xəsarətə görə xəstəlik vərəqələrinin tərtib edilməsi";

4.8. 4-cü hissə üzrə:

4.8.1. birinci cümlədə ", məişət zədəsi və ya şikəstlik nəticəsində əmək qabiliyyətini" sözləri "və ya xəsarət nəticəsində sığortaolunan əmək qabiliyyətini müvəqqəti" sözləri ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin, həmin cümlədən "onları vermək hüququna malik olan" sözləri çıxarılsın;

4.8.2. ikinci cümlə çıxarılsın;

4.9. 5-ci hissə üzrə:

4.9.1. birinci abzas üzrə:

4.9.1.1. birinci cümlədə "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.9.1.2. ikinci cümlədə "vərəqəsi verib" sözləri "vərəqəsini elektron sənəd formasında tərtib edərək" sözləri ilə əvəz edilsin;

4.9.2. ikinci abzasda "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.10. 6-cı hissə üzrə:

4.10.1. birinci abzasda ", məişət zədəsi və şikəstlik üzrə məzuniyyətlə" sözləri "və ya xəsarət üzrə xəstəlik vərəqələri sığortaolunanın" sözləri ilə və "əlillik müəyyən edilən bütün müddət ərzində verilir" sözləri "ona əlillik müəyyən edilənədək bütün müddət üzrə tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.10.2. ikinci abzasda "verilir" sözü "tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.10.3. üçüncü abzasın birinci cümləsinə "həkim-məsləhət komissiyaları" sözlərindən sonra "(bundan sonra – HMK)" sözləri əlavə edilsin, ikinci cümləsində "Həkim-məsləhət komissiyaları" sözləri "HMK" akronimi ilə əvəz edilsin və həmin cümləyə "əmək qabiliyyətinin" sözlərindən sonra "müvəqqəti" sözü əlavə edilsin;

4.11. 7-ci hissədə "şikəstlik" sözü "xəsarət" sözü ilə və "vermək" sözü "tərtib etmək" sözləri ilə əvəz edilsin;

4.12. 8-ci hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"Əmək qabiliyyətinin müvəqqəti itirilməsi başlandıqdan sonra xəstəlik vərəqəsinin 6 gündən çox artırılması üçün müalicə həkimi tərəfindən xəstəlik vərəqəsinin davamı olan xəstəlik vərəqəsi tərtib edilir. Həmin xəstəlik vərəqəsi bu təlimatın 11-ci hissəsi nəzərə alınmaqla yalnız HMK-nin sədrinin, tibb müəssisəsində HMK olmadıqda isə baş həkimin və ya bu hissənin Qeydində göstərilən hallarda şöbə müdirinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilir.";

4.13. 9-cu hissənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Vərəm xəstəliyi və ya peşə xəstəliyi nəticəsində əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunan üçün HMK tərəfindən tərtib edilmiş və HMK sədrinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilmiş 2 aydan artıq olmayan müddətə xəstəlik vərəqəsi verilə bilər. Tibb müəssisəsində HMK olmadıqda, həmin xəstəliklər üzrə sığortaolunanlar üçün 2 aydan artıq olmayan müddətə xəstəlik vərəqəsi müalicə həkimi tərəfindən tərtib edilir və baş həkimin gücləndirilmiş elektron imzası ilə təsdiq edilir. Xəstənin vəziyyətinin iş yerində onun əmək funksiyalarının yerinə yetirilməsinə imkan vermədiyi və müalicənin gedişinə maneçilik törədilmədiyi halda həmin xəstəlik vərəqəsinə sığortaolunanın müvəqqəti olaraq başqa işə keçirilməsinin mümkünlüyünə dair qeyd əlavə olunur. İşçini bu abzasda göstərilməyən digər xəstəliklərlə əlaqədar olaraq başqa işə keçirmək lazım gəldikdə xəstəlik vərəqəsi deyil HMK-nin rəyi verilir.";

4.14. 10-cu hissədə "Sığorta haqları ödəyən, əmək qabiliyyətli şəxslər" sözləri "Sığortaolunanlar" sözləri ilə əvəz edilsin;

4.15. 11-ci hissə üzrə:

4.15.1. birinci abzas üzrə:

4.15.1.1. birinci cümləyə "Əmək qabiliyyətini" sözlərindən sonra "müvəqqəti" sözü əlavə edilsin, həmin cümlədə "sığorta haqları ödəyən şəxs" sözləri "sığortaolunan" sözü ilə, "zədələnmələri" sözü "qəzası" sözü ilə və "verir" sözü "tərtib edir" sözləri ilə əvəz edilsin;

4.15.1.2. ikinci cümlədə "həkimləri, eləcə də həkim-məsləhət komissiyası tərəfindən" sözləri "həkimlərinin, o cümlədən HMK-nin rəyi ilə" sözləri ilə əvəz edilsin;

4.15.1.3. üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Tibb məntəqəsində həkim olmadıqda, yalnız tibb bacısı və ya feldşer olduqda onlar xəstəlik vərəqəsi tərtib etmir, ilkin tibbi yardım göstərərək əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanı dərhal qəbul olunmaq üçün poliklinikaya və ya ambulatoriyaya göndərirlər.";

4.15.2. ikinci abzasda "sığorta haqları ödəyən şəxsə" sözləri "sığortaolunan üçün" sözləri ilə və "verilmir" sözü "tərtib edilmir" sözləri ilə əvəz edilsin;

4.16. 12-ci hissə üzrə:

4.16.1. birinci abzas üzrə:

4.16.1.1. birinci cümlədə "əmək qabiliyyətini itirmiş" sözləri "müraciət etmiş" sözləri ilə, "ilk" sözü "ilkin" sözü ilə və "ertəsi günü" sözləri "növbəti gün" sözləri ilə əvəz edilsin;

4.16.1.2. üçüncü cümlədə "şikəstliyin" sözü "xəsarətin" sözü ilə əvəz edilsin;

4.16.2. ikinci abzas üzrə:

4.16.2.1. birinci cümlədə "sığorta edilmiş şəxsin" sözləri "sığortaolunanın" sözü ilə, "verir" sözü "tərtib edir" sözləri ilə əvəz edilsin və həmin cümləyə "əmək qabiliyyətini" sözlərindən sonra "müvəqqəti" sözü əlavə edilsin;

4.16.2.2. ikinci cümlədə "etiraf" sözü "hesab" sözü ilə və "verir" sözü "tərtib edir" sözləri ilə əvəz edilsin;

4.17. 13-cü hissə üzrə:

4.17.1. birinci abzasda "vaxt" sözü "günlər" sözü ilə və ", şöbə müdiri ilə birlikdə xəstəlik vərəqəsi verir" sözləri "və şöbə müdiri tərəfindən xəstəlik vərəqəsi tərtib edilərək şöbə müdirinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilir" sözləri ilə əvəz edilsin;

4.17.2. ikinci abzasda "yazılmaq" sözü "buraxılmaq" sözü ilə, "onun qovluğunu tibbi-sosial ekspert komissiyasına göndərmək məsuliyyəti" sözləri "əlilliyin qiymətləndirilməsi üçün tibbi-sosial ekspert komissiyasına göndəriş verilməsi məsələsinə baxılması üçün HMK-yə təqdim edilməsi vəzifəsi" sözləri ilə əvəz edilsin;

4.17.3. üçüncü abzas çıxarılsın;

4.18. 14-cü hissədə "yazılarkən sığorta haqqı ödəyən əmək qabiliyyətini itirən şəxsin" sözləri "buraxılarkən əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanın" sözləri ilə və "tərəfindən şöbə müdiri ilə birlikdə," sözləri "və şöbə müdiri tərəfindən" sözləri ilə əvəz edilsin;

4.19. 15-ci hissə üzrə:

4.19.1. birinci cümlədə "vərəqəsi vermək" sözləri "vərəqəsini tərtib etmək" sözləri ilə əvəz edilsin;

4.19.2. ikinci cümlədə "həkim-məsləhət komissiyasına" sözləri "HMK-yə" sözləri ilə əvəz edilsin;

4.19.3. üçüncü cümləyə "xəstəxanaya" sözündən əvvəl "onlar" sözü əlavə edilsin və "axıra" sözü "xəstəliyin sonuncu gününə" sözləri ilə əvəz edilsin;

4.20. 16-cı hissənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Ölkə daxilində başqa şəhərdə (yerlərdə) müalicə olunmaq üçün xəstəlik vərəqəsi HMK-nin sədri və üzvləri tərəfindən (HMK olmadıqda isə müalicə həkimi və baş həkim tərəfindən) elektron sənəd formasında tərtib edilib, həmin xəstəlik vərəqəsi ərazi üzrə dövlət tibb müəssisəsinin rəhbərinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilməlidir.";

4.21. 17-ci hissə üzrə:

4.21.1. birinci abzasın birinci cümləsində "Sığorta haqqı ödəyən uzun müddət və tez-tez xəstələnən şəxslərə" sözləri "Uzun müddət və tez-tez xəstələnən sığortaolunana" sözləri ilə, həmin abzasın ikinci cümləsində "Sığorta edilmiş şəxsə" sözləri "Sığrtaolunana" sözü ilə və "verilmiş" sözü "dair tərtib edilmiş" sözləri ilə əvəz edilsin;

4.21.2. ikinci abzasda "Sığorta haqqı ödəyən şəxsin" sözləri "Sığortaolunanın" sözü ilə əvəz edilsin;

4.21.3. üçüncü abzasda "birlikdə verilir" sözləri "tərtib edilir və ona təhkim olunmuş həkimin gücləndirilmiş elektron imzası ilə təsdiq edilir" sözləri ilə əvəz edilsin;

4.22. III bölmənin adı aşağıdakı redaksiyada verilsin:

"III. Hamiləliyə və doğuşa görə xəstəlik vərəqələrinin tərtib edilməsi";

4.23. 18-ci hissə üzrə:

4.23.1. birinci abzas üzrə:

4.23.1.1. birinci cümlədə "doğum zamanı" sözləri "doğuşa görə" sözləri ilə, "qadınlara" sözü "qadınlar üçün" sözləri ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.1.2. ikinci cümlədə "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.2. ikinci abzas üzrə:

4.23.2.1. birinci cümlədə "doğuma" sözü "doğuşa" sözü ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.2.2. ikinci cümlədə "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.3. üçüncü abzasda "Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.4. dördüncü abzas üzrə:

4.23.4.1. birinci cümlədən "tərəfindən" sözü çıxarılsın, "doğum" sözü "tərəfindən doğuş" sözləri ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.4.2. ikinci cümləyə "xəstəlik vərəqəsi" sözlərindən sonra "müalicə həkimi tərəfindən elektron sənəd formasında tərtib edilməklə" sözləri əlavə edilsin və həmin cümlədə "təsdiqi ilə müalicə həkimi tərəfindən verilir" sözləri "gücləndirilmiş elektron imzası ilə təsdiq edilir" sözləri ilə əvəz edilsin;

4.23.4.3. üçüncü cümlədə ismin müvafiq hallarında "doğum" sözü ismin müvafiq hallarında "doğuş" sözü ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.4.4. dördüncü cümlədə "uşağa qulluq üçün haqqı ödənilən məzuniyyət" sözləri "qismən ödənişli sosial məzuniyyət" sözləri ilə, "hamiləlik və doğum üzrə" sözləri "hamiləliyə və doğuşa görə" sözləri ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.23.5. beşinci abzasda "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.24. 19-cu hissədə "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.25. IV bölmənin adında "verilən məzuniyyətlər" sözləri "xəstəlik vərəqələrinin tərtib edilməsi" sözləri ilə əvəz edilsin;

4.26. 20-ci hissə üzrə:

4.26.1. birinci abzasda "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.26.2. ikinci abzasda "verir" sözü "elektron sənəd formasında tərtib edir" sözləri ilə əvəz edilsin;

4.27. 21-ci hissə üzrə:

4.27.1. birinci abzasda "verilir" sözü "tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.27.2. ikinci abzasın birinci cümləsində "verilən" sözü "tərtib edilən" sözləri ilə və həmin abzasın ikinci cümləsində "tərəfindən baş həkimlə birlikdə," sözləri "və baş həkim tərəfindən" sözləri ilə əvəz edilsin;

4.28. 22-ci hissə üzrə:

4.28.1. birinci abzas üzrə:

4.28.1.1. birinci cümlədə "anasına (atasına) və uşağa qulluq edən digər şəxsə verilir" sözləri "anası (atası), digər qanuni nümayəndələri və ya uşağa qulluq edən digər ailə üzvləri üçün tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.28.1.2. ikinci cümlədə "verilir" sözü "tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.28.2. ikinci abzasda "qaydada verilir;" sözləri "müddət üçün tərtib edilir:" sözləri ilə əvəz edilsin;

4.29. 23-cü hissədə "verilmir" sözü "tərtib edilmir" sözləri ilə və həmin hissənin b) bəndində "göstərişinə" sözü "göstərişə" sözü ilə əvəz edilsin;

4.30. V bölmənin adında "məzuniyyətlər" sözü "xəstəlik vərəqələrinin tərtib edilməsi" sözləri ilə əvəz edilsin;

4.31. 24-cü hissə üzrə:

4.31.1. birinci abzasın birinci cümləsində "məzuniyyət, sığorta edilmiş şəxsin növbəti və əlavə" sözləri "xəstəlik vərəqələri sığortaolunanın əsas və əlavə" sözləri ilə, "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə, həmin abzasın ikinci cümləsində "Növbəti və əlavə məzuniyyət," sözləri "Əsas və əlavə məzuniyyət günləri" sözləri ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.31.2. ikinci abzasda "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.31.3. üçüncü abzasda "məzuniyyət" sözü "əmək məzuniyyəti" sözləri ilə, "verilərkən, lazım olan məzuniyyətlərin" sözləri "elektron sənəd formasında tərtib edilərkən əmək məzuniyyətinin" sözləri ilə əvəz edilsin;

4.31.4. dördüncü abzasın birinci cümləsində birinci və üçüncü hallarda ismin müvafiq hallarında "məzuniyyət" sözü ismin müvafiq hallarında "əmək məzuniyyəti" sözləri ilə, həmin cümlədə "növbəti" sözü "əsas" sözü ilə, ikinci cümləsində "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.32. 25-ci hissə üzrə:

4.32.1. birinci abzasda "müstəsna edilməklə" sözləri "istisna olmaqla" sözləri ilə, "həkim-məsləhət komissiyası" sözləri "HMK" akronimi ilə, "belə komissiya" sözləri "HMK" akronimi ilə, "tərəfindən baş həkimlə birlikdə," sözləri "və baş həkim tərəfindən" sözləri ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.32.2. ikinci abzasda "vərəqəsi almaq" sözləri "vərəqəsinin tərtib olunması" sözləri ilə əvəz edilsin, "etdikdə" sözündən sonra "sığortaolunan tərəfindən" sözləri əlavə edilsin və həmin abzasın b) bəndində "növbəti və əlavə məzuniyyətlərin" sözləri "əsas və əlavə məzuniyyət" sözləri ilə əvəz edilsin;

4.32.3. üçüncü abzasda "verilərək," sözü "tərtib edilərək" sözləri ilə əvəz edilsin;

4.33. 26-cı hissə üzrə:

4.33.1. birinci abzasda "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.33.2. ikinci abzasda "xəstəlik vərəqələri alan şəxslər," sözləri "xəstəlik vərəqələrinin tərtib edilməsi üçün müraciət edən sığortaolunanlar" sözləri ilə, "növbəti və əlavə məzuniyyətlərin" sözləri "əsas və əlavə məzuniyyət" sözləri ilə əvəz edilsin;

4.34. 27-ci hissə üzrə:

4.34.1. birinci abzasda "əmək qabliyyətini" sözləri "əmək qabiliyyətini müvəqqəti" sözləri ilə və "yazılması" sözü "buraxılması" sözü ilə əvəz edilsin;

4.34.2. ikinci abzas üzrə:

4.34.2.1. a) bəndində "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.34.2.2. b) bəndində "həkim-məsləhət komissiyası" sözləri "HMK" akronimi ilə, "belə komissiya" sözləri "HMK" akronimi ilə və "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.35. 28-ci hissə üzrə:

4.35.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Sanatoriyada başlayan, əmək məzuniyyəti günlərinə təsadüf edən əmək qabiliyyətinin müvəqqəti itirilməsi hallarında xəstəlik vərəqəsi bu təlimatın 27-ci hissəsində qeyd olunan komissiyalar tərəfindən, sığortaolunan sanatoriyadan buraxıldığı zaman elektron sənəd formasında tərtib edilir.";

4.35.2. ikinci abzasda "İşçiyə növbəti və əlavə məzuniyyətinə" sözləri "İşçinin əmək məzuniyyəti günlərinə" sözləri ilə, "verilmiş" sözü "tərtib edilmiş" sözləri ilə, "çıxmaq şərtilə verilir" sözləri "çıxılmaqla tərtib edilir" sözləri ilə əvəz edilsin və həmin abzasa "əmək qabiliyyətinin" sözlərindən sonra "müvəqqəti" sözü əlavə edilsin;

4.35.3. üçüncü abzasda "verilmir" sözü "tərtib edilmir" sözləri ilə əvəz edilsin;

4.36. VI bölmənin adında "qeydiyyatı, saxlanılması və verilməsinə" sözləri "tərtib edilməsinə" sözləri ilə əvəz edilsin;

4.37. 29-cu hissə ləğv edilsin;

4.38. aşağıdakı məzmunda 29-1-ci hissə əlavə edilsin:

"29-1. Xəstəlik vərəqələri sığortaolunanların müraciəti əsasında tibb müəssisələri tərəfindən elektron sənəd formasında tərtib edilir.

Xəstəlik vərəqələri əmək qabiliyyətini müvəqqəti itirmiş şəxsin soyadı, adı, atasının adı, fərdi identifikasiya nömrəsi (FİN), sosial sığorta nömrəsi (SSN) (əgər vardırsa), əmək qabiliyyətinin müvəqqəti itirilmə növü (xəstəlik, istehsalatda və ya məişətdə baş vermiş bədbəxt hadisə, karantin, xəstəyə qulluq, sanatoriya-kurort müalicəsi və ya hamiləlik və doğuş), doğuşla əlaqədar olduqda doğuş tarixi, xəstəyə qulluqla əlaqədar olduqda həmin xəstənin soyadı, adı, atasının adı, FİN-i, qohumluq dərəcəsi, diaqnozu, karantinlə əlaqədar olduqda karantinə səbəb olan xəstəliyin adı, xəstəliklərin beynəlxalq təsnifatına uyğun olaraq əsas diaqnoz, yanaşı xəstəliklər, ağırlaşmalar və xəstəlik vərəqələrinin tərtib edilməsinə əsas verən digər hallar, xəstəlik vərəqəsinin başlama və bitmə tarixləri, onu verən tibb müəssisəsinin adı, hüquqi ünvanı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), xəstəlik vərəqəsinin uzadılma tarixi, davamı olması barədə qeyd, iş yeri, rejim, rejim pozuntusuna dair qeyd, sanatoriya-kurort müalicəsi ilə əlaqədar olduqda yollayışın başlandığı və bitdiyi vaxt, müvəqqəti olaraq başqa işə keçirilmə barədə qeyd, olduğu halda əlilliyin qiymətləndirilməsinin nəticələrinə dair məlumatlar əlavə edilməklə səlahiyyətli həkimlər tərəfindən elektron sənəd formasında tərtib edilir.

Xəstəlik vərəqəsi tərtib edilərək VSİS-yə daxil edildikdən və gücləndirilmiş elektron imza ilə təsdiq edildikdən sonra sığortaolunanın əks-əlaqə vasitələrindən birinə bu barədə məlumat göndərilir və ya sığortaolunanın tələbi əsasında kağız daşıyıcıda çap olunaraq ona təqdim edilir.";

4.39. 30-cu hissə üzrə:

4.39.1. birinci abzasda "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.39.2. ikinci abzasda "verilmir" sözü "tərtib edilmir" sözləri ilə əvəz edilsin;

4.39.3. üçüncü abzasda "müvəqqəti əmək qabliyyətini" sözləri "əmək qabiliyyətini müvəqqəti" sözləri ilə, "doğuma" sözü "doğuşa" sözü ilə və "verilə" sözü "tərtib edilə" sözləri ilə əvəz edilsin;

4.39.4. dördüncü abzas çıxarılsın;

4.40. 31-ci hissədə "Sığorta haqqı ödəyən şəxslərin" sözləri "Sığortaolunanların" sözü ilə və "təsdiqi ilə verilir" sözləri "gücləndirilmiş elektron imzası ilə təsdiqlənərək tərtib edilir" sözləri ilə əvəz edilsin, həmin hissədən "olaraq" sözü çıxarılsın;

4.41. 32-ci hissədə "ilk xəstəlik vərəqəsi alan xəstələrin" sözləri "xəstələr üçün tərtib edilmiş" sözləri ilə əvəz edilsin;

4.42. 33-cü hissəyə "əmək qabiliyyətinin" sözlərindən sonra "müvəqqəti" sözü əlavə edilsin və həmin hissədə "verilir" sözü "elektron sənəd formasında tərtib edilir" sözləri ilə əvəz edilsin;

4.43. 34-cü hissə üzrə:

4.43.1. birinci cümləyə "Əmək qabiliyyətinin" sözlərindən sonra "müvəqqəti" sözü əlavə edilsin, "vaxtdan" sözü "vaxt" sözü ilə, "sığorta edilmiş şəxsə" sözləri "sığortaolunana" sözü ilə və "verir" sözü "elektron sənəd formasında tərtib edir" sözləri ilə əvəz edilsin;

4.43.2. ikinci cümlədə "Birinci xəstəlik" sözləri "Xəstəlik" sözü ilə və "verməsi" sözü "tərtib etməsi" sözləri ilə əvəz edilsin;

4.44. 35-ci hissədə "Sığorta haqqı ödəyənlərə" sözləri "Sığortaolunanlara" sözü ilə əvəz edilsin və həmin hissəyə "tərə-findən" sözündən sonra "bu təlimatla müəyyən edilmiş qaydada elektron sənəd formasında tərtib edilən" sözləri əlavə edilsin;

4.45. aşağıdakı məzmunda 35-1-ci və 35-2-ci hissələr əlavə edilsin:

"35-1. Nazirlik əmək qabiliyyətinin müvəqqəti itirilməsi ilə bağlı xəstəlik vərəqələrinin elektron sənəd formasında tərtib edilməklə VSİS-yə daxil edilməsini və gücləndirilmiş elektron imza ilə təsdiq olunmasını təmin edir.

35-2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən müvafiq xəstəlik vərəqəsinə əsasən əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləliyə və doğuşa görə müavinətin ödənilməsindən sonra həmin xəstəlik vərəqəsinə düzəliş edilməsi yolverilməzdir. Sığortaolunanın tibb müəssisəsinə müraciət etdiyi gündən əvvəlki tarixə xəstəlik vərəqəsinin tərtib edilməsi qadağandır.";

4.46. VII bölmənin adından "qeyri-müəyyən formalı" sözləri çıxarılsın və həmin bölmə üzrə:

4.46.1. 36-cı hissə üzrə:

4.46.1.1. birinci abzasdan "qeyri-müəyyən formalı" sözləri çıxarılsın;

4.46.1.2. üçüncü abzasda "zəhmətkeşlər" sözü "işçilər" sözü ilə əvəz edilsin;

4.46.1.3. beşinci abzasda "tibbi-məhkəmə" sözləri "məhkəmə-tibbi" sözləri ilə əvəz edilsin;

4.46.1.4. altıncı abzasda "xalq məhkəməsinin" sözləri "məhkəmənin" sözü ilə əvəz edilsin;

4.46.1.5. səkkizinci abzasda "verildiyi" sözü "tərtib edildiyi" sözləri ilə əvəz edilsin;

4.46.1.6. doqquzuncu abzasdan "verilmə" sözü və "qeyri-müəyyən formada" sözləri çıxarılsın;

4.46.1.7. onuncu abzasda "verilməsini" sözü "tərtib edilməsini" sözləri ilə əvəz edilsin;

4.47. 37-ci hissə üzrə:

4.47.1. birinci abzas çıxarılsın;

4.47.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"Əmək qabiliyyətinin ekspertizası üzrə işin təşkilinə, xəstəlik vərəqələrinin tərtib olunmasına və arayışların qeydiyyatının aparılmasına, onların verilməsinə və kağız daşıyıcıda saxlanılmasına nəzarət baş həkim tərəfindən həyata keçirilir.";

4.48. 38-ci hissə üzrə:

4.48.1. birinci abzasda "Sığorta haqqı ödəyən şəxslərə" sözləri "Sığortaolunanlara" sözü ilə, "həkim-məsləhət komissiyası" sözləri "HMK" akronimi ilə və "bu cür komissiya" sözləri "HMK" akronimi ilə əvəz edilsin;

4.48.2. ikinci abzasdan "sığorta haqqı ödəyən" sözləri çıxarılsın və həmin abzasda "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi" sözləri "Nazirlik" sözü ilə əvəz edilsin.

**5.** Bu Qərar 2024-cü il mayın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

7 Aprel Ümumdünya Sağlamlıq Günüdür

**Hər il dünyada olduğu kimi, ölkəmizdə də Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yarandığı 1948-ci il aprelin 7-i Ümumdünya Sağlamlıq Günü kimi qeyd edilir. O vaxtdan bəri dünyanın 194 ölkəsi, o cümlədən Azərbaycan təşkilata üzv qəbul olunub.**

# Hər kəs 100 il yaşamasa...



1950-ci ildən başlayaraq hər il Ümumdünya Sağlamlıq Günü ənənəvi olaraq 7 apreldə qeyd edilir. Həmin gün diqqəti əsas ictimai səhiyyə məsələlərinə yönəltmək üçün qlobal bir imkandır. ÜST-nin Avropa bürosu hər il bununla bağlı xüsusi tədbirlər keçirir, eləcə də siyasətçilər və digər tərəfdaşlar arasında müzakirələrin aparılmasına şərait yaradır. 2021-ci ildə Ümumdünya Sağlamlıq Günü yeni növ koronavirus (COVID-19) pandemiyasının yayılması ilə mübarizə mövzusuna həsr edilib və "Daha ədalətli və daha sağlam dünya quraq!" şüarı ilə keçirilib. Növbəti il isə "Bizim planetimiz bizim sağlamlığımızdır" şüarı qəbul olunub.

ÜST-nin hesablamalarına əsasən, qarşısı alınmayan ekoloji səbəblərin yaratdığı xəstəliklərdən hər il dünyada 13 milyon nəfər həyatını itirir. Səhiyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, xəstəliklərin düzgün müalicəsinin aparılması 2030-cu ilə qədər qarşıda duran əsas məsələlərdən biridir. Uzun və sağlam ömür yaşamağa nail olmaq və sağlamlığın möhkəmləndirilməsi ictimai səhiyyənin qarşısında duran başlıca vəzifələrdən sayılır.





**"Sağlamlığın Qorunması" İctimai Birliyinin sədri, tibb üzrə fəlsəfə doktoru Yazgül Abdıyeva XQ-yə açıqlamasında insanların sağlam həyat sürməsi üçün lazım olan məqamları diqqətə çatdırıb:**



– İnsanın sağlamlığı öz əlindədir. Ona görə də yaşayış tərzinə, qidalanmaya, ətraf mühitə qarşı münasibətə, eləcə də əsəb sisteminin tənzimlənməsinə xüsusi diqqət yetirmək lazımdır. Hətta müəyyən yaş həddinə çatandan sonra buna xüsusi fikir verilməlidir. Təəssüf ki, bunu çox vaxt edə bilmirik.

Sağlamlığı qorumaq üçün il ərzində iki dəfə müəyyən müayinələrdən keçmək şərtdir. Əsas da ürək-qan damar sistemi, tənəffüs və həzm sistemi ilə bağlı müayinələrə üstünlük verilməlidir. Fəsillərin dəyişməsi zamanı bunu mütləq yoxlamaq lazımdır. Çünki bu zaman xroniki xəstəliklər daha da kəskinləşir.

**Həkimin sözlərinə görə, sağlam həyat tərzində hərəkətliliyin yüksək səviyyədə olmasına da diqqət yetirmək lazımdır:**

– Son illər texniki tərəqqi ilə əlaqədar insanlar oturaq həyat tərzi keçirirlər. Gün ərzində 14–15 saat sükan arxasında oturmaq, 8 saat kompüter qarşısında oturmaq arzuolunan deyil. Bu, hipodinamiyaya gətirib çıxarır. Məhz bütün xəstəliklərin başlanğıcı bununla bağlıdır. Belə olanda damarlarda qanın hərəkəti müəyyən qədər zəifləyir. Bu da müxtəlif xəstəliklərin yaranmasına təkan verir. Piyada gəzmək – insan orqanizminin gücü və əzələ sümük sisteminin gəzintiyə davamlılığından asılıdır. Gün ərzində maksimum 3–4 saat piyada gəzmək məsləhət görülür.

Şam yeməyindən sonra da 1–2 saat gəzməyin daha güclü təsiri var. Bu, həm də insanın gecə rahat yuxu almasına şərait yaradır. Hər bir yaşda da bunun saatı və müəyyən məsafəsi var. Bəzi mütəxəssislər gün ərzində ən azı 2 kilometr yol qət etməyi tövsiyə edirlər. Düşünürəm ki, 60–70 yaşlarında olan insan üçün bu məsafə çoxdur.

Biz çalışmalıyıq ki, hökumətlər insan sağlamlığı və rifahını iqlim dəyişikliyi siyasətinin əsas mövzusuna çevirsinlər və Minilliyin İnkişaf Məqsədlərinə nail olmaqla sağlamlığın qorunması istiqamətində etdikləri cəhdləri yeniləsinlər. Biz çalışmalıyıq ki, səhiyyə nazirlikləri iqlim dəyişiklikləri ilə bağlı problemləri həll etmək və öz ölkələrinin əhalisinin sağlamlığını qorumaq məqsədilə ictimai səhiyyə siyasətini və təcrübəsini gücləndirsinlər. Ən əsası isə ayrı-ayrı vətəndaşlar özləri həm sağlamlığın səviyyəsinin artmasına, həm də iqlim dəyişikliyinin azalmasına imkan verəcək seçim etməlidir.

Həkim sonda bildirdi ki, hazırda daha çox təsadüf edilən qəfil ölümlər fərdi xarakter daşıyır, amma özünə və sağlamlığına diqqət edən insanlarda bu hal müşahidə edilmir.

Mütəxəssislər qeyri-sabit və dəyişkən iqlimin sağlamlığa necə təsir göstərdiyini bilirlər. ÜST-nin sağlamlıq günü ilə bağlı yaydığı açıqlamada deyilir ki, havaların kəskin istiləşməsi, fırtınalar, daşqınlar və quraqlıqlar hər il on minlərlə insanın həyatına son qoyur. İqlim dəyişikliyinə həssas olan ishal, malyariya və zülal-enerji çatışmazlığı kimi xəstəliklər artıq 3 milyondan çox insanın ölümünə səbəb olur.

İqlim dəyişikliyi yoxsulluqdan irəli gələn xəstəliklərlə mübarizədə əldə etdiyimiz inkişafın geriləməsi və varlılar ilə kasıbların sağlamlıq göstəriciləri arasındakı fərqin dərinləşməsi təhlükəsini yaradır. Sağlamlığın əsas şərtlərindən biri və gələcəyin təməli düzgün qidalanmadır. Bu şərtə əməl edilməyəndə orqanizmdə maddələr mübadiləsi pozulur və xəstəliklərin əksəriyyəti bu səbəbdən yaranır.

**Tibb Universitetinin müəllimi, Dünya Tibbi Hüquq Assosiasiyasının üzvü Aidə Bəndəliyeva sağlamlıq üçün vacib olan qida təhlükəsizliyinə nəzarət işini təkmilləşdirmək, şəffaflığı artırmaq, müvafiq qaydalara əməl olunmasını təmin etmək məqsədilə ölkəmizdə görülən işlərdən söz açaraq dedi:**

– Sağlam nəslin düzgün formalaşması üçün onların necə qidalanması məsələsi gündəmdə olmalıdır. Düzgün qidalanma həyat keyfiyyətini – sağlamlığı, əhval-ruhiyyəni, əmək qabiliyyətini, maddələr mübadiləsini, bu və ya digər orqan və sistemlərin dolğun fəaliyyətini təmin edir, bir sıra qeyri-infeksion xəstəliklərin (QİX) və halların qarşısını almağa imkan yaradır.

Hippokrat deyirdi: "Sən nə yeyirsənsə osan". "Yeməyiniz dərmanınızdır, dərmanınız yeməkdir". Böyük alim İbn Sina isti vanna, bədəni yağla silmək, yüngül hərəkətlər, gəzinti, at minmək, qiraət, südlü (xüsusilə, keçi və at südü), bitki mənşəli qida rasionu, qırmızı şərab, bağırsaqları yumşaldan maddələr və sakit həyat tərzini ömrü uzadan vasitələr hesab edirdi. Serblər uzunömürlülüyün sirlərini yumurta sarısı, çolpa əti, toyuq bulyonu yeməkdə, abxazlar enliyarpaqlı və yabanı bitkilərin xörəkləri, az enerjili qida, otların, itburnunun dəmləmələrini qəbul etməkdə görürdülər. Leonardo da Vinçi kalsiumun rasionda çoxluğunun qocalmaya səbəb olduğunu deyirdi.

Təcrübə göstərir ki, qidalanma zamanı heç bir prinsipi gözləməmək ən çox yol verilən səhvlərdən biridir. Sağlam yaşamağın açarı, ilk növbədə, insanın nə dərəcədə düzgün qidalanmasındadır. Gün ərzində yediyimiz qidalar orqanizmin gündəlik ehtiyacı olduğu vitamin və mineralları ödəməlidir. Hər bir şeyin ölçüdən artıq qəbul edilməsi, təbii ki, xoşagəlməz halların yaranmasına səbəb ola bilər. Əhali daha çox yüksək enerji tutumlu qida məhsulları, doymuş yağlar, şəkər və ya duzdan istifadə edir, meyvə, tərəvəz və dənli bitkilərə qidada yetərincə yer vermir.

Qəbul etdiyimiz qidalar çoxçeşidli olmalıdır. Hər gün eyni qidanı yemək insanın yeməkdən aldığı həzzi və iştahını öldürür, həm də qidalanma vərdişinə qarşı mənfi təsir göstərir. Son nəticədə zərər görən yenə də orqanizm olur. İnsan fərqli təamları dadmağa vərdiş etməlidir. Müxtəlif çeşidli meyvə və tərəvəzdən, ət və ət məhsullarından, süd və süd məhsullarından fərqli şəkildə istifadə etmək insanın daha nikbin və sağlam yaşamasına kömək edir. Qarşıdan hər şeyin bol olduğu yay fəsli gəlir.

Mütəxəssislərin dediklərinə əlavə olaraq qeyd edək ki, Ümumdünya Sağlamlıq Günü sağlamlığın və səhiyyənin problemlərinə yönələn və planetin hər bir sakininin sağlamlığının qorunması və əmin-amanlığının təmin edilməsi üçün birgə fəaliyyət göstərməyə xidmət edən tədbirdir. Hər il beynəlxalq təşkilata üzv olan ölkələrdə Səhiyyə Nazirliyi və ÜST-nin dəstəyi ilə Ümumdünya Sağlamlıq Gününə həsr olunmuş silsilə tədbirlər həyata keçirilir, görülmüş işlərə yekun vurulur, ilkin səhiyyə sahəsində islahatların aparılması və müasir texnologiyaların səhiyyədə tətbiqi üzrə təkliflər hazırlanır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Sosial xəbərlər



**Sosial Xidmətlər Agentliyi Əlillərin Peşə-Əmək Reabilitasiyası Mərkəzində yaxın günlərdə əmək bazarının tələblərinə uyğun olaraq daha 3 peşə üzrə hazırlıq kursları təşkil ediləcək.**

Nəzərdə tutulan kurslar fotoqrafiya, avadanlıqların (kompüter, telefon, planşet, televizor və s.) təmiri və manikür peşələrini əhatə edəcək və 3–6 ay davam edəcək. Bununla yanaşı, mərkəzdə floristika, bədii tikmə və dizayn üzrə dərnəklər də təşkil ediləcək. Habelə, burada sosial-psixoloji ünsiyyət, rəqs, musiqi və peşə istiqamətləri üzrə terapiyaların tətbiqi də nəzərdə tutulub.

Hazırda mərkəzdə 15–29 yaşlı əlilliyi olan şəxslərin 10-dan çox istiqamət – kompüter istifadəçisi, dərzilik, toxuculuq, ağac üzərində oyma, qadın və kişi bərbəri, rəssamlıq, xalçaçılıq və s. üzrə peşə hazırlığı və peşə reabilitasiyası həyata keçirilir. Qəbul olunanlar dövlət hesabına yataqxana, yemək, tibbi-fizioterapevtik xidmət və s. ilə də təmin olunurlar.

Agentliyin Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsində isə görmə qabiliyyəti məhdud şəxslərə də reabilitasiya xidmətləri göstərilir. Burada 5–29 yaş arası əlil olanlar reabilitasiya və abilitasiya xidmətlərinə cəlb edilir.

***

**Dövlət Məşğulluq Agentliyi sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün növbəti layihəyə start verib.**

Qurum ilə Azərbaycan Karlar Cəmiyyətinin birgə əməkdaşlığı ilə həmin şəxslərin özünüməşğulluğunu təmin etmək məqsədilə "Biznesin sədası" layihəsinin icrasına başlanılıb. Layihə üzrə eşitmə qabiliyyəti məhdud işsiz şəxslər özünüməşğulluq proqramına cəlb olunaraq dərzi və qənnadçı istiqamətlərində öz işlərini qurmaları üçün avadanlıqlarla təmin ediləcək. Agentliyin təşkil etdiyi peşə hazırlığı kurslarını bitirən, həmçinin həmin sahələr üzrə bacarıqları olan şəxslər bu layihəyə cəlb olunacaq.

***Z.BAYRAM***
***XQ***

Rəna Mirzəzadə – 70

# İctimai fəaliyyətlə elmin sintezi

**Fəlsəfə elmləri doktoru, siyasi elmlər üzrə professor Rəna Mirzəzadənin ölkəmizdə qadın hərəkatı fəalı, akademik gender diskursunun formalaşmasında danılmaz xidməti olan tədqiqatçılardan biri kimi özünəməxsus yeri vardır.**



Əmək fəaliyyətinə 1978-ci ildə Azərbaycan Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunda başlayan Rəna Mirzəzadə bu gün AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsinin müdiridir. Rəna xanım elmi fəaliyyətə başladığı ilk dövrdən ictimai fəallığı ilə seçilmişdir. 1989-cu ildə "Gənclərin mənəvi aləminin formalaşmasında şüurlu nizamın rolu" mövzusunda dissertasiya müdafiə edərək, tədqiqat işlərini cəmiyyətin aktual problemlərinin öyrənilməsinə yönəltmişdir. Namizədlik dissertasiyası mövzusunun seçimində, eləcə də uzun müddət AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda həmkarlar ittifaqı təşkilatına rəhbərlik etməsində bu faktorun əhəmiyyətli rolu olmuşdur.

Rəna Mirzəzadə Azərbaycanda qadın hərəkatı fəallarından, bu sahədə ekspertlərdən biridir. Təsadüfi deyil ki, 1995-ci ildə Pekində keçirilən IV Ümumdünya Qadın Konfransında Azərbaycan nümayəndə heyətinin tərkibində Rəna Mirzəzadə də iştirak etmişdir. Qeyd edim ki, Azərbaycan qadınlarının həmin konfransda iştirakının təşəbbüsçüsü və təşkilatçısı şəxsən ulu öndər Heydər Əliyev olmuşdur.

Azərbaycan qadınının yeni, müstəqil respublika quruculuğunda fəaliyyətinə qayğı və diqqətlə yanaşan Ümummilli liderin təşəbbüsü və dəstəyi ilə 1998-ci il sentyabrın 14-də Bakıda Azərbaycan Qadınlarının I Qurultayı (müstəqillik illərində ilk qurultay) keçirilmişdir. Daha sonra 2003, 2008, 2013, 2018 və 2023-cü illərdə Azərbaycan qadınlarının daha beş qurultayı olmuşdur. Rəna Mirzəzadə qadınların bu ali məclislərinin hər birinin iştirakçısı olmuş və aktual mövzularda məruzələrlə çıxış etmişdir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində İctimai Şuranın sədri, Dini Məsələlər üzrə Dövlət Komitəsində İctimai Şuranın üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü ("Ailə, qadın, uşaq" istiqaməti üzrə) kimi fəaliyyəti onun cəmiyyətin sosial həyatı ilə sıx bağlılığının təzahürüdür.

Rəna xanım AMEA-nın Rəyasət Heyəti və AMEA Azad Həmkarlar İttifaqının birgə təşəbbüsü ilə yaradılan AMEA Qadınlar Şurasının sədridir. Şura alim qadınların sosial aktivliyini koordinasiya edir. AMEA Qadınlar Şurasının təşəbbüsü və təşkilatçılığı ilə önəmli tədbirlər həyata keçirilir, alim qadınların birgə fəaliyyəti təmin olunur. Ənənəvi hal almış belə tədbirlərdən biri BMT Baş Assambleyasının təsis etdiyi "11 Fevral – Elmdə Beynəlxalq Qadınlar və Qızlar Günü" münasibətilə keçirilən konfranslardır. Dünyanın hər yerində bu gündə alim qadınlar, yüksək vəzifəli dövlət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri və özəl sektor təmsilçiləri bir araya gələrək dayanıqlı inkişafın iqtisadi çiçəklənmə, sosial ədalət, ətraf mühitlə inteqrasiya kimi məqsədləri ətrafında birgə təşəbbüslə çıxış edirlər. Əsas hədəflər:

– qadın liderliyinin diplomatiya və beynəlxalq əməkdaşlıqda rolunu əks etdirmək;

– dayanıqlı, ədalətli, inklüziv sosial-iqtisadi inkişaf üçün gender məsuliyyətli və insan hüquqları əsaslı müraciət hazırlamaq;

– elmi diplomatiyanın köməyi ilə elmlə cəmiyyəti yaxınlaşdırmaq;

– elm, texnologiya və yaşıl iqtisadi artım arasında qarşılıqlı təsir və asılılığı üzə çıxarmaq;

– əngəlli qadınların milli və beynəlxalq səviyyəli tədbirlərə qatılmasına nail olmaq;

– elm, mədəniyyət və təhsildə qadınların liderliyini dəstəkləmək və sairdir.

AMEA Qadınlar Şurasının təşəbbüsü ilə "Elmdə Beynəlxalq Qadınlar və Qızlar Günü" münasibətilə 2019-cu il fevralın 11-dən ölkəmizdə elmi konfranslar təşkil olunur. "Azərbaycan qadınları elmdə" mövzusunda ilk belə konfrans 2019-cu ildə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında, 2020-ci ildə isə Neft-Kimya Prosesləri İnstitutunda keçirilmişdir.

2021-ci ildən etibarən Dayanıqlı İnkişaf Məqsədləri yönümlü konfranslar AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi ilə birgə təşkil olunur. "Qadın alimlər COVID 19-la mübarizədə ön sıralarda" mövzusunda onlayn formatda baş tutan konfransın təşkilatçılarından biri də Rəna xanımın təşəbbüsü ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi olmuşdur.

"Bərabərlik, müxtəliflik və inklüzivlik: su bizi birləşdirir" mövzusunda konfrans 2022-ci il fevralın 11-də pandemiya səbəbindən yenə də onlayn formatda baş tutmuşdur.

2023-cü və 2024-cü illərin fevral aylarında "Dayanıqlı İnkişaf Məqsədləri kontekstində qadınların, qızların və elmin rolu", "Qadınlar və qızlar elmi liderlikdə" mövzularında elmi konfranslar AMEA-nın əsas binasında keçirilmişdir. Bu konfranslar alim qadınları ölkənin digər sahə təmsilçiləri ilə görüşdürməklə yanaşı, diqqəti onların problemlərinə də yönəldir.

Rəna Mirzəzadə Azərbaycanda akademik gender diskursunu formalaşdıran tədqiqatçılardan biridir. 1998-ci ildə AMEA Fəlsəfə və Hüquq İnstitutunun sosial fəlsəfə şöbəsində onun təşəbbüsü və rəhbərliyi ilə fəaliyyətə başlayan gender tədqiqatları qrupunun bazasında sonralar yeni şöbə yaradılmışdır. Respublikada gender tədqiqatları sahəsində ilkin akademik işlər həyata keçirilmiş, bu sahədə ixtisaslı kadr hazırlığına başlanılmışdır. Alimin gender tədqiqatlarına həsr olunmuş "Gender: fəlsəfi, tarixi və siyasi-hüquqi istiqamətlər" mövzusunda dissertasiyası bu sahədə ilk elmlər doktoru işidir.

Rəna xanım 1998-ci ildə gender tədqiqatlarına həsr olunmuş ilk respublika konfransının, eləcə də "Gender. Təhsil. Sülh mədəniyyəti" mövzusunda ikinci elmi-praktik konfransın təşəbbüsçüsü və təşkilatçılarından biri olmuşdur. Gender bərabərliyi ideyalarını populyarlaşdırmaq üçün QHT-lər, tələbələr, müəllimlər və başqa qruplar üçün treninqlərin, konfrans və seminarların təşkilində iştirak və rəhbərlik etmişdir. O, "Gender və feminizm", "Gender: siyasi-hüquqi təhlil", "Qadın və münaqişə", "Qadın və siyasət", "Dövlətçilik, modernləşmə və gender", "Multikulturalizm siyasəti din və gender dialoqunda", "Azərbaycanda gender siyasəti", "İKT-nin gender indikatorları" monoqrafiyalarının müəllifi, ali məktəblərdə gender tədqiqatlarının tədrisi məqsədilə hazırlanmış 3 dərsliyin ("Gender tədqiqatları", "Genderə giriş", "Azərbaycanda genderin əsasları") həmmüəlliflərindən biri, 4 nömrəsi işıq üzü görmüş "Genderşünaslıq" elmi-populyar jurnalının baş redaktorudur.

Rəna Mirzəzadə araşdırmalarında milli gender məktəbinin nümayəndəsi kimi çıxış edir. Onun gender yanaşması milli kimlik, eqalitarizm, cinsi tarazlıq kimi ideyalara söykənir. Alim öz tədqiqatlarının nəticələri barədə milli və dünya səviyyəsində keçirilən beynəlxaq konfranslarda, forum və qurultaylarda məruzələr edir, başqa ölkələrin sahə mütəxəssisləri ilə fikir mübadiləsi aparır.

Rəna xanım bir alim kimi tədqiqat ənənəsinin formalaşmasına böyük əhəmiyyət verir və bu mənada gənc kadrların hazırlanmasında yaxından iştirak edir. Onun hazırda rəhbərlik etdiyi siyasətin fəlsəfəsi və sosiologiyası şöbəsi AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun ən məhsuldar şöbələrindən biri hesab olunur.

Rəna Mirzəzadənin elmi və ictimai fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Alim 2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə respublikada elmin və təhsilin inkişafında göstərdiyi xidmətə görə "Tərəqqi" medalı, 2019-cu ildə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı, 2021-ci ildə 3-cü dərəcəli "Əmək" ordeni ilə təltif olunmuşdur.

Rəna xanımı 70 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ona yeni elmi uğurlar və sağlam ömür arzulayırıq.

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

Poeziya – ruhumuzun dilmancı

# “Sözün də su kimi lətafəti var”

**Nitqin xüsusi bir üsulu olan poeziya bədii zövqün heyrətamiz ifadəsi, adi danışığın əlvan boyalarda təqdimatıdır. Bu “söz oyunu” şeiriyyət, qeyri-adi təsvir, ahəng – qafiyə, heca və sairlə cilalanır. Kant yazırdı ki, poeziya incəsənət növləri arasında ilk yeri tutur. Qısası, bu, sözdən söz çıxarmaq sənəti, dilin məna, səs və ritm elementlərindən müəyyən nizam içində istifadədir.**



Dünyada ən qədim şeirləri eramızdan əvvəl 23-cü əsrdə Akkad kralı Sarqonun qızı Şahzadə En-hedu-ana Şumer himnləri kimi yazıb və ilk olaraq, gənc bir qızın yanaqlarını gül ilə müqayisə edib. Min illərdən bəri insanları heyrətləndirən poeziyaya gözəlliyin qeyri-adi baxış bucağından bəlağətli etirafı da demək olar və bu, bəlkə də, izaholunmaz bir fəlsəfədir. Təşbehlər, bənzətmələr onu fərqli bir musiqi halına gətirir. Bir fikir də var ki, poeziya həqiqət axtarışının bir üsuludur. Məsələn, müqəddəs Qurani-Kərim də qafiyələr üzərində qurulub.



Ulu öndər Heydər Əliyev deyib: “...Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilmirdim. Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var! Biz nə qədər zənginik!.. İnsanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur”.

Xalq şairi Bəxtiyar Vahabzadə isə poeziyanı idrakın gözü adlandırıb: “Əbədi bir od kimi öz içindən közərib,hey yanır şeirim mənim. Bu günümdən sabaha boylanır şeirim mənim”.

Hər il yaz gələndə – martın 21-də Dünya Poeziya Günü qeyd olunur. Amma, bizcə, ilin bütün günləri poeziya ilə bağlıdır. Bu həm də ölkələrin, millətlərin etibarlı ünsiyyət vasitəsidir. Təsadüfi deyil ki, ötən il Ankarada, TÜRKSOY Yazarlar Birliyi yaradılıb. Qurumun Baş katibi Sultan Rayev deyib ki, bu çətir altında türk dünyası ədəbiyyatlarının əlaqələrinə körpü atmaq, qardaş türk boylarını yaxınlaşdırmaq istəyirik. Unutmaq lazım deyil ki, ədəbiyyat mədəniyyətin şah damarındakı qandır. Türk dünyasının böyük düşüncə adamı İsmayıl Qaspıralının dediyi kimi, “Dildə, işdə, fikirdə birlik” düşüncəsi gerçəkləşdirilməyə başlanıb.

Bu yaxınlarda AYB Natəvan klubunda Azərbaycan Ədəbiyyat Fondunun və Ümumdünya Yazıçılar Təşkilatının (ÜYT) birgə təşkilatçılığı ilə “Azərbaycan ədəbiyyatının dünya ədəbiyyat platformalarına inteqrasiyası” mövzusunda dinləmə keçirilib. ÜYT-nin sədri, şair Marqarita Al vurğulayıb ki, Azərbaycan bu təşkilat üçün xüsusi statuslu bir ölkədir. Belə ki, məhz bizim ölkəmiz ÜYT-nin yaranması ideyasının beşiyi sayılır. 2019-cu ildə BMT xətti ilə Bakıda dünyanın 52 ölkəsinin iştirakı ilə keçirilən 3-cü “LiFFt” festivallar festivalı zamanı belə bir böyük miqyaslı ədəbiyyat təşkilatının yaranması zərurəti səsləndirilib. Tezliklə Nigeriyanın paytaxtı Abudja şəhərində Ümumdünya Yazıçılar Təşkilatının “Biz eyni planetin insanlarıyıq” adı altında 1-ci konqresi keçiriləcək, üzv ölkələr arasında poeziya və nəsr müsabiqəsi təşkil ediləcək, qaliblərin əsərləri 4 dildə almanax kimi nəşr olunacaq.

Onu da qeyd edək ki, AYB-nin Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin orqanı – “Dünya Ədəbiyyatı” dərgisi də artıq 10 ildir, tərcümə sahəsində önəmli işlər görür. İndiyə kimi Moldova, Türkiyə, İran, Oman, İsrail və digər ölkələrin ayrıca ədəbiyyat sayları nəşr edilib.

Azərbaycanın ürəyi həmişə şeirlə, poeziya ilə döyünüb. 44 günlük Zəfər yürüşü ilə azad edilmiş Qarabağda “Vaqif Poeziya Günləri”nin bərpası könlümüzü riqqətə gətirir. Nəhayət, bu il həm də Füzuli ilidir – dahi şairin 530 yaşı qeyd olunur. Prezident İlham Əliyev 25 yanvar 2024-cü ildə bu barədə sərəncam imzalayıb.

Bu misralar Məhəmməd Füzuliyə məxsusdur:

***Artıran söz qədrini sidq ilə qədrin artırar,***
***Kim nə miqdar olsa,***
***əhlin eylər ol miqdar söz.***

Bir günümüz də şeirsiz, nəğməsiz keçməsin!

# Dillər özgə – duyğular doğma

## Yuxusuz gecə

*Həlak olmuş*
*əsgər yoldaşım*
*ağzı açıq uzanıb aya baxırdı*
*sanki ayla danışırdı*
*o gecə mənimçün*
*ağırdı, çox ağırdı*



*o gecə güllə yağışı yağırdı*
*mən səngərdə*
*sevgi məktubu yazırdım*
*heç kim anlamaz necə*
*yapışmışdım mən həyatdan o gecə.*

***Cuzeppe Unqaretti (İtaliya)***

***Tərcümə edəni: Adil MİRSEYİD***

***

## KİM ANLAR

*Mürgü döyən gölə Ay işığında*
*Sevginin rəsmini cizsəm kim anlar?*
*Tumurcuq çırtlayıb, gül açdığında*
*Yağışın saçını çözsəm kim anlar?*

*Eşq - süd bəyazı, kin - kömür qarası,*
*Könlümü göynədir hər dost yarası...*
*Ət oldum, bıçaqla sümük arası,*
*Cəlladla əhdimi pozsam, kim anlar?*

*Doğumda yalan var, ölümdə gerçək,*
*Nəyə işarədir, balıq, quş, böcək?*
*Qırıq könülləri toplayıb tək-tək,*
*Köksümün üstünə düzsəm, kim anlar?*



*Yazlamı açılır qışın düyünü,*
*Haqlamı çözülür işin düyünü?*
*Ağlımdan keçəni - düşündüyümü*
*Oxusam kim anlar, yazsam, kim anlar?*

***Ziya Osman SABA Türkiyə)***

***

## Son gecəm mənim



*Nəyim var, ayrılıb hər birisindən*
*Könülsüz-könülsüz gedirəm, ancaq*
*Bu xəz kürküm mənim – qurd dərisindən*
*Heç bilmirəm kimə qismət olacaq.*

*Kimi kövrəldəcək isti yun şalım,*
*Kim mənim itimə sahib çıxacaq?*
*Üstü firuzəli gümüş qolbağım*
*Kimin biləyində parıldayacaq?*

*Kimin olasıdır, gözümü yumsam,*
*Bu məktublar kimin, çiçəklər kimin...*
*İçimdən sürüşən sonuncu misram,*
*Bir də sən, bir də sən, son gecəm mənim!*

***Marina SVETAYEVA (Rusiya)***

***Çevirəni Mahir N. QARAYEV***

***

## MƏNCƏ



*Məncə, bitki xalqıq biz.*
*Xəzan olarkən*
*Bu qədər səssiz qala bilməyin*
*başqa adı varmı?*
*Başqa səbəbi ola bilərmi*
*Yenidən doğulacağına inanaraq,*
*Yuxunun döngələrində*
*Qorxmadan*
*Ölümə qədər*
*Getmə cəsarətinin?*
*Məncə, biz bitki xalqıq -*
*Heç görmüsünüzmü*
*Bir ağac nə vaxtsa üsyan eləsin?*

***Ana BLANDİANA (Rumıniya)***

*Tərcümə edəni: Jalə İSMAYIL*

# Rustavidə Azərbaycanlıların Təhsil və Mədəniyyət Mərkəzi

**Gürcüstanın Rustavi şəhərində Gürcüstan Azərbaycanlılarının Təhsil və Mədəniyyət Mərkəzi (GATM) fəaliyyətə başlayıb. Eyni zamanda, mərkəzdə aprel ayından etibarən ödənişsiz dil kursları da açılıb.**



GATM-in rəhbəri Raida Dərziyeva mərkəzin açılmasını mühüm hadisə adlandırıb. O bildirib ki, Gürcüstanın milli müxtəlifliyi bir dəyərdir. Ölkədə yaşayan milli azlıqların vətəndaş cəmiyyətinə inteqrasiyası elə formada həyata keçirilməlidir ki, onların etnik və milli mənsubiyyəti qorunub saxlanılsın.

R.Dərziyeva Gürcüstan hökumətinin azərbaycanlı vətəndaşların gürcü cəmiyyətinə inteqrasiyasına böyük diqqət ayırdığını nəzərə çatdırıb: “Azərbaycan, gürcü və ingilis dilləri üzrə 165 nəfər şagird səviyyə və yaşlarına uyğun olaraq 10 qrupda təhsil alacaq. Şəhərin əksər məktəbləri ilə yanaşı, Qardabani və Marneulinin yaxın kəndlərindən olan məktəblilər də kurslara qatılıblar. Rustavi şəhərinin azərbaycanlı icması tərəfindən təqdir və rəğbətlə qarşılanan dil kursları Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə layihə çərçivəsində həyata keçirilir”.

**XQ**

# Çağdaş Azərbaycan poeziyasından seçmələr

## ÇƏMƏNLİM



***Ümidim söykənib zümrüd düzünə,***
***O mənim arxamda duran dağımdır.***
***Sənin torpağını sıxıb gözümə,***
***Diz çöküb öpməyim ucalmağımdır.***

***Yüz il qucağından uzaqda gəzsəm,***
***Xəyalım yenə də səmanda üzər.***
***Sənə ürəyimin paytaxtı desəm,***
***Nə Təbriz inciyər, nə Bakım küsər.***

***Tutyadan əzizmiş bir dadım duzun,***
***Acı yovşanın da şirin-şəkərmiş.***
***Əlimi qanadıb didən kol-kosun,***
***Adi çör-çöpün də qançəkərimmiş.***

***Umursan adına ad gətirərəm,***
***Gözətçi balanam qapından ötrü.***
***Hərdən şəhərlərdə bezib titrərəm,***
***Kövrək qocaların gapından ötrü.***

***Həm uman yerimsən, həm güman yerim,***
***Qadanı, bəlanı alasıyam mən.***
***Haçansa ömürlük qoynuna girib,***
***Çəmənin, çıçəyin olasıyam mən.***

*Şahmar ƏKBƏRZADƏ*

## ANAMDAN AYRILARKƏN



***Ayrılıq yetişdi bizə yenidən,***
***Bir həsrət dumanı alıb könlümü.***
***Anama baxıram pəncərədən mən,***
***Durub kövrəkliyin heykəli kimi.***

***Avtobus tərpənir, çatmırmı gücü?***
***Nə yaman hay salıb, haray qoparıb.***
***Məni aparmağa nə var, sürücü,***
***Fikrimi, dərdimi anam aparıb.***

***Ürəyim kədərlə dolmasın deyə,***
***Bir az gülümsədi ayrılan zaman.***
***Yol uzaq, bir xata olmasın deyə,***
***Anam istərdi ki, sürücü oğlan***
***Onun gözləriylə baxa yollara,***
***Mülayim adamlar çıxa yollara...***

***Təkərlər fırlanır, uzaqlaşırıq,***
***Neçə düz keçirik, təpə aşırıq...***
***Fikrimdən gör nələr ötüşür bu dəm,***
***Qovaqlar anamdır, elə bilirəm.***
***Hər addım başında çıxaraq yola,***
***Arxamca əl edir: - Uğurlar ola!***

***Avtobus dayanır bir yol başında,***
***Biletlər yoxlanır yenə də bir-bir.***
***Bir kimsə bilmir ki, bu gün maşında***
***Bir ana ürəyi biletsiz gedir.***

***Bahadur FƏRMAN***

***

## DANIŞIR



***Elə bil, dilotu yeyibdi dilim,***
***Ağlıma gələni deyir- danışır...***
***Gözüm həsrətimin yataq yeridi,***
***Ürəyim dinəndə şeir danışır.***
***Birini də deyim, sən eşit, qadam,***
***Bəzən ağrıdan da məst olur adam.***
***Kefi saz olanda, süst olur adam,***
***Dərdi güc gələndə, əyir... danışır.***
***Bir az kövrəyi var, bir az bərki var,***
***Çoxunun Allaha çatan ərki var.***
***Şair dedikləri adamlar ki, var,-***
***Başı daşdan-daşa dəyir, danışır...***
***Ürək pörşələdir, ciyər közlədir,***
***Bəxtiləngər verir, tale gözlədir,***
***Xalx kəmin-kəsirin elə gizlədir...***
***Əlövsət yarasın öyür, danışır...***

***Əlövsət SALDAŞ***

## Sal əlini aşağı...



***Sal əlini aşağı,***
***bir də qoynuna qoyma.***
***Keçmiş günahlarını,***
***mənim boynuma qoyma.***

***...Ömrünün astarından***
***üzü nə qədər çıxıb.***
***günlərinin qarası***
***üzünə qədər çıxıb.***

***Bax səni gətirmişəm,***
***di, dur, özünü tanı.***
***Bəs əlimdə tutduğum***
***şəkildəki qız hanı?..***

***...İndi o qız yoxdusa,***
***qadın olmusan demək.***
***Eh.. QADIN olmusansa,***
***yadın olmusan demək.***

***...Sal əlini aşağı,***
***bir də qoynuna qoyma.***
***Keçmiş günahlarını***
***mənim boynuma qoyma.***

***Ruslan Dost ƏLİ***



## Neçə dəfə şeir yazdın?

***– Neçə dəfə üşümüsən?***
***– Qar dəfə!***
***– Neçə dəfə isinmisən?***
***– Qor dəfə!***
***Qarında da, qorunda da***
***Əlim yanıb hər dəfə.***
***– Neçə dəfə pirə getdin?***
***– Şər dəfə!***
***– Neçə dəfə şərdən çıxdın?***
***– Pir dəfə!***
***Gen günümdə pirə gedim***
***Heç olmasa, bir dəfə...***
***– Neçə dəfə çayda batdın?***
***– Kür dəfə!***
***– Neçə dəfə xilas oldun?***
***– Tir dəfə!***
***– Neçə dəfə balıq oldun?***
***– Tor dəfə.***
***– Neçə dəfə uduzmusan?***
***– Zor dəfə!***
***– Neçə dəfə cəhd elədin?***
***– Zər dəfə!***
***Yüz yaxşı iş***
***Qurban getdi bir səhvə...***
***Mən dünyanın mərkəziyəm,***
***Hara getsəm er dəfə!***
***Dolanmışam yer dəfə,***
***– Dünya düşür sümüyünə?***
***– Vur dəfə...***
***Şair oldum şeir dəfə...***
***– Neçə dəfə şeir yazdın?***
***– ...***

***Xəqani HƏBİBOĞLU***

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***

Beynəlxalq həyat

# Demokratlar kiçik Kennedidən qorxurlar

## Öldürülən ABŞ prezidentinin qardaşı oğlu demokratları qələbədən məhrum edə bilər

**2023-cü ildə autsayder demokrat kiçik Robert Kennedi ABŞ prezidentliyinə namizədliyini rəsmən elan edəndə onun uğuruna inananlar elə də çox deyildi. Amma dəfələrlə qatı sağçı respublikaçıların yanında görünən qalmaqalçı antivakser (vaksin əleyhinə olanlar – İ.R.) fəalı, sui-qəsd nəzəriyyəsi tərəfdarı demokratların namizədi uğrunda Co Bayden ilə rəqabət aparmaqdan çəkinmədi. Hətta Vaşinqton isteblişmentində heç kimin ciddi hesab etmədiyi ABŞ prezidentliyinə iddiaçı elə o zaman xeyli seçicini öz tərəfinə çəkə bildi. Seçki kampaniyasında yeni fiqur üçün görünməmiş dəstək qeydə alındı. Həmin ərəfədə keçirilən ictimai rəy sorğusu göstərdi ki, Baydenin keçmiş seçicilərinin 14 faizi Robert Kennedini dəstəkləməyə hazırdır.**




Kiçik Robert Kennedi 1954-cü il yanvarın 17-də keçmiş prezident Con Kennedinin kiçik qardaşı Robert Kennedinin ailəsində dünyaya gəlib. Ailənin 11 uşağından üçüncüsü olan kiçik Robertin yeddi yaşı olanda əmisi ABŞ-ın prezidenti seçilib, baş prokuror vəzifəsini tutan atası isə administrasiyanın əsas söz sahibi olub. 1965-ci ildə ABŞ-ın 35-ci prezidenti Dallasda öldürüldükdən sonra ata Robert Kennedi Nyu-York ştatından senator oldu və 1968-ci ildə prezidentliyə namizədliyini irəli sürmək qərarına gəldi. İyun ayında seçki kampaniyası zamanı Los-Ancelesdə fələstinli terrorçu Sirhan Sirhan tərəfindən güllələndi. Bu hadisədən sonra kiçik Robert Kennedinin başına çox işlər gəldi. Amma sonda o özünü həyatda təsdiqləməyi bacardı və 2024-cü ildə keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürmək qərarını verdi. İlk mərhələdə Demokratlar Partiyasının namizədi omaq istəsə də, buna nail ola bilmədi. Lakin partiyanın əsas namizədi olan Co Bayden üçün əməlli-başlı başağrısına çevrilə bildi.

Beləliklə "The Hill" nəşri yazır: "Demokratlar Partiyasından prezidentliyə namizədlik uğrunda mübarizədə Co Baydenə meydan oxuyan kiçik Robert Kennedi siyasi çevrələrdə getdikcə daha çox narahatlığa səbəb olur". Nəşrin yaydığı məlumata görə, partiyanın yüksək səviyyəli liderləri belə qənaətə gəlmişdilər ki, "kifayət qədər marginal siyasətçinin nüfuzunun artırması diqqəti yenidən seçilmək istəyən dövlət başçısının kampaniyasından yayındıra bilər". Ona görə də "Kennedi öz partiyası daxilində sonsuz qəzəb doğurdu. Demokratlar onun reytinqinin son bir neçə sorğuda iki rəqəmli faizlə yüksəldiyini gördülər və isteblişmentin bəzi nümayəndələri onun mesajlarının bir çoxunun seçicilərdə əks-səda doğuracağını etiraf etdilər".

Həqiqətən də, Birləşmiş Ştatlarda kiçik Kennedi bir sıra sui-qəsd nəzəriyyələrini dəstəklədiyinə, həmçinin koronavirus pandemiyası zamanı peyvəndlərə qarşı çıxdığına görə marjinal namizəd hesab olunurdu. Mediada isə siyasətçiyə diqqət getdikcə artmaqda idi və bu, Baydenin namizədliyini irəli sürmək üçün kifayət qədər asan prosesə ümid edən Demokrat Partiyasını qıcıqlandırırdı.

Co Baydenin namizədliyini dəstəkləyən müttəfiqləri ciddi narahatlıq keçirirlər. Çünki onun partiyadan namizədliyi artıq müzakirə mövzusu olmasa belə, kiçik Kennedi yenə diqqət mərkəzindədir. Kennedi prezident seçkilərində müstəqil namizəd kimi iştirak etmək niyyətini bəyan edəndən Demokratlar Partiyasının nümayəndələri ona qarşı tənqidləri sərtləşdirmək qərarına gəliblər.

"The Hill" qəzeti vurğulayır ki, Baydenin müttəfiqlərinin və liberal təşkilatların kiçik Kennediyə qarşı "səylərini gücləndirmələrinə" son günlər onun seçkilərdə qalib gələcəyi təqdirdə vəkil Nikol Şanahanı ABŞ-ın vitse-prezidenti təyin etməyə hazır olduğunu bəyan etməsi olmuşdur. KİV-in məlumatına görə, Nikolun sərvəti yüz milyonlarla dollar dəyərləndirilir. Baydenin tərəfdarları ehtiyat edirlər ki, bu, müstəqil siyasətçi namizədə seçki kampaniyasına əlavə vəsait yatırmağa imkan verəcək və öz növbəsində, hazırkı Amerika lideri üçün "noyabrda fəlakətə çevrilə bilər".

Demokratlar diqqəti kiçik Kennedinin bəzi siyasi məsələlərdə "mübahisəli mövqe" tutmasına yönəltmək niyyətindədirlər. Mətbuat demokratların siyasi strateqlərindən biri Duq Qordondan belə bir sitat gətirir: "Demokratlar Kennedi və Şanahan haqqında həqiqəti açmaq üçün hər fürsətdən istifadə etməlidirlər". Onun fikrincə, Baydenin tərəfdarları vurğulamalıdırlar ki, Kennedinin seçkidə qalib gəlmək üçün real şansı yoxdur. O, yalnız Baydendən səsləri qoparmaqla ABŞ-ın eks-prezidenti respublikaçı Trampın seçilməsinə kömək edə bilər".

Nəşrin yazdığına görə, demokratlar müstəqil namizədə qarşı şəxsi hücumlara əl atmaq niyyətindədirlər. Onlar artıq kiçik Kennedi haqqında məlumatlar toplamağa hazırlaşırlar ki, bu məlumatlardan müstəqil namizədi tənqid etmək üçün istifadə edə bilsinlər.

"NBC News" xəbər verir ki, demokratlar kiçik Kennedinin namizədliyindən çox qorxurlar. Onlar hesab edirlər ki, bəzi əsas ştatlarda seçicilərin hətta kiçik bir hissəsi Co Baydenə yox, ona səs versə, bu, Trampın qalib gəlməsinə imkan verən həlledici amil ola bilər. Ona görə də Kennedinin seçkilərdə iştirakına mane olmaq üçün hər şeyi edirlər. Bu, 2024-cü il seçkilərində yeni bir tendensiyadır, əvvəllər demokratlar, sadəcə olaraq, üçüncü tərəfin namizədlərinə məhəl qoymurdular.

Belə bir vaxtda ikipartiyalı qrup da üçüncü tərəfin təklifi ilə Ağ evə iddia edə biləcək namizədləri müəyyən edə bilməyib. "No Labels" siyasi qrupu namizədinin olmaması səbəbindən seçki marafonundan geri çəkildiyini elan edib. Deməli, prezident Bayden və sabiq prezident Trampın daha bir rəqibi azaldı. Bu xəbər, əlbəttə, bəzi demokratların potensial mərkəzçi namizədin müdaxiləsi ilə bağlı narahatlıqlarına son qoyur. Buna baxmayaraq, demokratlar "konkret bir namizədin qalmasından dəli olurlar" və təbii ki, bu da Robert Kennedidir.

"NBC News" telekanalı bu tarixçə haqqında geniş materiallar yazan siyasi şərhçi Aleks Sitz-Valddan aldığı müsahibədə ilk olaraq soruşur: "Bir çox demokratlar üçün bugünkü xəbərlər "Urra!" kimidir, elə deyilmi? Artıq bülletenlərdə "No-Labels" olmayacaq. Amma indi demokratların ciddi şəkildə əleyhinə birləşməyə başladıqları əsas təhlükə kiçik Kennedidir".

Həqiqətən, demokratlar bunun öhdəsindən gəlmək üçün səyləri səfərbər etdilər. Nə üçün onlar düşünürlər ki, indi Kennedi Bayden üçün Trampdan daha böyük təhlükə yaradır?

Alex Sitz-Vald deyir: "Bəli, bunun tarixlə əlaqəsi var. Tək mənim həyatımda demokratlar iki prezident postunu, onlara görə, sol qanadlı namizəd spoyler (işpozan - red) olduqları üçün itiriblər. 2000-ci ildə Ralf Neyter və 2016-cı ildə Cill Şteyn.

Demokratlar hesab edirlər, bu seçkidə nəticələrin fərqi o qədər kiçik olacaq ki, hətta bəzi əsas ştatlarda seçicilərin cüzi bir hissəsi, 1-2 faizi belə Baydenə deyil, Kennedyə səs versə, bu, həlledici amilə cevriləcək və Tramp qalib gələcək. Kennedinin prezident seçiləcəyi təqdirdə Nikol Şanahanı vitse-prezident postuna namizəd elan edəcəyini bəyan edəndən sonra onlar daha çox narahat olmağa başlayıblar. Məsələ təkcə onda deyil ki, o, səsvermədə iştirak etmək üçün lazım olan çoxlu pulu gətirə bilər".

Yeri gəlmişkən, onu da qeyd edək ki, Şanahan "Google"un yaradıcısı Sergey Brinin keçmiş həyat yoldaşıdır və kifayət qədər imkanlı bir qadındır.

Alex Sitz-Vald daha sonra bildirir: Bəli, bu, çox vacibdir. Həm də bu barədə danışanlara görə vacibdir. Onlar özlərini daha çox solçu fikirlərə sahib olanlar kimi göstərirlər. Nikol Demokrat Partiyasının keçmiş donorudur, əlbəttə, sabiq demokratdır. Onlar da deyirlər ki, "bura bax, əgər sən keçmiş demokratsansa, Demokratik Partiyadan narazısansa, gəl bizə qoşul, burada sənin gəlişinə şaddırlar".

Reportyor Kennediya qarşı səfərbər olan qüvvələr və onların kampaniyaları haqqında danışaraq bildirir ki, "xüsusi qruplar yalnız üçüncü tərəflərlə qarşılaşmaq üçün yaradılmışdır. Demokratik Milli Komitənin öz gündəliyi var. Onların Kennedinin tədbirlərində onu trollamaq üçün mobil reklam lövhələri var".

Kennedini seçki marafonundan kənarda saxlamaq üçün mümkün olan bütün leqal səyləri göstərirlər. Əlbəttə, bu, keçmişdə üçüncü tərəf namizədləri ilə necə davrandıqlarından tamamilə fərqli bir yanaşmadır. Əvvəllər, ümumiyyətlə, onlara məhəl qoyulmurdu, guya onlar, sadəcə, mövcud deyillər. İndi isə lazım gələrsə, onları batırmaq üçün milyonlarla dollar xərcləyirlər".

Bütün bunlar onu göstərir ki, ABŞ-da prezident seçkisində çoxgedişli şahmat oyunu oynanılır. Demokratlar yaxşı başa düşürlər ki, Co Baydendən başqa hər hansı namizədə səs vermək elə Donald Trampa səs vermək olacaq. Bu isə demokratların namizədi Bayden üçün əsl fəlakət olacaq.

**İlqar RÜSTƏMOV**
**XQ**

# Şəhid İslam Eyvazova abidə ucaldıldı



**Naxçıvanın Qaraxanbəyli kəndində şəhid İslam Eyvazovun boya-başa çatdığı evin önündə ucaldılan abidəsinin açılış mərasimi keçirilib.**

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyinin media üzrə məsul şəxsi Günay Malikqızı bildirib ki, İslam kimi oğullar qəhrəmanlıqları sayəsində hər bir azərbaycanlının qəlbində əbədi olaraq özlərinə abidə ucaldıblar.

"Naxçıvan Qaziləri" İctimai Birliyinin sədr müavini Əli Əlisoy, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlılar hərbi hissəsinin zabiti Rəşad Həbibov, şəhid anaları adından Fatma xanım, Gülşad ana, şəhid atası Mais Gülməmmədov, Rizvan Həmzəyev, döyüş yoldaşı Əli Musayev qəhrəmanın həyat yolundan danışıblar.

Şəhidin anası Aytən Eyvazova qeyd edib ki, ötən ay şəhid ailələrinin Şuşa şəhərinə gəzintisi təşkil edilib. Həmin gün o da oğlu İslamın şəhid olduğu yeri görüb. Torpağı ovuclayıb balasının ətrini duyub.

Sonra qəhrəmanın şərəfinə şeirlər səsləndirilib, Naxçıvan Dövlət Universitetinin tələbələrinin ifasında ədəbi-bədii kompozisiya təqdim olunub.

Xatlrladaq ki, İslam Eyvazov 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Cəbrayıl, Füzuli, Xocavənd istiqamətlərində vuruşub. Noyabrın 9-da Xocavənddə şəhidlik zirvəsinə yüksəlib. O, Qaraxanbəyli kənd məzarlığında dəfn olunub. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Eyvazov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

***Səbuhi HƏSƏNOV,***
***"XQ"nin bölgə müxbiri***
**Naxçıvan**

# Stiv Cobsun ibrətli hekayətləri

**"Apple" şirkətinin qurucusu, yeni texnologiyalar erasının dahilərindən sayılan amerikalı Stiv Cobs (1955-2011) dövrünün ən uğurlu iş adamlarından və zəngin insanlarından idi. Qəlbində böyük həyat eşqi, qurub-yaratmaq arzusu vardı.**

Lakin Stiv həyatının son illərində qara ciyərin xərcəngi xəstəliyi ilə mübarizə aparmalı olmuşdur. Onu nə saysız var-dövləti, nə də şöhrəti ölümün pəncəsindən xilas edə bilməmişdir. Bütün bunlar Stivi çox düşündürmüş, həyat və ölüm haqqında düşüncələrini səsləndirməyə sövq etmişdir.

Maraqlıdır ki, 56 yaşında dünyasını dəyişən Stiv Cobsun ölümündən ötən 13 il ərzində onun həyatı və fəalyyyətinə olan maraq nəinki azalmamış, əksinə, ilbəil artmışdır. Son illər mərhumun həyatın mənası barədə olduqca səmimi, ibrətamiz düşüncələri sosial şəbəkələrdə ən çox müzakirə olunan mövzulardandır.



Cobs yazırdı: "Xəstə vəziyyətdə çarpayıda uzananda bütün həyatımı yada salır, anlayıram ki, məşhurluğum və sərvətim qaçılmaz ölüm qarşısında mənasızdır. Maddi şeyləri tapmaq, almaq olar. Amma bir şey var ki, onu tapmaq və almaq olmaz – bu, həyatdır. İndi xəstəxana palatasında yatıram, nəhayət, ölmək haqqında düşünürəm. Sərvət həyatımda öyrəşdiyim həqiqətdir. Hazırda ağır xəstə olarkən yatağımda uzanıb ömür yoluma baxanda əldə etdiyim bütün uğurların və məşhurluğun mənasız olduğunu anlayıram. Bir sözlə, qaçılmaz ölüm qarşısında ən yüksək nöqtə..."

Cobsun sadəlik və qənaətcillik haqqında fikirləri də diqqətəlayiqdir. O yazırdı: "Biz nə qədər yaşa doluruqsa, o qədər də müdrikləşirik, 30 dollarlıq saatla 300 dollarlıq saat eynidir, hər ikisi eyni zamanı göstərir. Biz 150 min və ya 20 min dollarlıq avtomobildə eyni yolu gedirik, məsafə hər ikisində eynidir və hər ikisi bizi nəzərdə tutduğumuz ünvana gətirib çıxaracaq. Yaşadığımız 3 yüz və ya 3 min kvadratmetrlik evlərin hər ikisi eynidir.

Sizin həqiqi daxili xoşbəxtliyiniz maddi şeylərdən yaranmır, olmur. Siz yalnız sizi xatırlayan, sevən dostlarınız olduqda xoşbəxtsiniz! Tez getmək istəyirsinizsə, tək gedin. Amma əgər uzağa getmək istəyirsənsə, birlikdə gəzin".

Cobs insanlara israrla düzgün qidalanmağı məsləhət görürdü. Yazırdı ki, "adamlar yeməyi dərman kimi yeməlidirlər, əks halda dərmanı yemək kimi yeyəcəklər".

Cobsun həyati tövsiyələrinin əsas məğzi budur ki, insanlar həyatın qədrini bilsinlər, dostlarını, doğmalarını unutmasınlar, dünya malına göz dikməsindər.

Əziz oxucu, Cobsun həyat və ölüm haqqında fikir düşüncələrinin bir çoxu yeni olmasa da, düşündürücüdür. Görünür, məhz buna görə bu gün planetimizdə yaşayan milyonlarla insan Stiv Cobs kimi şəxsiyyətlərin həyat barədə qənaətlərinə diqqət kəsilirlər.

**M.HACIXANLI**
**XQ**


## "Qala Həyat Sığorta" ASC səhmdarlarının nəzərinə!

20 may 2024-cü il, saat 10.00-da "Qala Həyat Sığorta" ASC-nin Bakı şəhəri, Yasamal rayonu, İzmir küçəsi 5a nömrəli ünvanda yerləşən ofisində cəmiyyətin səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Cəmiyyətin 2023-cü il üzrə illik ümumi hesabatlarının təsdiq edilməsi.

2. İclasda iştirak edən səsvermə hüququna malik səhmdarların yekdil razılığı ilə sair məsələlər barədə.

QALA Həyat Sığorta şirkəti


# İDMAN XƏBƏRLƏRİ




## Gimnastikamızın yeni talismanları

**Azərbaycan Gimnastika Federasiyasının (AGF) yeni talismanları təqdim edilib.**

Federasiyadan "XQ"yə bildiriblər ki, maskotlar zərif ceyran və cəsur tülküdür. Talismanlara ad seçmək məqsədilə federasiyanın sosial şəbəkələrinin izləyiciləri arasında müsabiqə elan edilib. Ceyran və tülkü üçün ən yaradıcı və uyğun adların müəllifləri dəyərli hədiyyələr qazanacaqlar.

Müsabiqədə iştirak üçün son tarix 15 apreldir.



## "Maksima masters"də daha 3 qızıl medal

**Azərbaycan təmsilçisi Aydın Əlibəyov Rusiyanın paytaxtı Moskva şəhərində atçılığın dresaj növü üzrə cavan və böyük əsas atlar ("Qızıl Tur") arasında keçirilən "Maksima masters" çempionatında daha 3 medala sahib olub.**

İdmançımız böyük əsas atlar arasında təşkil olunan yarışda bu nailiyyəti qazanıb.

Qeyd edək ki, yarışda 3 atla iştirak edən A.Əlibəyov bundan əvvəl iki qızıl medal əldə edib.

Çempionat aprelin 7-dək davam edəcək.

## "Formula 1": Maks Ferstappen Yaponiyada 1-ci olub

**"Formula 1" üzrə Yaponiya Qran-prisində sıralama turunun qalibi müəyyənləşib.**



"Red Bull" pilotu Maks Ferstappen birinci pillədə qərarlaşıb. Onun komanda yoldaşı Serxio Peres 2-ci, "McLaren" təmsilçisi Lando Norris 3-cü yerləri tutublar.

Qran-prinin əsas yarışı bu gün, Bakı vaxtı ilə saat 09:00-da start götürəcək.

**L.SABİRQIZI**
**XQ**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 72 (30476) 7 aprel 2024-cü il, bazar

## “TikTok” Azərbaycanda 2 milyon videonu silib

**“TikTok” platforması 2023-cü il ərzində Azərbaycanda “İcma qaydaları”nı pozan 2 milyon 71 min 243 videonu silib. Bu barədə şirkətin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Kommunikasiya Xidməti bildirib.**




Silinən videolardan 903 min 41-i ötən ilin dördüncü rübünə aiddir. Bu, 2023-cü ilin istənilən rübündə silinmiş videoların ən yüksək sayıdır. Videoların 95,8 faizi yayımlandıqdan sonra 24 saat ərzində silinib.

Dünya üzrə isə dördüncü rübdə 176 milyon 461 min 963 video qaydaların pozulması səbəbindən silinib. Bu, rüb ərzində “TikTok” tərəfindən silinən ən yüksək video sayıdır.

Silinmiş videoların 96,7 faizi proaktiv şəkildə silinib. Proaktiv silinmə videonun xəbər verilməzdən əvvəl müəyyən edilməsi və silinməsi deməkdir. Videoların faizi yayımlandıqdan 24 saat ərzində silinib. 8 milyon 12 min 732 canlı yayım isə qanun pozuntularına görə dayandırılıb.

Qeyd olunub ki, bunlarla yanaşı, ötən il dünya üzrə 13 yaşdan kiçik 76 milyon 484 min 236 istifadəçinin hesabı silinib.

*Rizvan FİKRƏTOĞLU*
*XQ*



**Samuraylar eramızın birinci əsrində xüsusi döyüşçü təbəqəsi olaraq qədim Yaponiyada meydana çıxıblar. Onlar son dərəcə cəsur, dövrün silahlarından mükəmməl istifadə edə bilən elit hərbçi qrupları olub.**

# Samuraylar

Samuraylıq məktəbi I əsrdə yaranmasına baxmayaraq, onların gücündən əsasən, VII-VIII əsrlərdə daha geniş istifadə edilib. Həmin dövr Yaponiyada feodal-monarxiya dövlətçilik quruluşu öz inkişafının ən yüksək səviyyəsinə çatdığına görə bütün torpaqlar şəxsi mülkiyyətə verilmiş, feodallar əsas söz sahibinə çevirilmişdi. Feodallar arasında tez-tez silahlı toqquşmalar baş verdiyindən onlar özlərinin, eləcə də əmlaklarının təhlükəsizliyi üçün samurayların xidmətindən istifadə etmişlər.

"Samuray" yaponca "xidmət etmək" anlamına gələn “saberu” sözündəndir. Başqa sözlə, samuray - xidməti döyüşçüdür. Amma samurayların vəzifəsi təkcə döyüşməkdən ibarət deyildi. Onlar həm də ağalarının cangüdəni kimi çalışır, gündəlik işlərində onlara xidmət göstərirdilər.

Samuray ailəsində gələcək döyüşçülərin, yəni uşaqların tərbiyəsi kiçik yaşlarından şərəf koduna – “buşidoya” uyğun həyata keçirilirdi. Samuraylar öz övladlarına erkən yaşlarında taxta qılınc bağışlayır, bununla da onlarda qılınca hörmət aşılayırdılar. Əxlaq normalarının öyrədilməsində böyük mütəfəkkir Konfutsi təliminə istinad olunurdu.

Bu təlimə görə, övladlar valideynlərini sevməyə, onlara cavab qaytarmamağa, ehtiram göstərməyə borcludur. Uşaqlara təkcə valideyn məhəbbəti deyil, həm də “Döyüşçünün atası” hesab edilən imperatora sədaqət təlqin edilirdi. Bütün bunlarla yanaşı, gələcək samuraylarda müəllimə qarşı da xüsusi ehtiram formalaşdırılırdı. Samuray üçün müəllimin nüfuzu heç də atadan aşağı deyildi. Müəllimin göstərişləri, bir qayda olaraq, mübahisəsiz yerinə yetirilirdi. Bir Samuray aforizmində deyilir: “Mənə həyat verən valideyn, məni həyata hazırlayan isə müəllimdir”.

Ailə tərbiyəsi və ustad (mentor) dərsləri gənc varislərin yetişdirilməsində iki əsas şərt idi. Ustadlar valideynlərə hörmət, ağaya sədaqət və buddistlərin ölümə etinasızlıq təlimi əsasında ideal döyüşçü modelini yaradırdılar.

Gənclərdə bu cür düşüncə tərzini həm məşhur samurayların hərbi şücaətindən bəhs edən bədii əsərlər tədris etməklə, həm də teatr tamaşaları göstərməklə formalaşdırırdılar. Ustadlar gələcək samurayları mifik vahimələrdən uzaq, cəsarətli yetişdirmək üçün onlara gecələr qəbiristanlıqda, yaxud sirli xarabalıqlarda tənha gecələməyi əmr edirdilər. Təfəkkürlərində ölümü adiləşdirmək məqsədi ilə onları ictimai cəzalara və edamlara baxmağa aparırdılar. Cəza hökmlərinə görə başı kəsilən, əzaları qoparılan, qılıncla şaqqalanan adamlara tamaşa edən gənc samurayların hər biri orada olduğunu təsdiqləmək üçün edam lövhələrinə öz şəxsi işarəsini qoyurdu.

Dözüm və əzmkarlıq yaratmaq üçün gənc samurayları çox ağır işlər görməyə, gecələr yuxusuz dayanmağa, su altında qalmağa, qışda ayaqyalın gəzməyə, sübh tezdən oyanmağa, günlərlə ac qalmağa məcbur edirdilər.

Samuraylığa hazırlaşan gənc oğlan və qızlara öz hərəkətlərini, hisslərini nəzarətdə saxlamaq, emosiyalarını idarə etmək, xüsusilə, kədərlənməmək, eləcə də ağlamamaq öyrədilirdi. Bir samuray pritçasında samuraylığa hazırlanan balaca oğlunu kövrəlmiş halda görən anası ona belə deyir: “Xırda şeylərə görə ağlayırsan, bəs, döyüşdə qolun kəsiləndə, yaxud harakiriyə məcbur olanda neyləyəcəksən?”

Beləcə, əsilzadə samurayların övladları hələ erkən yaşlarından şərəf, məsuliyyət və ədalət hissi ilə, reallıqla, nizam-intizamla tərbiyə edilirdi. Bu tərbiyə konkret olaraq, özündə qorxmazlığı, soyuqqanlılığı və dözümlülüyü ehtiva edirdi. Bu cür təlimlərin sayəsində samuraylar ən çətin vəziyyətlərdə belə, düşüncə aydınlığını itirmirdilər.

Gələcək samuraylardan daim məşq etmək, döyüş sənətini təkmilləşdirmək, fiziki güc və çeviklik tələb olunurdu. Onlar qılınc və nizə ilə usta davranmağı, ox atmağı, at çapmağı, döyüş taktikasını mükəmməl bilməli idilər.



Samuraylara döyüş sənəti ilə yanaşı, ədəbiyyat, fəlsəfə, tarix kimi elmlər də öyrədilirdi.

Hər bir samurayın evində qılıncoynatma, oxçuluq və fiziki məşqlər üçün geniş zallar olurdu. Samurayların təhsili, bir qayda olaraq, 8 yaşında başlayıb, 16 yaşında başa çatırdı. Bu yaş dövrünü başa vurduqdan sonra ona döyüş üçün həqiqi qılınclar verilirdi. Qaydaya görə samuray ömrünün sonuna qədər qılıncdan ayrılmır.

Samuraylıq məktəbi ümumən, "Buşido" (döyüşçü yolu) fəlsəfəsinə əsaslanır. Bu fəlsəfədə əsas ideya ölüm qorxusuna qalib gəlməkdi. Məhz, bu qorxunu öz daxilində yenən şəxs samuray adını qazana bilirdi.

İkinci Dünya müharibəsi zamanı Yaponiya dövləti kişilərə müraciət edərək samuray nəvələri olduqlarını xatırlatdı və onları Buşido ruhunu dirçəltməyə çağırdı.

Beləliklə, ana ideyası Buşido olan kamikadze məktəbi yarandı və Sakit Okeanda Yaponiyaya qarşı hərbi əməliyyatlar aparan ABŞ donanmasını məhv edən ilk intiharçı pilotlar meydana gəldi.

*Murad KÖHNƏQALA*

**Sərgi salonlarında**

# “Yaşıl dünyam”ın işığı

**Rəsm hisslərin, duyğuların boyalarla ifadəsidir. Rəssam Mətin Şərifovun paytaxtımızda – İçərişəhər Rəsm Qalereyasında keçirilən “Yaşıl dünyam” adlı sərgisi bu baxımdan maraq doğurur.**



Bu il ölkəmizdə Prezident İlham Əliyev tərəfindən “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Elə rəssam da sərgisində bu mövzuya üstünlük verib. Sərgidə müəllifin son illərdə çəkdiyi əsərlər nümayiş olunur. Onun rəsmlərinə baxdıqca düşünürsən ki, yaşıl dünya, həqiqətən də, həyat rəmzi olan bu rəngin müxtəlif çalarları ilə adamı duyğulandırır, göz-könül oxşayır.

Mətin Şərifov gənc olsa da, rəsm sahəsində öz sözünü inamla deməkdədir. O artıq ali təhsil ocağında bu sənətin sirlərini tələbələrə öyrədir. Sərgiyə çoxsaylı tamaşaçının qatılması sənətə olan marağın göstəricisidir. Açılışda çıxış edən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, sənətşünaslıq elmləri doktoru, professor, Əməkdar incəsənət xadimi Ceyran Mahmudova bunu xüsusi vurğuladı: – Mətin Şərifovun yaradıcılığında yaşıl rəng xüsusi yer tutur. Onun bu mövzuda sərgisi aktuallıq kəsb edir. Düşünürəm ki, Mətin Şərifovun yaradıcılığının yeni istiqamətlərini kəşf edəcəyik.

Rəssam isə sərgiyə gələn sənətsevərlərə və onun təşkilatçılarına minnətdarlıq etdi. Əsərlərinə olan marağın onu yeni uğurlara ruhlandırdığını söylədi.

Sonra sənətsevərlər sərgiyə tamaşa etdilər. Mətin Şərifovun “yaşıl dünya”sında digər rənglərə də eyni sevgi ilə yer verildiyi diqqət çəkir. “Vikinq”, “Sərkərdə” “Qoca” kimi rəsmlər bu qəbildəndir. Həmçinin, “Neft daşları”, “Mərdəkan qalası” kimi rəsmlərində ölkəmizin çeşidli gözəllikləri öz əksini tapıb.

Qeyd edək ki, sərgi aprel ayının 10-dək davam edəcək.

*Ceyhun MİRZƏLİ*



# Bambuk velosiped?

**Bugünlərdə dünyanın ən yüngül elektrik velosipedi - “Diodra S3” təqdim edilib. 15 kiloqram ağırlığında olan velosipedin bambukdan hazırlandığı qeyd olunur. Yeni velosipedin digərlərindən əsas fərqi ekoloji cəhətdən təmiz olmasıdır.**

“Diodra S3” saatda 25 kilometr sürət yığa bilir. Onun, həmçinin xüsusi fırlanma sensoru və elektron sürət dəyişdirmə funksiyası var. Batareya tutumu velosipedə təxminən 100 kilometr məsafə qət etməyə imkan verir.

Qeyd edək ki, “Diodra S3”ü artıq Avropa bazarlarında sifariş etmək mümkündür.

*FİDAN*
*XQ*

**Hava**

# Abşeronda yağmursuz, bölgələrdə yağıntılı və dumanlı...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən aprelin 7-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 6-11°, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq.**



Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 15-20° isti, dağlarda gecə 1° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

**Sağlamlıq**

# Hər gün kahı – sağlam açarsan sabahı

**Bu qida həm ucuzdur, həm də sıfır kalorilidir. Onu hər gün rasiona daxil etmək olar. Söhbət kahıdan gedir. Salat kimi tanınan kahı yarpaqları müxtəlif rəngdə və formada olur.**

Bu yarpaqlara çoxlu vitamin və faydalı maddələr var. Onun tərkibindəki:

A vitamini – immunitetin funksiya göstərməsində rol oynayır.

K vitamini – sümüklər və qan laxtalanması üçün çox vacibdir.

B9 vitamini – fol turşusu qanazlığına qarşı, onurğa iliyi və sinir sistemi üçün əhəmiyyətlidir.

C vitamini və kalium, fenol turşusu və flavonoidlər hüceyrələri zədələnmədən qoruyur.

Həkimlərin fikrincə, hər gün rasiona kahı yarpaqları əlavə etmək insanı bir çox xərçəng və ürək xəstəliklərindən qoruya bilər.



2019-cu ildə alimlərin apardığı araşdırmalara görə, çox miqdarda çiy tərəvəz və yaşıl yarpaqlılar psixi sağlamlığı da qoruyur və depressiya simptomlarını azaldır.

Bu araşdırmalardan sonra alimlər yaşıl yarpaqları psixi sağlamlığa faydalı 10 ərzağın siyahısına daxil ediblər.

*Z.HÜSEYNLİ*
*XQ*

*✓ Ucar Rayon Polis Şöbəsi tərəfindən Hacıyeva Zeynəb Qafar qızının adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.*

*✓ Hacıyev Rahib Sədiyar oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, “011” markalı, 61BH520 dövlət nömrə nişanlı avtomobilə məxsus texniki pasport itdiyi üçün etibarsız sayılır.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3874
SİFARİŞ 714
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00